# “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikası Qanununun KOMMENTARİYASI

**BAKI - 2011**

***Elmi redaktor:***
**Əli Hüseynli**
Hüquq üzrə fəlsəfə doktoru, Azərbaycan Respublikası Milli Məclisinin Hüquq siyasəti və dövlət quruculuğu Komitəsinin sədri, Azərbaycan Hüquqşünasları Konfederasiyasının sədri

***Rəyçilər:***
**Hicran Hüseynova**
Siyasi elmlər doktoru, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri

**Lətif Hüseynov**
Hüquq elmləri doktoru, Milli Məclisin Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsinin müdiri, Avropa Şurasının İşgəncələrə Qarşı Komitəsinin sədri, Azərbaycan Hüquqşünasları Konfederasiyası idarə heyətinin üzvü

**Nadir Adilov**
Hüquq üzrə fəlsəfə doktoru, AMEA-nın İnsan Hüquqları Elmi Tədqiqat İnstitutunun Vətəndaş və siyasi hüquqlar şöbəsinin müdiri, Azərbaycan Hüquqşünasları Konfederasiyasının Baş katibi

**Qaracayev C.Y.** "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanununun kommentariyası. Bakı., 2011. - 132 səh.

**İSBN: 978-9952-8079-9-8**

Kitabda məişət zorakılığı terminin anlayışı, məişət zorakılığı ilə mübarizə sahəsində beynəlxalq-normativ aktların xüsusiyyəti, habelə xarici ölkələrin və Azərbaycan Respublikasının təcrübəsinin təhlili ilə yanaşı "Məişət zorakılığının qarşısının alınması haqqında" 2010-cu il 22 iyun tarixli Azərbaycan Respublikası Qanununun maddələrinə dair kommentariya aparılıb.

Kitab hüquq fakültələrinin müəllim, tələbələri, habelə, dövlət təşkilat və idarələrinin əməkdaşları və gender bərabərliyi sahəsinə maraq göstərən geniş oxucu auditoriyasına tövsiyə edilir.

*"Bu kitabın nəşrinin bir hissəsi BMT-nin Əhali Fondunun Avrasiya Hüquqşünaslar Assosiasiyasına ayırdığı qrant vəsaiti hesabına, digər hissəsi isə Amerika Birləşmiş Ştatları Dövlət Departamenti tərəfindən Amerika Hüquqşünaslar Assosiasiyasına ayrılan qrant vəsaiti hesabına maliyyələşdirilib. Kitabda ifadə edilmiş fikirlər, faktlar və nəticələr müəllifə aiddir və BMT-nin Əhali Fondunun, Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin, Amerika Hüquqşünaslar Assosiasiyasının mövqeyini əks etdirmir."*

*Kitab Azərbaycan Hüquqşünasları Konfederasiyası, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Avrasiya Hüquqşünaslar Assosiasiyasının birgə əməkdaşlığı nəticəsində çap olunmuşdur.*

*© Azərbaycan Hüquqşünasları Konfederasiyası, 2011*
*© Qaracayev C.Y., 2011*

## MÜNDƏRİCAT


Ön söz .............................................................................. 5

**I BÖLMƏ. Məişət zorakılığı problemi: müqayisəli təhlil** ..... 8

1.1. Məişət zorakılığının anlayışı və əlamətləri ....................... 8
1.2. Məişət zorakılığına qarşı beynəlxalq-normativ aktların xüsusiyyəti ..................................................... 28
1.3. Məişət zorakılığı ilə mübarizə sahəsində xarici ölkələrin təcrübəsi ........................................................ 42
1.4. Məişət zorakılığı ilə mübarizə sahəsində Azərbaycan Respublikasının təcrübəsi ............................................. 52

**II BÖLMƏ. Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikası Qanununun kommentariyası** ................................................ 66

Preambula. ......................................................................... 66
**Maddə 1.** Əsas anlayışlar. ....................................................... 70
**Maddə 2.** Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının qanunvericiliyi. ...................................................... 79
**Maddə 3.** Məişət zorakılığının qarşısının alınması sahəsində əsas prinsiplər. ........................................................... 81
**Maddə 4.** Bu Qanunun şamil edildiyi şəxslər. ......................... 83
**Maddə 5.** Məişət zorakılığı ilə bağlı şikayətlərə baxan dövlət orqanları ............................................ 86
**Maddə 6.** Məişət zorakılığı barədə şikayətlərin araşdırılması ........................................................ 88

**Maddə 7.** Məişət zorakılığı ilə bağlı şikayətlərə cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş qaydada baxıldıqda, cinayət təqibi ilə yanaşı görülməli tədbirlər. ................................................ 89
**Maddə 8.** Cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş qaydada araşdırılmayan məişət zorakılığı ilə bağlı dövlətin vəzifələri. .................... 95
**Maddə 9.** Məişət zorakılığı barədə şikayətlərə bu Qanunun 5.2-ci maddəsində nəzərdə tutulmuş qaydada baxılmasının nəticələrinə dair qərar. ...... 100
**Maddə 10.** Mühafizə orderi. ............................................. 102
**Maddə 11.** Məişət zorakılığının təkrarlanmaması barədə xəbərdarlıq edilməsi və qısamüddətli mühafizə orderinin verilməsi.............................. 107
**Maddə 12.** Uzunmüddətli mühafizə orderinin verilməsi qaydası. ............................................. 110
**Maddə 13.** Məişət zorakılığının qarşısının alınması sahəsində tədbirlərin növləri............................. 116
**Maddə 14.** Məişət zorakılığının qarşısının alınması sahəsində hüquqi tədbirlər. ............................................... 118
**Maddə 15.** Məişət zorakılığının qarşısının alınması sahəsində sosial tədbirlər................................................. 119
**Maddə 16.** Məişət zorakılığı ilə bağlı qabaqlayıcı tədbirlər........................................... 121
**Maddə 17.** Zərər çəkmiş şəxslərə yardım göstərildikdə konfidensiallığın təmin edilməsi. ..................... 123
**Maddə 18.** Məişət zorakılığı ilə bağlı məlumat bankı. ........ 125
**Maddə 19.** Yardım mərkəzləri. ........................................... 127
**Maddə 20.** Qanunun pozulmasına görə məsuliyyət.............. 131

## Ön söz

Məişət şəraitində qadın və uşaqlara qarşı zorakılıq ilk növbədə insan hüquqlarının təminatına təhlükə yaradır. Cəmiyyətdə yaranmış vəziyyətdən, fərdin iqtisadi imkanından, onun sosial statusundan asılı olmayaraq, dövlət öz pozitiv öhdəliyinə görə hər bir insanın konstitusiya hüquqlarının qorunması üçün imkanlar yaratmalıdır. Statistika və sorğular onu göstərir ki, dünyanın bir çox ölkələrində zorakılıq və xüsusən də gender əsaslı zorakılıqlar hələ də davam etməkdədir. Lakin digər ölkələrlə müqayisəli şəkildə baxsaq, bu problem Azərbaycanda geniş miqyaslı deyildir. Ancaq problemlə bağlı son illərdə ölkəmizdə böyük işlər görülmüşdür. Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında ölkə əhalisinin sosial-iqtisadi rifah halının yüksəldilməsinə yönəlmiş bir çox dövlət proqramları, qanunvericilik sahəsində ciddi irəliləyişlərin olması buna konkret nümunədir. Ölkə başçısının sosial-iqtisadi inkişaf sahəsində həyata keçirdiyi siyasət həmçinin insan hüquqlarının daha effektiv təmin edilməsinə güclü təkan vermişdir. Bir çox dövlət proqramlarında zorakılıqla mübarizə məsələləri öz əksini tapmışdır ki, bu da Cənab Prezidentin bu problemə necə həssaslıqla yanaşdığını göstərir.

Məişət zorakılığının qarşısının alınması insanların təhlükəsizliyinin təmin olunmasında böyük əhəmiyyət kəsb edir. Qadın və uşaqlara qarşı məişət zorakılığı, xüsusilə də bu hüquq pozuntusunun cinayət xarakterli tərəfləri tək qadınların problemi olmamalıdır. Cəmiyyət bilməlidir ki, məişət zorakılığı vətəndaş cəmiyyətinin əsaslarına ciddi zərbə vurur. Ailədə, cəmiyyətdə və dövlətlərarası sülhün yaradılması bir biri ilə əlaqəli proseslərdir.

Məişət münasibətlərində baş verən zorakılıq halları hər bir insanı narahat etməlidir. Bundan hər bir cəmiyyətin gələcəyi asılıdır. Ailədə azad tərbiyə olunan, zorakılığa məruz qalmayan uşaq cəmiyyətə asan inteqrasiya edir və yaşadığı ailə münasibətlərinə uyğun pozitiv funksiyalar daşıyır.

Beynəlxalq cəmiyyət artıq bu problemin əhəmiyyətini dərk edib. Məişət zorakılığına qarşı çox sayda beynəlxalq

sənədlər qəbul edilib, beynəlxalq aktlar əsasında xüsusi müdafiə mexanizmləri yaradılıb. Ancaq onların təminatı hər bir ölkənin bu problemlə mübarizə etmək istəyindən asılıdır.

Hazırda 89 ölkənin qanunvericiliyində məişət zorakılığı ilə əlaqədar konkret normalar öz əksini tapmışdır. Azərbaycan da məişət zorakılığın bütün formalarının ləğv edilməsi ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində əhəmiyyətli uğurlar əldə etmişdir. Buna misal olaraq Komitəmizin geniş sferada aparılan müzakirələrdən sonra hazırlayıb Milli Məclisə təqdim etdiyi və 2010-cu ildə qəbul olunan "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanun böyük əhəmiyyətə malikdir. İlk növbədə qeyd edim ki, Qanunun qəbul olunmasında Heydər Əliyev Fondunun prezidenti, Millət vəkili Mehriban Əliyevanın çox böyük diqqəti və rolu olmuşdur. Qanunun hazırlanması prosesində Komitə tərəfindən dövlət və qeyri-hökumət qurumlarının, ictimai sektorun geniş diskussiyaları təşkil olunmuş, irəli sürülən bütün mühüm təklif və tövsiyələr nəzərə alınmışdır. Bu qanunun mövcudluğu ölkəmizdə bu sahədə olan problemlərin həllinə əsaslı təkan olacağına ümid edirəm. Həmçinin bu qanunun qəbul olunmasında əsas məqsədlərdən biri də zorakılığın qarşısının alınması, qadınlara öz bacarıqlarından istifadə etmələri üçün geniş imkanların yaradılması, qadın və kişilər arasında real bərabərliyə nail olunmasıdır.

Heydər Əliyev Fondu, BMT Əhali Fondu və Komitə tərəfindən həyata keçirilən "XXI əsrdə qadınlara qarşı zorakılıq əleyhinə" adlı birgə layihə bu problemin həlli istiqamətində görülən ciddi işlərdən biridir. Gender əsaslı zorakılığın qarşısını almağa dair Komitə tərəfindən bir çox ciddi layihələr işlənilmiş, geniş miqyaslı maarifləndirmə kompaniyası həyata keçirilmişdir.
Buna misal olaraq BMT-nin Əhali Fondu ilə birlikdə 2008-2011-ci illərdə həyata keçirilən Gender Əsaslı Zorakılıqla Mübarizə Layihəsini qeyd etmək olar. Layihə qadın hüquqlarının müdafiəsi, gender bərabərliyi və qadınların cəmiyyətdə qərar qəbul etmə prosesində iştirakının təmin edilməsi üzrə həyata keçirilən siyasətin dəstəklənməsinə yönəlmiş təşəbbüslərdəndir.

Layihə qadınlara qarşı zorakılıqla mübarizə məqsədilə tədqiqat, maraqların müdafiəsi və maarifləndirmə, qanunvericiliyin təkmilləşdirilməsinə dəstək, gender əsaslı zorakılığın (GƏZ) qarşısının alınması məqsədilə əsas xidmət təchizatçılarının bacarıqlarının artırılması, GƏZ qurbanlarının müdafiəsi və reabilitasiyası kimi bir sıra fəaliyyətlərin həyata keçirilməsinə dəstək verməklə Azərbaycanda qadın hüquqlarının müdafiəsinə öz töhvəsini verib.

Məişət zorakılığı ilə mübarizə sahəsində həyata keçirilən tədbirlərin effektivliyi cəmiyyətdə mövcud olan hüquqi düşüncədən birbaşa asılıdır. Hər bir dövlət qanun yaradıcılığı prosesi ilə bərabər hüquqi maarifləndirmə işi də aparmalıdır. Güman edirəm ki, hazırlanan "Məişət zorakılığının qarşısının alınması haqqında" 2010-cu il 22 iyun tarixli Azərbaycan Respublikası Qanununun kommentariyası maarifləndirmə prosesinə qədər öz töhfəsini gətirə biləcəkdir.

**professor Hicran Hüseynova**
**Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri**

# I BÖLMƏ. Məişət zorakılığı problemi: müqayisəli təhlil

## 1.1. Məişət zorakılığının anlayışı və əlamətləri

Müqayisəli tədqiqatlar göstərir ki, məişət zorakılığı sosial hadisə kimi bütün sivilizasiyalarda və ictimai-iqtisadi formasiyalarda mövcuddur. Cəmiyyətin inkişafının konkret tarixi dövründən asılı olaraq məişət zorakılığının miqyası və xüsusiyyətləri fərqli olubdur. Zorakılıq ictimai-sosial problem kimi daim insan davranışının, ümumilikdə yaşayışın ayrılmaz elementi sayılıbdır. Zorakılıq anlayışı fəlsəfə, təbabət, psixologiya, sosiologiya və s. kimi müxtəlif elm sahələrinin tədqiq predmeti olubdur. Bu zamana kimi zorakılıq məfhumu çoxmənalı və çoxaspektli elmi kateqoriya olaraq qalır.

Etimoloji cəhətdən zorakılıq "şəxsiyyətin toxunulmazlıq hüququnu pozmaqla, bir şəxsin digər şəxsə fiziki və ya psixi təsir göstərməsidir".[1] Fəlsəfədə zorakılıq iqtisadi və ya siyasi rəhbərliyin, yaxud hansısa hüquqların əldə edilməsi məqsədi ilə hər hansı sinfin və ya sosial qrupun digər sinfə və ya sosial qrupa qarşı müxtəlif məcburedici formalardan, hətta silahdan istifadə etməsi deməkdir. Zorakılıq ictimai təhlükəli əməl sayıldığına görə hüquq elmləri sahəsində daha çox cinayət hüququnun obyektidir. Məsələn, cinayət hüququ üzrə lüğətdə etimoloji cəhətdən zorakılıq "hər hansı bir qüvvədən qeyri-qanuni istifadə edərək məcburetmə, yəni başqa şəxsin istəyinə zidd olaraq ona təsir göstərmə" kimi başa düşülür.[2]

Zorakılıq anlayışına geniş və ya dar mənada baxıla bilər, lakin hər bir halda onun insan şəxsiyyəti ilə bağlılığını görmək olur. Geniş mənada zorakılıq başqalarına ziyan gətirən hərəkət tərzi və ya məcburetmə, sərbəst seçkinin məhdudlaşdırılması, azad istəyin qarşısının alınması kimi başa düşülür.[3] Dar mənada

---

[1] Hüquq ensiklopedik lüğəti. Bakı., 1991. - C.176

[2] Словарь по уголовному праву / Под ред.проф. А.В.Наумова. – М., 1997. - С. 245

[3] Гусейнов А.А. Понятие насилия и ненасилия // Вопросы философии. - 1994. - №6. – С.36.

zorakılıq anlayışı konkret bir şəxsə və ya sosial qrupa fiziki, psixi, maddi və ya mənəvi ziyanın vurulmasıdır. Zorakılıq anlayışına xüsusi forma çərçivəsində də dar mənada yanaşıla bilər. Məsələn, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin (bundan sonra – Cinayət Məcəlləsi) 108-ci maddəsinə əsasən cinsi zorakılıq cinayəti "zorlama, fahişəliyə məcbur etmə, məcburi sterilizasiya və ya cinsi zorakılıqla əlaqədar digər hərəkətləri etmə" kimi başa düşülür.[1] Zorakılıq anlayışına hüquqi cəhətdən daha dar mənada və xüsusi forma çərçivəsində yanaşılması cinayət qanunvericiliyində bu növ qanun pozuntusuna qarşı effektiv təminatın yaradılmasına imkan verəcəkdir.

Zorakılıqdan qorunmanın hüquqi vasitələrinin yaradılması üçün ilk növbədə onun hüquqi cəhətdən elementlərini fərqləndirmək lazımdır. Hüquq elminin tətbiqi sahələri zorakılığı tədqiqat obyekti kimi təhlil edərək onun bioloji və ya sosioloji təbiətini nəzərdən keçirir. Müxtəlif alimlərin fikirlərini ümumiləşdirərək Y.İ.Gilinski qeyd edir ki, insanlar heyvanlardan fərqli olaraq təcavüzkar münasibət göstərən zorakılıq obyektinə nifrətlə (düşmənsayağı) yanaşırlar. İnsanlarda təcavüz və ya zorakılıq məqsədə çevrilə bilər, heyvanlarda isə bu hiss təbii qidanın əldə edilməsi, balasının müdafiəsi zamanı yarana bilər.[2] L.Berkovits hesab edir ki, təcavüzü instrumental və emosional (düşmənçilik) təcavüzkarlıq kimi fərqləndirmək olar. İnstrumental təcavüzə o müəyyən məqsədə nail olmasına (müəyyən sosial statusunun alınması, nəzarət və ya qurbanının nəyəsə məcbur etməsi və s.), emosional təcavüzə isə - ziyanın gətirilməsi və ya zorakılıq qurbanın məhv edilməsini aid edir.[3]

Genezis baxımından təcavüzkarlıq insan həyatının ayrılmaz tərkib hissəsi olan davranış formasıdır. Psixoloqlar hesab edirlər ki, təcavüzkarlıq və ya zorakılıq hərəkətləri bizim evolyusiya

---

[1] Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin şərhi: Xüsisi hissə / E.M.Efendiyevin red. altında. – B., 2001. – I Cild. – S. 315.

[2] Гилинсий Я.И. Криминология. – Санкт-Петербург., - 2002. – С. 173.

[3] Берковиц Л. Агрессия: причины, последствия и контроль. – Санкт-Петербург., 2001. – С. 45.

irsimizin hissəsidir. Təcavüzün motivi əksər halda insanın fizioloji kökləri ilə bağlıdır. Belə ki, insan beynində badamaoxşar cisim adlandırılan, təcavüzkar hərəkətlərə cavabdeh olan xüsusi sahə mövcuddur. Bundan başqa, təcavüzün yaranmasına müəyyən kimyəvi maddələr, məsələn, hormonlar, alkoqol və s. təsir göstərə bilər. Təcavüzkarlıq ağrı ilə də yarana bilər. Amerika alimləri aşkar etmişlər ki, xüsusi ağır cinayəti qəddarlıqla törədən şəxslərin qanında testosteronun səviyyəsi zorakılıqla əlaqəsi olmayan cinayətlərə görə məhkum olunmuşlardan daha yüksəkdir.[1]

Kriminologiya elminin yaradıcılarından biri Cesare Lombroso 4 tipdə cinayətkar fərqləndirirdi: qatil, oğru, vəhşi (zorakılıq edən), dələduz.[2] C.Lombroso cinayətkarları vəhşi hesab edərək qeyd edirdi ki, onlar adi insan cəmiyyətinin həyatına uyğunlaşa bilməyərək, öz psixofizioloji xüsusiyyətlərinə görə yalnız qəsdən adam öldürmə, soyğunçuluq və zorakılıq törədə bilirlər. Onun davamçıları - cinayət hüququnda antropoloji məktəbin tərəfdarları Rafael Qarofalo və Enriko Feri ilk dəfə zorakılığın müxtəlif xüsusiyyətlərini təhlil edərək onun cinayət-hüquqi anlayışını verdilər.[3] Beləliklə, demək olar ki, məişət zorakılığı ilə bağlı cinayət növlərini cinayətkarın psixoloji vəziyyətini, yəni subyektiv tərəfini təhlil edərək anlamaq olur. C.Lombrosodan fərqli olaraq tanınmış psixoloq Ziqmund Freyd hesab edirdi ki, bütün insanlar cinayətkar doğulsalar da, hamısı cinayətkar olmur. Hər bir şeyin əsasında şəxsin anadangəlmə instinktləri və meylləri durur. Əgər insan müəyyən instinktlərini (məsələn, cinsi instinktləri) təmin edə bilmirsə, bunun üçün müəyyən psixi maneələrlə rastlaşırsa, onda psixi gərginlik, nevroloji narahatlıq yaranır və nəticədə bu cür vəziyyət onu zorakılıq törətməsinə vadar edir.[4]

---

[1] Аронсон Э., Уилсон Т., Эйкерт Р. Психологические законы поведения человека в социуме (перевод с английского) / Психологическая энциклопедия.- Санкт-Петербург., 2002. - С.396.

[2] Чезаре Ломброзо // www.ru.wikipediya.org/wiki/

[3] Антропологическая школа уголовного права // www.dic.academic.ru/dic.nsf/enc_law/91/.

[4] Зигмунд Фрейд. Основные труды // www.ziqmund.ru/transachions.php.

ABŞ və Qərbi Avropa ölkələrində son illərdə keçirilmiş tədqiqatlara əsasən məişət zorakılığının səbəblərini açıqlayan bir sıra nəzəriyyələr müəyyən edilmişdir. Bunlardan biri psixopatoloji nəzəriyyədir. Bu nəzəriyyəyə əsasən cinsi partnyorlarını zorakılığa məruz qoyan kişilər əqli cəhətdən problemi olan şəxslərdir və zorakılığın qarşısını səmərəli şəkildə almaq üçün onların tibbi vasitələr və psixiatrik yanaşmalarla müalicəyə ehtiyacı var. Bu nəzəriyyənin əksər hallarda zorakılıq törədənlərə haqq qazandırmağa yönəldiyini hesab edən feminist qruplar sözügedən nəzəriyyəni ciddi tənqidlərə məruz qoydu. Lakin buna baxmayaraq 1990-cu illərin ortalarından psixopatoloji nəzəriyyə yenidən aktuallıq qazanmağa başladı.[1]

Psixopatoloji nəzəriyyə aktuallığını itirdikdən sonra ailədaxili zorakılığı araşdıran tədqiqatçılar artıq bu fenomeni sosial öyrənmə nəzəriyyəsi ilə izah etməyə başladılar. Bu nəzəriyyəyə əsasən kişilər öz cinsi partnyorlarını zorakılığa məruz qoymalarının əsas səbəbi onların bu cür davranışı uşaq ikən öz ailələrində müşahidə etməsindən ibarətdir. Sözügedən nəzəriyyə qadınların da zorakılıq törətməyə meylli kişilərlə ailə qurmasını məhz bu səbəblə izah edirdi. Bu nəzəriyyə, həmçinin, "öyrənilmiş davranış" adı ilə xarakterizə edilir. Bu nəzəriyyə hələ də zorakılığın nəsillərarası ötürülməsi fenomenini izah etmək üçün geniş şəkildə istifadə olunur. Lakin bu nəzəriyyənin əsas problemli cəhətlərindən biri ondan ibarətdir ki, qızların zorakılıq törətməyə meylli şəxslərə ailə qurmağa həvəs etməsi tədqiqatlar tərəfindən sübut edilməyib. Digər tədqiqatlar isə göstərmişdir ki, zorakılıq törədən kişilərin yalnız 30%-i uşaq ikən ailələrində zorakılığı müşahidə etmiş olurlar.[2]

---

[1] Jasinski J. L. Theoretical Explanations for Violence Against Women *Sourcebook on Violence Against Women*, Sage Publications, 2001; Claire M. Renzetti, Jeffrey L. Edleson and Raquel Kennedy Bergen Sourcebook on Violence Against Women, Sage Publications, 2010; K.J.Wilson When Violence Begins at Home: A Comprehensive Guide to Understanding and Ending Domestic Abuse Hunter House Publishers, 2005

[2] Jasinski J. L. Theoretical Explanations for Violence Against Women *Sourcebook on Violence Against Women*, Sage Publications, 2001

Məişət zorakılığı fenomenini izah etməyə cəhd edən növbəti nəzəriyyə bioloji nəzəriyyədir. İlk dövrlərdə bu nəzəriyyə əsas diqqəti genetika və irsiyyət məsələləri üzərində cəmləyirdi. Lakin son illərdə bu nəzəriyyə daha çox sonradan baş vermiş beyin travması ilə zorakılıq arasında əlaqələr yaratmağa çalışır. Doğrudur, zorakılıq hallarını uşaq ikən baş vermiş beyin travması, uşağa qarşı laqeyd münasibət və uşaq ikən atılma və s. faktorlarla izah edən fərziyyələr hələ tədqiq edilməkdədir, lakin indiyə kimi keçirilmiş tədqiqatlar mütləq şəkildə sübut edir ki, insan beynində uşaq ikən keçirilmiş travmalar nəticəsində müəyyən psixoloji problemlər baş verir.[1]

Ailə sistemləri nəzəriyyəsinə əsasən ailə dinamik bir qurumdur və bir-biri ilə qarşılıqlı əlaqədə olan bir sıra komponentlərdən ibarətdir. Bu nəzəriyyə hesab edir ki, ailənin bir üzvünün davranışı və bu davranışın təkrarlanmasının mümkünlüyü digər ailə üzvlərinin cavabları və reaksiyasının təsiri nəticəsində formalaşır. Bu nəzəriyyə zorakılığa məruz qaldığı üçün qurbanın özünü də günahlandırdığı üçün bir sıra tənqidlərə məruz qalır.[2]

Məişət zorakılığı məsələlərini dərindən tədqiq edən digər bir nəzəriyyə feminist nəzəriyyəsidir. Bu nəzəriyyəyə əsasən məişət zorakılığı nikah daxili ayrı-seçkilikdən qaynaqlanır və mövcud patriarxal münasibətlər nəticəsində kişinin gücünün, qadının isə asılılığının daha da dərinləşməsi ilə izah edilir. Bu nəzəriyyə tərəfdarları bu qənaətdədir ki, mövcud durumun dəyişdirilməsi üçün ailə strukturunun və ailə daxili rolların dəyişdirilməsi lazım olacaq.[3]

---

[1] Jasinski J. L. Theoretical Explanations for Violence Against Women *Sourcebook on Violence Against Women*, Sage Publications, 2001

[2] Claire M. Renzetti, Jeffrey L. Edleson and Raquel Kennedy Bergen Sourcebook on Violence Against Women, Sage Publications, 2010; K.J.Wilson When Violence Begins at Home: A Comprehensive Guide to Understanding and Ending Domestic Abuse Hunter House Publishers, 2005

[3] Claire M. Renzetti, Jeffrey L. Edleson and Raquel Kennedy Bergen Sourcebook on Violence Against Women, Sage Publications, 2010; K.J.Wilson When Violence Begins at Home: A Comprehensive Guide to Understanding and Ending Domestic Abuse Hunter House Publishers, 2005

Tarix göstərir ki, müxtəlif siyasi, iqtisadi, sosial gərginliklər dövründə zorakılıq problemi xüsusi əhəmiyyət kəsb edir və müxtəlif tərəfdən, məsələn, siyasi, iqtisadi, hərbi cəhətdən təhlil edilir. Lakin bir sıra alimlərin fikrincə, zorakılığın ən geniş anlayışı yeganə sosioloji kontekstdə müzakirə oluna bilər. İctimai təzadlar və münaqişələr baş verdiyi halda zorakılığın bütün növlərini müşahidə etmək olur. İ.N.Adamov hesab edir ki, zorakılığın əlamətlərini görmək üçün onun növlərinin anlayışını sosioloji çərçivə dairəsində təhlil edərək, ümumi sosioloji təriflə müqayisə etmək lazımdır. [1]

Fəlsəfi kateqoriya kimi sosial zorakılığın mahiyyəti müəyyən tarixi zaman çərçivəsində maddi və mənəvi hadisə və proseslərdən asılı olaraq dəyişir. Yəni sosial zorakılığın tərkibi ictimai münasibətlərin və cəmiyyətin sosial həyatının şərtləri ilə müəyyən olunur. Məhz ona görə bir ictimai sistemdə idarəçilik rejimindən asılı olaraq sosial zorakılıq dövlət siyasətinin tərkib hissəsi və ya cəmiyyətdə ictimai bəla kimi ola bilər.

Cəmiyyətdə fərqli sosial təminat təbii proses olsa da, müəyyən hallarda sosial qruplar arasında ziddiyyətə səbəb olur. Hüquqi düşüncə aşağı səviyyədə olduğu halda ziddiyyət zorakılığın səbəbinə çevrilir. Sosial bərabərliyin süni şəkildə yaradılması isə dövlətin total zorakılığı ilə müşahidə olunur. Beləliklə, ibtidai icma quruluşunda münaqişələrin zorakılıq yolu ilə həlli heyvanların təcavüzkar davranışına bənzəyirdisə, əmək bölgüsünün aparılması, sosial qrupların yaranması ilə zorakılıq ictimai münaqişələrin və antaqonizmlərin həlli üsuluna çevrildi. Bir tərəfdən zorakılıq ictimai həyatın immunitetinin möhkəmlənməsinə xidmət edir, digər tərəfdən sosial zorakılıq ictimai münasibətlərin təkmilləşməsinə və cəmiyyətin tərəqqisinə xeyli dərəcədə mane olur.

---

[1] Адамов И.Н. Наука психология и социологические понятия. – Киев., 1992. – С. 34.

Sosial zorakılığın mahiyyətini anlamaq üçün onun əsas əlamətlərini fərqləndirmək olar. Məsələn, V.Q.Bujov sosial zorakılığı əsas əlamətlərinə görə aşağıdakı kimi fərqləndirir:

- sosial subyektlər (sosial qrup, sinif, dövlət) arasında yaranan münasibətlər kimi yaranır;
- zahiri görünüşü ilə səciyyələnir;
- bir subyektin digərinə təsir vasitəsidir;
- zorakılıq şəxsin marağına zidd olmaqla bərabər qanuna ziddir;
- zorakılıq müxtəlif formalarda yaranır və zorakılıq obyektinin məhv edilməsinə yönələ bilər.[1]

Beləliklə, sosial zorakılığın müxtəlif formaları mövcuddur. Hüquq elmində sosial zorakılığın tipologiyası və təsnifatı verilir. Onlar müxtəlif əsaslarla diferensiasiya olunub. Məsələn, hüquq ədəbiyyatında qeyd edilir ki, zorakılığın müxtəlif növləri var: ailə zorakılığından dövlətlərarası zorakılığa qədər; fərdi zorakılıqdan kütləvi (soyqırımı) zorakılığa qədər; leqal (dövlətin adından) zorakılıqdan kriminal zorakılığa qədər; instrumental zorakılıqdan səbəbsiz zorakılığa qədər və s.[2] Digər müəlliflərin fikrincə, siyasi, iqtisadi və hərbi zorakılıqdan başqa orduda, asudə şəraitində, ailə münasibətlərində də zorakılıq mövcuddur.[3] V.V.İvanov xüsusi ədəbiyyatı təhlil edərək, fiziki, psixi, instrumental, intellektual, məişət, ailə, mənəvi, silahlı, siyasi, əmlak, tərbiyəvi zorakılığın növlərini fərqləndirir.[4] Ümumilikdə hüquq ədəbiyyatında və əksər dövlətlərin cinayət qanunvericiliyində fiziki və psixiki zorakılıq zorakılığın əsas formaları kimi müəyyən edilir və onların törədilməsinə görə məsuliyyət nəzərdə tutulur.

---

[1] Бужов В.Г. Криминологический анализ и предупреждение тяжкой насильственной групповой преступности / Автореф. Дис.кан.юрид.наук. – М., 1992.- С. 8

[2] Гилинсий Я.И. Криминология. – Санкт-Петербург., - 2002. – С. 180

[3] Абельцев С.Н. Личность преступника и проблемы криминального насилия. – М., 2000.- С. 66

[4] Иванов В.В. Преступное насилие – М., 2002. – С. 6.

Əksər halda hüquq ədəbiyyatında zorakılıq növlərini onun formaları ilə qarışdırırlar. Onların fərqləndirilməsi bu tədqiqatın məqsədi deyil. Ancaq zorakılığın qarşısının alınmasında hüquqi vasitələrin yaranması mərhələsində cinayət xarakterli zorakılığın cinayət tərkibi olmayan zorakılıqdan fərqli əlamətlərini aşkar etmək xüsusilə vacibdir. Ona görə ki, zorakılıq törədilməsi nəticəsində zor tətbiq edən şəxsə törətdiyi əməllərə müvafiq adekvat xəbərdaredici və ya cəzalandırıcı tədbirlər görülməlidir.

Zorakılığa qarşı hüquqi vasitələr qanuna zidd əməlin tərkibinə müvafiq yaradılır. Bu sahədə hüquqi normalar əxlaq, adət və ənənə normaları ilə sıx əlaqədədir. Xüsusilə onları gender münasibətlərində müşahidə etmək olur. XX əsrin 70-80-ci illərində sosial zorakılığın bir növü olan məişət zorakılığı çərçivəsində qadınlara qarşı zorakılıq aktuallaşdı. Əksər ölkələrin hüquq sistemində məişət münasibətlərinin qorunması gender bərabərliyinin təminatı ilə əlaqələndirilir. Məişət zorakılığının qarşının alınması təcrübəsi və nəzəriyyəsi göstərdi ki, cinsi mənsubiyyətə görə zorakılıq həmişə gender bərabərsizliyi, adət və ənənə xarakterli iqtisadi və mədəni normaların cəmiyyətdə təsiri altında yaranır. Gender bərabərliyinin əldə edilməsi – qadınlara qarşı zorakılığın, xüsusən cinayət xarakterli hərəkətlərin qarşısının alınması hər bir demokratik dövlətin insanlar qarşısında vəzifəsidir.

Kişi ilə qadın arasındakı fizioloji, təbii fərq onların sosioloji statusuna müəyyən qədər anaxronik təsir göstərir. Hələ qədim dövlətlərdə təbii yolla cinsi və yaş göstəricilərinə görə əmək bölgüsü aparılırdı. Kişilər ovla, qadınlar isə nisbətən yüngül məişət məsələləri (yemək hazırlamaq, uşaqlara baxmaq) ilə məşğul olurdular. Tarix boyu ailə münasibətlərində evdən kənar ictimai funksiyalar kişinin ev işləri isə qadının üzərinə düşürdü. Bunun nəticəsində qədimdə, bütün ictimai formasiyalarda qadın - kişidən, atadan, ərdən, qəyyumdan asılı idi. Beləliklə, qadınlara qarşı zorakılıq əsasən nikah institutlarında inkişaf edirdi və hətta müasir dövrdə onun qalıqlarını görmək olur.

Məişət (ailə) zorakılığı tarixində dönüş 1853-cü ildə baş verdi. İngiltərədə ilk qadınlar ittifaqlarının təzyiqi altında "Qadınlara və uşaqlara qarşı zorakılığın aradan qaldırılması və cəzalandırılması haqqında" Akt qəbul edildi. Bu normativ akt ailədə fiziki zorakılığı tətbiq edən kişini qısa müddətə azadlıqdan məhrum etmək imkanı verirdi. "Nikah işləri haqqında" 1857-ci ildə qəbul edilən növbəti Akt qadınlara çox məhdud əsaslarla ərindən ayrılmağa icazə verirdi (ərinin xəyanəti, psixi pozuntular və s.). Sonralar, 1878-ci ildə bu Akt bir qədər genişləndirilmişdi.[1] 1872-ci ildə dünyada ilk dəfə Amerikanın Massaçusets və Alabama ştatlarında qadınlara qarşı zorakılıq cinayət kimi qəbul edildi.[2] XIX əsrin sonuna qədər hətta Avropa ölkələrində nikah qanunvericiliyinə əsasən ərdə olan qadının şəxsi əmlakının sahibi olmaq hüququ yox idi, Rusiyada isə onların fərdi yaşamaq hüquqları yox idi, arvadın adı ərinin pasportuna daxil olunurdu.[3]

Şərq ölkələri üçün patriarxal həyat tərzi xüsusilə səciyyəvi idi. Məsələn, ərəb ölkələrində islam dövründən əvvəl qadınlar kişilər tərəfindən mal kimi satılırdılar və hətta ev heyvanlarına dəyişdirilə bilərdilər. Yeni doğulmuş qızların yerə basdırılması, məhdudiyyətsiz sayda arvad saxlanılması adəti geniş yayılmışdı.[4]

İslamın Yaxın Şərqə yayılması ilə qadınların vəziyyəti nisbətən yaxşılaşdı. İbadət otaqları ayrı olsa da, qadınlar kişilərlə birgə cümə günü dini mərasimlərdə iştirak edirdilər. Yeni dinin müsbət tərəfləri ilə bərabər, şəriət qadınlara qarşı müəyyən məhdudiyyətlər də yaratdı. Kişi ilə qadın arasında fərqli hüquqlar yarandı. Onu da nəzərə almaq lazımdır ki, Quran islam ölkələrində əsas hüquqi mənbəyə çevrilmişdir, orada ifadə olunmuş normalar heç zaman dəyişdirilə və inkar edilə bilməz.[5]

---

[1] Тугельбаева Б.Г. Исторический очерк о домашнем насилии // Ненадежность гендерной защиты. – Бишкек., 1996. - С.5.
[2] Координированный ответ населения на бытовое насилие против женщин. – Миннесота., 1996. - С. 9.
[3] Табышалиева А.С. Отражение во времени. – Бишкек., 1998. – С. 56.
[4] Orada – S.14.
[5] Наимова З.И. Права женщин в исламе // Женские и гендерные исследования в Таджикистане. – Душанбе., 2000. – С.79.

VII əsrdən Yaxın Şərq və Asiya xalqları üçün islam dini sosial və şəxsi (ailə) həyat münasibətlərini, qadınların ictimaiyyətdə və ailədə rolunu və funksiyalarını idarə edən dəyərlər sisteminə çevrildi. Kişilərin ailədə üstün vəziyyəti şəriət ilə təmin olunurdu. 9 yaşından qızların ərə verilməsi qanuniləşdirilmişdi. Qadın ərinə tabe olmadıqda ərinin onu cəzalandırmağa ixtiyarı var idi, ona görə ki, arvad ərindən asılı idi və ona tabe olmalı idi. Müsəlman hüququ qadınların fiziki azadlıqlarını məhdudlaşdırsa da, onların mülkiyyət hüququ hətta Avropa ölkələrində daha mütləq şəkildə qorunurdu. Məsələn, V.V.Bartold islamın qadına münasibətini təhlil edərək qeyd edirdi ki, "Quran şəxsiyyətin azadlıq hüququnun təminatından daha çox əmlak hüquqlarının müdafiəsinə zəmanət verir. Şəriətlə qadınların əmlak hüquqları avropadakılarından daha təminatlı qorunurdu. Lakin qadın kişiyə münasibətdə alçaldılmış vəziyyətdə qalmışdır. Sonralar qanun və adətlər onun hüquqlarını daha da məhdudlaşdırırdı".[1] Qadınlara qarşı məhdudiyyətlər şəriətdən başqa, həm də ərəb və türk tayfalarının adət və ənənələrində öz əksini tapır. Təbii ki, islamın buna təsiri olub. Müsəlman qadını hər hansı bir sosial bərabərlik və ya sosial fəaliyyət haqqında düşünmürdü. Müsəlman ölkələrinin müasir gender problemlərinin tarixi kontekstinin tədqiqatı göstərir ki, adət və ənənələrin əksəriyyəti, bu regionun xalqlarının həyat tərzi qadınlara qarşı ayrı-seçkiliklə səciyyələnirdi.[2]

Müsəlman ailələrində kişinin ailə münasibətlərində üstünlüyü ən əvvəl qadının ərindən iqtisadi asılılığına əsaslanırdı. Kişi evlənərək arvadının ailəsinə ödəniş edirdi (kalım) və ona görə qadına bir əmlak kimi baxırdı. Türk tayfalarının adət hüququnda nikah haqqında müqavilə bağlanarkən evlənənlərin razılığı tələb olunmurdu, ona görə nikah adətən məcburedici mahiyyət daşıyırdı.[3]

---

[1] Бартольд В.В. Первоначальный ислам и женщина /Собр.соч. – Т.6.- М., 1966. – С. 648.

[2] Табышалиева А.С. Отражение во времени. – Бишкек., 1998. – С. 18.

[3] Тленчиева Г.Б. Права женщин права человека в Казахстане // женщина, гендер, культура. – М., 1999. – С. 252.

Beləliklə, kalımın ödənilməsi qadına daşınan əmlak kimi yanaşmağa səbəb olurdu. Hətta kalım böyük məbləğdə ödənilməyəndə yeni evdə qadının vəziyyəti ağırlaşırdı. "Qırğızıstanda indiyə qədər qadına bahalı əmək qüvvəsi kimi baxırlar. Evlənən kişi tərəfindən gəlinin qohumlarına böyük kalımın verilməsi kişinin ailəsinin kasıblaşmasına səbəb olur, nəticədə isə o, arvadı ilə kobud rəftar edir, onu həddindən artıq işlə yükləyir".[1] Qadınlara qarşı ərləri tərəfindən məcburi əməyin tətbiqi Azərbaycan ailələrində də mövcud idi. Bu cür münasibətlərə indi də rast gəlmək olar. Məcburi əməyin arxasında psixi təzyiq, zorakılığın ilkin elementləri dayanır. Qadınlar məcburi əmək münasibətlərini zorakılıq kimi qəbul etmirlər. Ona görə də uzun müddət ailələrdə psixi gərginlik olsa da, münaqişəyə çevrilmir.

XX əsrin başlanğıcına qədər türk mənşəli xalqlarda çoxarvadlılıq mövcud idi. Bunun özü varlılıq əlaməti kimi qəbul olunurdu və köçəri tayfalarda hətta torpaq və su əldə etməklə varlanmağa səbəb olurdu. Köçəri türk xalqlarında qadınların kişilərlə bərabər hüquqlara malik olmadığını əks etdirən geniş yayılmış başqa bir adət - məcburi nikah idi. Məcburi nikah qızların erkən yaşlarında ərə verilməsi və dul qadının ölən ərinin qardaşına keçməsi ilə bağlı idi. Bu əlaqələrin kökündə əmlak münasibətləri dayanırdı. Ona görə ki, bir ailənin başçısının ölməsi nəslin əmlakının bölünməsinə səbəb ola bilərdi.

Köçəri olmayan müsəlman xalqlarda da dul qadının vəziyyəti çox çətin idi. Məsələn, türkmən ailələrində dul qadın ərinin ölümündən müəyyən zaman keçdikdən sonra atasının evinə qayıda bilərdi, lakin onun uşaqları vəfat etmiş ərinin qohumlarında (nəslində) qalırdı. Digər türk xalqların dul qadının vəfat etmiş ərinin ailəsindən gedişinə axırıncının qohumlarının razılığı ilə icazə verilirdi. Lakin öz nəslinə qayıdan dul qadın azad olmurdu. Valideynləri və ya qardaşları onu hansısa bir yeni kalıma görə təkrarən ərə verə bilərdilər. Azərbaycan ailələrində

---

[1] Мийманбаева Ф.А. На изломе века / Женщины Киргизии: традиции и новая реальность. – Бишкек., 1995. - С.57.

isə dul qadının əmlakı olmadığı halda uşaqları ilə birgə tamamilə valideynlərindən asılı vəziyyətə düşürdü. Uşaqsız dul qadınların vəziyyəti isə daha da çətin idi, ona görə ki, onlar hətta mənəvi zorakılığa məruz qaldıqda. Qadının çoxuşaqlılığı və ya uşaqsızlığı onun cəmiyyətdə statusunu müəyyən edirdi.

Oturaq xalqların köçəri tayfalardan fərqli adətləri var idi. Məsələn, tacik və özbək xalqlarında qadının islamda hicab adı altında daha çox məhdudiyyətlərə məruz qalırdı. Hicab kimi tanınan üz və bədən örtüyü, pərdə (geyim) islamda hər hansı bir məhdudiyyət deməkdir.[1] Beləliklə, hicab qadının bədən və üz örtüyü olmaqla bərabər onun məişət həyatında, davranışında, ümumilikdə ictimai həyatında müəyyən ənənəvi məhdudiyyətlər deməkdir.

Qədim islam ölkələrində qızlar yetkinlik yaşlarında üz və bədən örtüyünü daşıyırdılar. Üz örtüyü olmadan qız, qadın küçəyə çıxa bilməzdi. Evdə isə onlar nadir hallarda yaşlı qohumların yanında üzünü aça bilərdilər. Məhdudiyyət məcburi xarakter daşıyırdı. Dini etiqad azadlığı ifrat məcburetmə xarakteri almışdı və total xarakter daşıyırdı. Bu vəziyyət Azərbaycan ərazisində XX əsrə qədər davam etdi. Şərqdə ilk demokratik dövlət olan Azərbaycanda sivil dəyərlər qadınların ailə münasibətlərində azad olmalarına təsir göstərməyə başladı.

Qafqaz və Mərkəzi Asiya xalqlarının ailə münasibətlərində xəyanət böyük cinayət hesab olunurdu. Xəyanət birtərəfli başa düşülürdü - qadının kişiyə xəyanəti. Məsələn, Asiya xalqlarında xəyanətə görə qadını torbaya salıb uca minarədən aşağı atırdılar. Köçəri olmayan xalqlarda, o cümlədən Azərbaycan ərazisində xəyanət etmiş qadınları ictimai yerdə daşa basa bilərdilər. O zaman qadınların xəyanətə görə öldürülməsi ədalətli cəza hesab olunurdu.

Ümumilikdə, islam ailələrində qadına övladları böyütdüklərinə və məişət münasibətlərində dözümlü olduqlarına görə hörmət bəslənirdi. Ancaq orta əsrlərdə uzun müddət, hətta

[1] Олим С. Хиджаб // Женщины центральной Азии: Сборник статей. Ташкент., 1998.- №3. – С.37-40.

XX əsrə qədər Mərkəzi Asiyada qadın kölələrin satışı mövcud idi. Qadınları təkcə hərəmxana üçün yox, iş görmək üçün də satırdılar.

XIX əsrin axırları, XX əsrin başlanğıcından cəmiyyətdə və xüsusilə sivil inkişaf yoluna keçən dövlətlərdə qadınların sosial vəziyyətində mühüm dəyişikliklər baş verdi. Avropada qadınların siyasi hüquqları uğrunda mübarizə başlandı. Qadınlar müəyyən sosial hüquqlar (təhsil, əmək hüququ və s.) əldə etdilər. Məhz təhsil alaraq, iqtisadi cəhətdən azad olaraq qadınlar ailədə və cəmiyyətdə azad olmağa başladılar. Azərbaycan Şərqdə qadınlara siyasi hüquqlar verən ilk dövlət oldu. 1918-ci ildə yaranan Azərbaycan Xalq Cümhuriyyəti kişilərlə bərabər qadınlara da seçki hüquqları verdi.

XX əsrin birinci yarısında Qərbdə qadın hərəkatlarının təsiri altında qadınlara kişilərlə bərabər siyasi hüquqların verilməsi prosesi başlanmışdı. Qadınlara seçki hüququ verən ilk ölkə Yeni Zelandiya oldu. İkinci dünya müharibəsinə qədər Avropanın əksər ölkələri qadınlara siyasi hüquqlar vermişdi. İkinci dünya müharibəsindən sonra kişilərlə qadınların bərabərlik hüququ insan hüquqları üzrə beynəlxalq standartlarda öz əksini tapdı.

Azərbaycanda ilk demokratik dövlətin süqutundan sonra bərabərlik hüququ uzun müddət sovet hüquq sistemi ilə təmin olunurdu. Bu öz növbəsində qadın hərəkatına təkan verdi. Azərbaycan qadınları keçmiş islam ölkələri arasında baş örtüyünü ilk atanlar cərgəsində oldu. Sovet sistemi bərabərlik hüququnu, xüsusilə keçmiş islam ölkələrində məcburetmə vasitəsilə həyata keçirirdi. Məsələn, cinayət qanunvericiliyində göstərilirdi ki, qadının faktiki azad olmasına müqavimət göstərilməsi cəzalandırılır. Əksər hallarda, sovet cinayət hüququ keçmiş islam ölkələrində adət-ənənəyə çevrilmiş ayrı-seçkilik münasibətlərinə məhdudiyyətlər yaradırdı. Cinayət hüququnun bu cür tələbləri uzun müddət islam adətləri ilə yaşayan kişilər tərəfindən kəskin etirazlarla qəbul edilirdi. Qafqaz və Asiya ölkələrində bu proseslər qadınlara qarşı açıq zorakılıqla müşayiət olunmuşdu. Buna baxmayaraq, qadınlar ictimai istehsala fəal cəlb olunur,

yeni sosial güzəştlər əldə edir, müxtəlif peşələrə yiyələnir və iqtisadi cəhətdən azad olmağa çalışırdılar.

Qadınların vətəndaş və siyasi hüquqlar əldə etməsi və savadlanması, peşəkar əmək fəaliyyəti ilə məşğul olması, iqtisadi müstəqilliyi və sosial status əldə etməsi onların özəl münasibətlərinə də təsir göstərdi. Qadının nikah və ailə münasibətlərində yeri artmağa başladı. Bu öz növbəsində ərlə arvad münasibətlərinə təsir edirdi. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə boşanma halları artır və bu, narahatlığa səbəb olurdu. Təbii ki, patriarxal nikahın böhranı müşahidə olunurdu. İqtisadi imkanlar ailədə qadınlara kişi ilə eyni səviyyədə yer ayırırdı. İqtisadi bərabərlik psixi, etik və digər sosial münasibətlərə də təsir göstərirdi.

Müasir dövrdə ailə münasibətlərinə hüquqi müdaxilə daha çox müşahidə olunur. Bunun obyektiv sosial səbəbləri var. Məsələn, ABŞ-da hər il 2 milyona yaxın qadın məişət zorakılığına məruz qalır. Çili, Meksika, Papua-Yeni Qvineya və Koreyada hər il evli qadınların üçdə iki hissəsi, Almaniyada isə 4 milyona yaxın qadın məişət zorakılığından əziyyət çəkir.[1]

Məişət zorakılığı ailə üzvlərinin ölümünə səbəb olur. Daha bərpa olunmayan bu cür münasibətlər digər ailə üzvlərində (xüsusilə uşaqlarda) psixiki travma yaradır. Şəxsi həyat hüququnun toxunulmazlığı problemini tədqiq edən alimlər qeyd edirlər ki, evdə zorakılıq Amerikanın iri şəhərlərində qadınların ölümünün əsas səbəbi olur, orada hər il təxminən 1400 qadın ərlərinin və partnyorlarının əli ilə öldürülür.[2]

Müsəlman ölkələrində boşanma problemi cəmiyyəti narahat etməsə də, ailə daxilində kişinin üstün hüquqları mövcuddur. Kişilərin məhdudiyyətsiz boşanmaq hüququ, müsəlman olmayan qadınla nikahın tanınması kimi ayrı-seçkilik var. Məsələn, İranda islam dininin tələblərinə əsaslanan Mülki və Cinayət Məcəllələrində qadınların nəqliyyatda, tibbi müayinədə cinsi

[1] Доклад о развитии человека за 1995 год / ПРООН. – Нью-Йорк., 1995. – С.45.
[2] Романовский Г.Б. Право на неприкосновенность частной жизни – М., 2001. – С.76.

seqreqasiyası nəzərdə tutulur, kişilərə 9 yaşına çatan qız uşaqları ilə nikaha daxil olmaq hüququ verilir, üz örtüyünü açdıqlarına görə qadınlar cəzalandırılır və s.[1]

Keçmişdə islam ölkəsi olan, lakin demokratik inkişafa qədəm qoyan ölkələrdə ayrı-seçkilik hələ də müşahidə olunur. Məsələn, Türkiyə qanunvericiliyində müsəlman hüququndan qalmış ayrı-seçkilik normalarının əksəriyyətinin qadağan olunmasına baxmayaraq, əyalətlərdə kişilər nikaha daxil olanda başlıq ödəyir, körpə vaxtlarından uşaqları nişanlayır, qızlar ailələri tərəfindən ərə getməyə məcbur edilir, qadınların seksual həyatına nəzarət aləti kimi poliginiya mövcuddur.[2] Türkmənistanda isə Prezidentin "Dövlət kalımı haqqında" 2001-ci il tarixli Fərmanına əsasən türkmən qadını ilə evlənən hər xarici vətəndaş dövlətə 50 min dollar həcmində kalım ödəməlidir.[3]

Ailə münasibətlərində namusun qorunması daha çox müsəlman dininin üstünlük təşkil etdiyi ölkələrdə zorakılığın səbəbi kimi üzə çıxır. Türkiyə, Pakistan və s. ölkələrdə namus naminə qətllər mövcuddur. Əsas qurbanlar qadınlardır. Kişilər arvadlarının, qızlarının, bacılarının, bəzən də analarının şəriətdə qadınlar üçün nəzərdə tutulmuş əxlaq normalarını pozduqlarını güman etdikləri halda namuslarını qorumaq üçün cinayət törədirlər. Əksər hallarda qısqanclıq zəminində yaranan cinayətlər ehtimal xarakterli şübhələrə əsaslanır. Məsələn, insan hüquqlarının müdafiəsi üzrə təşkilatlar göstərirlər ki, hər gün Pakistanda qadınlara qarşı "namus" naminə üç qətl törədilir, Türkiyədə ildə 200 qətl hadisəsi baş verir.[4] Sudanda nikahdankənar cinsi əlaqələrə görə qadınlar daşa basılır və ya 100 çubuq zərbəsi alırlar. Qadınların xəyanəti cəmiyyətdə o qədər

---

[1] Котоганова В.А. Женщины в Иране // Петербургский центр гендерных проблем., 2002. - № 7-8. – С.9 -10.

[2] Илкарачан П. Содержание сексуальной жизни женщин в Восточной Турции // Женщины Центральной Азии: Сборник статей – Ташкент., 2002. - №10 – С. 22.

[3] Информационный вестник ЖРЦ. – Ташкент., 2001. - № 46-47. – С. 6 // www/win.cango.net.kg/news/

[4] Насилие в отношении женщин в Пакистане // ЮНИФЕМ. – 2001-2002.,www.nasiliye.net

kəskin qəbul edilir ki, əksər hallarda sübut edilməsinə ehtiyac duyulmur, cəza həmin gün icra olunur.[1]

Qadınlara qarşı kütləvi zorakılıq halları daha çox hərbi münaqişə zamanı yaranır. Qadın və uşaqların hərbi münaqişə zonalarında girov kimi saxlanılması cinayət xarakterli zorakılıq hesab olunur. Azərbaycan Respublikasının Dövlət Təhlükəsizlik Komitəsinin məlumatlarına görə, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində hətta 2000-ci ildə 347 Azərbaycan qadını və uşaqları erməni girovunda saxlanılırdı.[2] Qeyd etmək lazımdır ki, münaqişələrin nəticəsi qadınlara qarşı cinayətkar zorakılıq hallarının yaranmasına kəskin dərəcədə təsir göstərir.

Beləliklə, ümumiləşdirərək demək olar ki, qadınlara qarşı zorakılıq insan hüquqlarının və əsas azadlıqların kobud pozulması deməkdir. Geniş mənada gender münasibətləri öz mahiyyətinə görə ailə daxilində və ya ictimai həyatın digər sahələrində kişi ilə qadın arasında yaranan "hakimiyyət" üstündə mübarizə xarakterli münasibətlərdir. Lakin gender münasibətləri nə qədər geniş sahəni əhatə etsə də, onlar ilk növbədə məişət əlaqələrinin əsasında dayanan münasibətlərdir. Bu münasibətlərin subyektləri tərəfindən hər hansı üstünlüyün zorla tətbiq olunması məişət zorakılığı kimi qiymətləndirilir.

Gender münasibətlərinin bioloji cəhətdən müsbət əhəmiyyəti var. Bu münasibətlər ailə daxilində formalaşır. Ailənin cəmiyyətdə böyük və vacib funksiyası var. Ailə hər bir üzvünü ictimai həyata cəmiyyətdə yaranmış münasibətlərə hazırlayır. Ona görə ümumilikdə vətəndaş cəmiyyəti üzvünün formalaşması, tərbiyə olunması ailə üzvləri arasında yaranmış tabeçilik və üstünlük, əməyin bölünməsi və bir birinə hörmət edilməsi ailə münasibətlərindən çox asılıdır. Açıq vətəndaş cəmiyyəti öz növbəsində sosial, mədəni, dini və iqtisadi təsisatlar vasitəsi ilə kişi və qadın arasında bərabərliyi, dövlət isə cəmiyyətdə yaranmış mütərəqqi gender münasibətlərinin qorunması üçün ailəni və

[1] Сигнал тревоги // ЮНИФЕМ. – 2001-2002.,www.nasiliye.net
[2] Женщины и насилие / под редакцией Р.Ибрагимбековой. – Баку., 2000. – С. 45.

cəmiyyəti bu münasibətlərin hüquqi əsasları ilə təmin edir. Cəmiyyətdə bərabərlik prinsipi qanunvericiliklə təmin olunmalıdır, əks təqdirdə gender bərabərliyinə zəmanət yoxdur.

Beləliklə, gender ünsürü zorakılıq anlayışında sosial zorakılığı xüsusi funksional kateqoriya kimi fərqləndirdi. "Qadınlara qarşı zorakılıq" termini - cinsi əlamət əsasında "qadının fiziki, cinsi və ya psixi sağlamlığına zərər gətirən, və yaxud gətirə bilən, ona əzab verən hər hansı bir zorakılıq aktı, habelə qadının ictimai və ya şəxsi həyatında bu cür zorakılıq aktı ilə hədələmə, məcburetmə və ya azadlıqdan məhrumetmə"[1] kimi başa düşülür. BMT-nin Pekində keçirmiş IV Ümumdünya konfransında bildirilmişdir ki, qadınlara qarşı zorakılıq aşağıdakı halları əhatə edir:

- döyülmələr daxil olmaqla, ailə münasibətlərində (məişət zəminində) yaranan fiziki, cinsi və ya psixi zorakılıqlar. Ailədə qızların istəmədikləri nikaha məcbur edilməsi, gəlinin cehizi ilə əlaqədar olan zorakılıq, arvadın əri tərəfindən zorlanması, qadının cinsi orqanlarında şikəstedici əməliyyatların aparılması və digər ənənəvi tədbirlərin keçirilməsi, qadınlara ziyan gətirilməsi, nikahdankənar zorakılıq və istismar ilə əlaqədar olan zorakılıq;
- zorlama halları da daxil olmaqla, cəmiyyətdə ümumən mövcud olan fiziki, cinsi və psixiki zorakılıq. Cinsi məcburetmə, işdə, təhsil müəssisələrində hədələmə ilə cinsi əlaqələrə girməyə sövq etmə, qadın ticarəti və fahişəliyə məcburetmə;
- harada baş verdiyindən asılı olmayaraq fiziki, cinsi və psixiki zorakılığın dövlətin razılığı və icazəsi ilə baş verməsi.

IV Ümumdünya konfransının Bəyanatında göstərilmişdir ki, zorakılıq halları yuxarıda qeyd edilənlərlə məhdudlaşmır. Ancaq dəqiq demək olar ki, fiziki, psixi və ya cinsi zorakılığın hər bir

[1] Доклад IV Всемирной конференции по положению женщин / Бюллетень ООН. – Пекин., 1995. – С.59.

forması qadınların insan azadlıqlarının məhdudlaşdırır. Gender sahəsində tədqiqatlar zorakılığın bu üç formasının fərqləndirilməsi ilə bərabər onların yaranmasına məişət münasibətlərinin səbəb olduğunu göstərir.

Beləliklə, məişət zorakılığı dedikdə ilk növbədə cinayət başa düşülür. Qadınlara qarşı törədilən zorakılıq kriminoloji kateqoriyadır. Məişət zorakılığı əsasən cinsi zəmində həyata keçirilən, ictimaiyyət üçün, ailə üzvünün həyat və sağlamlığı üçün təhlükəli olan, hüquqa zidd, fiziki, psixi və ya seksual təsir altında hərəkət və ya hərəkətsizlik, azadlığın məhdudlaşdırılması və ya azadlıqdan məhrumetmədir. Bu tərif məişət münasibətlərində iştirak edən geniş subyektlərin dairəsini əhatə edir.

Məişət zorakılığın mahiyyətini daha aydın görmək üçün onu fiziki, psixi, seksual zorakılığın müəyyən formalarında şərhini vermək lazımdır.

Fiziki zorakılıq fiziki gücün təsiri ilə məhdudlaşmır və zorakılıq hərəkətinin bütün formalarını əhatə edir. Texniki inkişaf fiziki zorakılıq üçün yeni vasitələrin yaradılmasına səbəb olub. Texniki vasitələrin işə salınması üçün insan əzələlərinin enerjisi tələb olunmur. Məsələn, tibb sahəsində cərrahiyyə əməliyyatlarında lazer şüaları bıçaq kimi istifadə olunur. Onlar insanın daxili orqanlarına onun dərisini zədələmədən daxil olurlar.

Deməli, fiziki zorakılığı aşkar etdikdə təsirin enerji xüsusiyyəti təhlil olunmalıdır. Məişət zorakılığının bir forması olan fiziki zorakılığın obyektiv tərəfinin qiymətləndirilməsində törədilən hərəkət və ya hərəkətsizliklə yaranan zərər arasında səbəbli əlaqənin aşkar edilməsi xüsusilə vacibdir.

Beləliklə, fiziki zorakılıq qanuna zidd olaraq bir insanın digərinin iradəsinə qarşı ona fiziki təsir göstərmək yolu ilə onun orqanlarına, toxumalarına və ya fizioloji funksiyalarına fiziki ziyan vurulmasıdır.

Psixi zorakılığın cinayət tərkibi haqqında məsələ hüquq elmində ən az öyrənilmiş problemdir. Müxtəlif fikirlər olsa da, psixi zorakılıq, ümumiyyətlə, təhdid kimi qəbul edilir. Psixi

zorakılıq şəxsə qarşı qanuna zidd, onun psixikasına yönələn və müqavimətini qırmaq məqsədi ilə iradəsinin digər şəxsin istəyinə tabe edilməsi üçün fiziki qüvvədən istifadə olunması hədəsi ilə təhdiddir.

Təhdid zərər çəkmiş tərəfindən onu gözləyən real təhlükə kimi başa düşülür. Digər tərəfdən, insan öz yaşına, onda psixi xəstəliklərin olmasına, müəyyən psixi vəziyyətinə, digər hallara görə təhdid faktını tam dərk etməyə də bilər. Ona görə hesab edilir ki, təhdidin mahiyyəti zərər çəkmiş şəxsin onu necə qəbul etməsindən asılı olmayaraq qiymətləndirilməlidir. Təhdid psixi zorakılıq formasıdır və onunla insanı tabe etmək, alçaltmaq, cinayətin məqsədinə çatmaq üçün istifadə olunur.

Psixi zorakılıq insanı müqavimət göstərmək istəyindən çəkindirmək üçün tətbiq olunur. Deməli, psixi zorakılıq – psixikaya iradənin azaldılması məqsədi ilə təsir göstərməsi və başqa şəxsin psixikasını tabe etdirilməsi, cinayətin nəticəsinin əldə edilməsi üçün zorakı təsirdir.

Cinsi (seksual) zorakılığın hər bir konkret cəmiyyətdə vəziyyəti həmin cəmiyyətdə cinsi münasibətlərin bioloji, sosial, iqtisadi və digər aspektlərindən asılıdır. Cinsi münasibətlərin bioloji tərəfi dəyişilməzdir və insanın təbii tələbatlarını ifadə edir. Ancaq cinslər arasında sosial əlaqələr, davranış və münasibətlər mənəvi, əxlaqi və hüquqi normalarla idarə olunur. Ona görə cinsi münasibətlər də müxtəlifdir. Hər halda seksual münasibətlərə xalqlarda adət və ənənələrə görə müxtəlif yanaşmalar var.

MDB ölkələrində cinsi zorakılığın məişət münasibətləri daxilində qadağan edilməsi təcrübəsi mövcuddur. Məsələn, "Ailə zorakılığından sosial-hüquqi müdafiə haqqında" Qırğızıstan Respublikasının Qanununda "cinsi zorakılıq ailənin bir üzvü tərəfindən digərinin cinsi toxunulmazlığına və cinsi azadlığına təsir göstərilməsi və yetkinlik yaşına çatmayan ailə üzvünə qarşı seksual xarakterli hərəkətlərin törədilməsi"[1] kimi başa düşülür. "Ailədə zorakılığın qarşısının alınması haqqında" Ukrayna

[1] «О социально-правовой защите от насилия в семье» Закон Киргизской Республики / Эркин-Тоо. - №24. – 2003.- 04 апреля.

Respublikasının Qanununa görə cinsi zorakılıq ailənin bir üzvünün o biri üzvünün cinsi toxunulmazlığına təsir etməsi və yetkinlik yaşına çatmayan ailə üzvünə qarşı seksual xarakterli hərəkətlərin edilməsi deməkdir.[1]

Beləliklə, yuxarıda qeyd olunanlara əsasən məişət münasibətlərində cinsi zorakılıq məfhumunun altında seksual ehtiyacın təmin edilməsi məqsədi ilə cinsi toxunulmazlığa və şəxsiyyətin cinsi azadlığına qəsdən edilən, qanuna zidd olan təsir başa düşülür.

Cinayət qanunvericiliyi nöqteyi-nəzərindən məişət zorakılığı özündə fiziki, psixi və seksual zərəri ehtiva edən davranışdır. Bu baxımdan məişət zorakılığının mahiyyətini, onun element və xüsusiyyətlərini aydın görərək, müvafiq münasibətlərin qanunvericiliklə nizamlanmasını təmin etmək olar.

Məişət zorakılığı anlayışı təhlil edilərkən onun bütün mövcud növlərini cinayət xarakterli adlandırmaq düzgün olmazdı. Ailə üzvlərinə qarşı təhlükəli zorakılığın məzmunu onun ictimai təhlükəsinin dərəcəsi və xüsusiyyətindən asılıdır. Məişət zorakılığının ictimai təhlükəlilik dərəcəsi onun hüquqa zidd olması, qabaqcadan hazırlanması, cinsi zəmində həyata keçirilməsi, şəxsiyyətin istəyinə zidd olaraq azadlıqdan məhrum edilməsi, insanın səhhətinə ağır dərəcəli müxtəlif xəsarətlərin yetirilməsi ilə müəyyən olunur. Əməlin ictimai təhlükəlilik dərəcəsi müəyyən edildikdən sonra qanunvericilikdə onun cinayət, inzibati və ya digər sosioloji xarakterli olması göstərilə bilər.

Beləliklə, məişət zorakılığı anlayışının təhlili Azərbaycan qanunvericiliyi üçün yeni kateqoriya olan anlayışın hüquqi cəhətlərini aşkar edərək hüquq sistemində ona qarşı effektiv vasitələrin yaradılmasına imkan verir.

[1] «О предупреждении насилия в семье» Закон Украины / Ведомости Верховной Рады. – Киев., 2002. - № 10. – С.70

## 1.2. Məişət zorakılığına qarşı beynəlxalq normativ aktların xüsusiyyəti

Məişət zorakılığına qarşı mübarizə qadınların hüquqlarının qorunması ilə aktuallaşıb. Məişət münasibətlərində daha zəif vəziyyətdə olan qadınlar, yaşlılar və uşaqlardır. Onların beynəlxalq hüquqda qorunması feminizm hərəkatı ilə bağlı olubdur.

İkinci dünya müharibəsindən sonra qadın hüquqlarının beynəlxalq müdafiəsi insan hüquqları üzrə beynəlxalq standartların yaradılması aktuallaşır. İnsan hüquqları üzrə beynəlxalq standartlar şəxsiyyətlə dövlət arasında münasibətləri müəyyən edir. Fərdə ayrılan hüquqlar onun cəmiyyətdə və dövlətdə azadlığının sərhədlərini müəyyənləşdirir. Universal beynəlxalq aktlar insan hüquqlarının dövlətdə aliliyini bəyan edir. İnsan hüquqlarının müdafiəsinin cəmiyyət tərəfindən konseptual dərk edilməsi, zorakılıqdan müdafiə olunması əsasən BMT-nin fəaliyyəti ilə bağlıdır. İnsan və vətəndaş hüquqlarının əsas prinsipləri və universallığı BMT-nin Baş Assambleyası tərəfindən 1948-ci il 10 dekabr tarixində İnsan Hüquqları üzrə Ümumdünya Bəyannaməsinin qəbul edilməsi ilə təmin olunmuşdur. Bu sənəddə bərabərlik prinsipinin dövlətlər üçün vacibliyi bəyan edilmişdir. Sonralar, 1966-cı ildə Vətəndaş və siyasi hüquqları haqqında və İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktlar qəbul edilmişdir. Paktların xüsusi əhəmiyyəti onların yaratdıqları beynəlxalq mühafizə mexanizmindədir. Qeyd olunan standartları qəbul edən ölkələr öz hüquq sistemlərində insan hüquqlarının üstünlüyünü təmin etmək öhdəliyini üzərlərinə götürürlər.

İkinci dünya müharibəsindən sonra insan hüquqlarının üstünlüyü qəbul edilsə də, xüsusi şəraitlərdə qadın və uşaqların hüquqlarını müdafiə üzrə ilk beynəlxalq hüquq sənədləri hələ Millətlər Liqasının çərçivəsində qəbul olunmuşdur. 1926-cı il 25 sentyabr tarixli "Köləlik haqqında" və "Qadın və uşaqların ticarəti əleyhinə mübarizə haqqında", habelə 1930-cu il 28 iyun

tarixli "Məcburi əmək haqqında" Konvensiyaları belə sənədlərdəndir.

Beynəlxalq hüquq standartları kvazimәhkәmә qərarlarında da öz ifadəsini tapır. Məsələn, İnsan Hüquqları üzrə Komitənin və ya İnsan hüquqları üzrə Avropa Məhkəməsinin təcrübəsində şəxsi toxunulmazlığın təminatı barədə dövlətin pozitiv öhdəliklərinin yerinə yetirilməsi məsələlərinə baxılması buna bariz sübutudur. BMT səviyyəsində dövlətlər üçün tövsiyə xarakterli çox sayda məsləhətlər hazırlanıbdır. Bu sənədlərin effektiv olması onların milli qanunvericiliyə kompleksli implementasiyasından asılıdır.

İnsan hüquqları üzrə beynəlxalq standartlara görə, dövlət insanların irqindən, cinsindən, dilindən, dinindən, siyasi və ya digər baxışlarından, milli və ya sosial mənsubiyyətindən, mülkiyyətindən və ya ictimai vəziyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verməlidir. Hər bir insan yaşamaq, işgəncələrə məruz qalmamaq, şəxsi toxunulmazlıq hüququna malikdir. Hər bir ölkədə kölәlik qadağan olunmalıdır. Analıq və uşaqlıq xüsusi ictimai statusa malik olmalı, bütün nikahda və ya nikahdan kənar doğulan uşaqlar eyni sosial müdafiədən istifadə etməlidirlər. Qeyd olunan hüquqlar ayrı-seçkiliyi inkar edir və insanlara fərq qoymadan onların dövlət tərəfindən hüquq və azadlıqlarının təminatını tələb edir.

XX əsrin 50-ci illərində qadın hərəkatları nəticəsində çox sayda xüsusi beynəlxalq aktlar qəbul edilmişdir. İnsanların cinsi mənsubiyyətinə görə əmək münasibətlərində ayrı-seçkilik əleyhinə 1951-ci il 6 iyun tarixində kişi və qadınların eyni əmək fəaliyyətinə görə bərabər əməkhaqqı alması haqqında Beynəlxalq Əmək Təşkilatının 100 №-li Konvensiyası qəbul olunmuşdur.[1] 1951-ci il 25 iyul tarixində "İnsan ticarəti və üçüncü şəxslər tərəfindən cinsi istismar əleyhinə mübarizə haqqında" BMT Konvensiyası, 1952-ci il 4 iyun tarixində Beynəlxalq Əmək Təşkilatının "Analığın müdafiəsi haqqında" 103 №-li Konvensiyası qəbul edilmişdir. Bu Konvensiya qadınlara

[1] İnsan Hüquqları üzrə Beynəlxalq sənədlərin toplusu. BMT. – 2000. – S.103.

doğuşdan əvvəl və doğuşdan sonra məzuniyyət, uşağın əmizdirilməsi üçün əmək məzuniyyəti, bu dövrdə müavinətlər və tibbi yardım almaq hüququnun verilməsini təmin edir. 1952-ci ilin 7 iyul tarixində "Qadınların siyasi hüquqları haqqında" BMT Konvensiya qəbul edildi. Bu Konvensiya kompleks şəklində cinsi bərabərliyi bəyan edir. Göstərir ki, qadınlar kişilərlə bərabər siyasi hüquqlara malikdirlər, onlara dövlətlərdə seçmək və seçilmək hüququ verilməlidir, bütün idarə və təşkilatlarda, ictimai-dövlət işində vəzifə tuta bilərlər və qanunvericiliklə müəyyən olunmuş ictimai funksiyaları həyata keçirə bilərlər. Sonralar, "Nikahda olan qadının vətəndaşlığı haqqında" 1957-ci il 29 yanvar tarixli BMT Konvensiyasının qüvvəyə minməsi ilə qadınlara nikah münasibətlərinə daxil olaraq öz vətəndaşlığını saxlamaq imkanı yaradıldı.

Ər və arvadın azad seçilməsi, nikah yaşı və s. məsələlər məişət münasibətlərində zorakılıqdan qorunma üçün xüsusilə vacibdir. Əksər Yaxın Şərq ölkələrində, xüsusilə islam dini üstünlük təşkil edən xalqlarda erkən nikahlar, kiçik yaşlarından uşaqların nişanlanması və qızların razılığı olmadan onların ərə verilməsi adət və ənənəyə çevrilmişdir. Yaranmış bu cür münasibətlər əleyhinə 1962-ci ildə "Nikaha daxil olmağa razılıq, nikah yaşı və nikahın qeydiyyatı haqqında" BMT Konvensiyası qəbul edilmişdir. Konvensiya patriarxal adət-ənənələrinin ləğv olunması üçün vacib vasitə oldu. Qanun və nikah institutunda qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi, ər və arvadın sərbəst seçilməsi, qızların cinsi cəhətdən həddi-buluğa çatmadan nişanlanmasının və uşaq nikahlarının ləğv olunması, nikahın qeyd olunması aktlarının reyestrinin yaradılması Konvensiyanın əsas tələbləri kimi dövlətlərə istiqamətləndi.

Qadınların sosial-hüquqi vəziyyətinin yaxşılaşdırılmasında, xüsusilə məişət münasibətlərində ayrı-seçkiliyin qadağan olunmasında "Qadınlara qarşı ayrı-seçkiliyin ləğv olunması haqqında" 1967-ci il tarixli BMT Bəyannaməsinin böyük rolu olmuşdur. 1974-cü ildə isə "Fövqəladə vəziyyətlərdə və silahlı

münaqişələr zamanı qadın və uşaqların müdafiəsi haqqında" Bəyannamə təsdiq olunmuşdur.

Beləliklə, beynəlxalq hüquqda qəbul edildi ki, qadınlar ayrıca bir sosial qrupdur və əksəriyyəti müxtəlif növ zorakılığa məruz qaldıqlarına görə onlara xüsusi müdafiə tələb olunur. Qadın hüquqlarının müdafiə olunması sahəsində beynəlxalq-hüquqi sənədlərin hazırlanması üzrə iş XX əsrin sonuna qədər davam etmiş, sonralar işgəncələrə və qeyri-insani, insan ləyaqətini alçaldan rəftara, əmək sahəsində ayrı-seçkiliyə qarşı və s. məsələlər üzrə BMT səviyyəsində beynəlxalq aktlar qəbul edilmişdir. Lakin təcrübə göstərir ki, beynəlxalq normaların təminatı üçün ölkələrin daxili hüquq sistemlərində, hətta adət və ənənələr zidd olduğu halda da xüsusi mühafizə vasitələri yaradılmalıdır. Ona görə ki, insan hüquqları sahəsində beynəlxalq normalar bunsuz işləyə bilməz.

BMT-nin Baş Assambleyası tərəfindən 1975-ci ilin beynəlxalq qadın ili elan edilməsi qadın hüquqlarının genişlənməsi və təminatı sahəsində vacib mərhələ olmuşdur. Həmin il Ümumdünya fəaliyyət planı və "Qadınların bərabərliyi və onların sülh uğrunda fəaliyyətləri haqqında" Bəyannamə qəbul edilmişdir. 1976-1986 illər isə BMT tərəfindən qadın hüquqlarının qorunması onilliyi elan edilmişdir.

1980-ci ildə BMT tərəfindən keçirilən Qadınların II ümumdünya konfransında məişət zorakılığının aktuallığı haqqında danışılmışdır. Konfransın bəyanatında göstərilmişdir ki, ölkələrdə bərabərsizliyin ləğvi sahəsində proqram xarakterli işlər aparılmalı və qadınların sosial vəziyyəti ilə bağlı ciddi sosial-iqtisadi dəyişikliklərə nail olunmalıdır. Bu ideyalar 1979-cu il 18 dekabr tarixində qəbul edilmiş "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" BMT Konvensiyasına əsaslanmışdır. Konvensiya qadın hüquqlarının təmin olunması ilə əlaqədar proqram xarakterli müddəalar nəzərdə tutur. 1985-ci ildə isə qadınların vəziyyəti haqqında BMT-nin III Beynəlxalq konfransında qadın hüquqlarının müdafiəsi onilliyinin nailiyyətləri qeyd olunmuş və nəticədə,

“Qadınların vəziyyətinin yaxşılaşdırılması üzrə Nayrobi strategiyaları” adlı sənəd qəbul edilmişdir. Bu beynəlxalq sənəddə bərabərlik, inkişaf, sülh uğrunda nailiyyətlər və mövcud problemlər açıqlanmış, xüsusilə narahatlıq doğuran məsələlərdən biri kimi regional və ümumiyyətlə beynəlxalq əməkdaşlıq problemləri qeyd olunmuşdur.

1993-cü ildə Vyanada keçirilən İnsan hüquqları üzrə ümumdünya konfransının bütün iştirakçıları dövlətləri “ictimai və məişət həyatında qadınlara qarşı zorakılığı” ləğv etməyə çağırdı. Konfransın Bəyanatında bildirildi ki, qadınların hüquqları universal insan hüquqlarının ayrılmaz hissəsidir. Həmin 1993-cü ildə BMT-nin Baş Assambleyası “Qadınlara qarşı zorakılığın ləğv edilməsi haqqında” Bəyannamə qəbul etdi.[1]

Məişət zorakılığı problemi BMT-nin IV Ümumdünya konfransında müzakirələrin əsas mövzusu olmuş, nəticədə, 1995-ci ildə Pekində qadınların hüquqi vəziyyəti üzrə yekun sənədləri - Pekin fəaliyyət platforması və Pekin Bəyannaməsi qəbul edilmişdir. Bu sənədlərin implementasiyası üzrə dövlətlər ciddi iş aparır. Dövlətlərdə məişət zorakılığı hallarının yaranma səbəbləri təhlil olunur, statistik araşdırmalar aparılır, qanunvericilik islahatları həyata keçirilir. 2000-ci ildə BMT tərəfindən yeni beynəlxalq sənəd qəbul edilmişdir “Qadınlar 2000: gender bərabərliyi, XXI əsr üçün inkişaf və sülh”. Bu sənəd məişət zorakılığı probleminin qlobal xarakter daşıdığını vurğuladı.

XX əsrin axırlarında qadın və uşaqlara qarşı yönələn məişət zorakılığı problemi cəmiyyət üçün qlobal təhlükə kimi səsləndi. Zorakılıq halları insan hüquqlarının pozulmasına gətirib çıxardığına görə dövlət təhlükənin qarşısının alınması üçün hətta ailə münasibətlərinə müdaxilə etməlidir. Məişət zorakılığı əleyhinə bütövlükdə beynəlxalq standartlar mövcud olsa da, qadın və uşaqlara qarşı zorakılıqla mübarizə nöqteyi-nəzərindən “Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında” Konvensiya və “Qadınlara qarşı zorakılığın ləğv

[1] Шейла Дж. Международно-правовые нормы о насилии в семье // Насилие в семье: как бороться с ним государству. – М., 1999.- С.83.

olunması haqqında" Bəyannamə xüsusi və mühüm xarakter daşıyır.

Qeyd etmək lazımdır ki, "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" 1979-cu il 18 dekabr tarixli və "Uşaq hüquqları haqqında" 1989-cu il 20 noyabr tarixli BMT Konvensiyalarını qadın və uşaqların hüquqlarının qorunması sahəsində beynəlxalq hüquqi standartlara aid etmək olar. Demokratik inkişaf yolunda olan dövlətlər üçün morginal əhali təbəqələrinə aid olan sosial qrupların hüquqlarının qorunması vacib vəzifədir. Bu iki beynəlxalq akt dövlət tərəfindən ailədə bərabərlik prinsipinə söykənən münasibətlərin yaradılmasını tələb edir və həmin beynəlxalq müqavilələrə tərəfdar çıxmış ölkələri ailədə kişi ilə qadın arasında ayrı-seçkiliyin qadağan edilməsi sahəsində səylərini göstərməyə çağırır. Ailədə yaradılan mülayim münasibət ilk növbədə uşaqların hüquqlarının təminatına yaxşı imkan verir. Uşaq hüquqları üzrə beynəlxalq təşkilat qeyd edir ki, bu iki konvensiya qızlar və qadınlar üçün əsas insan hüquqlarının təmin edilməsinə kömək edir.[1]

"Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" BMT Konvensiyası (bundan sonra - Konvensiya) qadınların hüquqi statusunun müəyyən edilməsi sahəsində beynəlxalq standartların bəyan edilməsi ilə məhdudlaşmır. Konvensiya iştirakçı-dövlətlər üçün xüsusi implementasiya prosedurlarını nəzərdə tutur. İlk növbədə tələb qoyur ki, konstitusiya qanunvericiliyində qadınların kişilərlə bərabər hüquqları göstərilsin, sonra milli qanunvericilikdə ayrı-seçkiliyə görə hüquqi məsuliyyət nəzərdə tutulsun.

Konstitusiya dövlətlərin əsas qanunu olduğuna görə Konvensiya onun əhəmiyyətini vurğulayır. Məsələn, Konvensiyanın 2-ci maddəsində deyilir ki, iştirakçı-dövlətlər kişi və qadınların bərabərlik prinsipini öz milli konstitusiyalarında və ya digər əsas qanunvericiliyində nəzərdə tutmalı və əgər belə bir konstitusion norma hələ yoxdursa, bu prinsipi qanunun və ya digər vasitələrin

---

[1] Женщины и гендерные проблемы в странах с переходной экономикой: взгляд ЮНИСЕФ., 1995. – С. 14.

köməyi ilə həyata keçirməlidirlər. Bununla belə, həmin maddədə iştirakçı-dövlətlərdən tələb olunur ki, milli qanunvericilik sisteminə qadınlara qarşı hər cür ayrı-seçkiliyi qadağan edən normaların və müvafiq sanksiyaların daxil edilməsini; qadınların kişilərlə bərabər hüquqlarının müdafiəsi üçün eyni hüquqi vasitələrin nəzərdə tutulmasını; qadınlara qarşı ayrı-seçkiliyi nəzərdə tutan qanunların, əsasnamələrin, adətlərin və ya təcrübənin dəyişdirilməsi istiqamətində tədbirlərin görülməsini təmin etsinlər.[1]

Məişət zorakılığına qarşı ilk beynəlxalq akt 1993-cü il 20 dekabr tarixli "Qadınlara qarşı zorakılığın ləğv olunması haqqında" Bəyannamə (bundan sonra - Bəyannamə) oldu. Bu beynəlxalq sənəd zorakılığın hər bir formasının əleyhinə çıxsa da, ilk növbədə ailədaxili məişət zorakılığını qadağan edir. Bəyannaməyə görə, "qadınlara qarşı zorakılıq" cinsi əlamətlər əsasında törədilən, fiziki və ya psixi ziyan vura bilən, həm ictimai, həm də şəxsi həyatda baş verən hər bir zorakılıq aktı deməkdir. Bəyannamənin 1-ci maddəsi əlavə edir ki, zorakılıq hərəkətlərinin həyata keçirilməsi ilə hədələmə, məcburetmə və ya azadlıqdan məhrumetmə kimi hərəkətlər də zorakılıq hesab edilir. Bəyannamə məişət zorakılığının formalarını fərqləndirərək hətta onların izahını verir. Məsələn, Bəyannamədə fiziki zorakılıq zorakılığın ən aşkar forması adlandırılaraq, adi zorakılıq forması altında qadına fiziki zərərin gətirilməsi kimi göstərilir. Fiziki zorakılıq itələmə, döymə, işgəncə və öldürmə kimi də başa düşülür. Cinsi zorakılıq qadının istəyinə zidd olaraq onunla cinsi əlaqəyə girmək deməkdir. Cinsi zorakılıq müxtəlif formalarda ola bilir: məcburedici cinsi toxunmalar, zorlama və hətta insest. Psixi zorakılıq üçün müxtəlif üsullardan istifadə olunur. Psixi zorlama nəticəsində zərər çəkmiş şəxsin iradəsi sınır. Zorakılığın bu formasına ələsalma, kobud davranış, hədələmə və ya təcridetmə kimi hərəkətlər aiddir. Ən ağır psixi zorakılıq kişi tərəfindən

---

[1] Конвенция о ликвидации всех форм дискриминации в отношении женщин // www.un.org/russian/documen/convents/cedaw.htm.

qadına onun övladları qarşısında əzab verərək iradəsini sındırmaqdır, onu uşaqları qarşısında günah hissini duymağa məcbur etməkdir. Bu zorakılıq formasına qadının iqtisadi asılılığını, işləməyə icazə verilməməsi, maliyyə köməyindən məhrum edilməsi kimi hərəkətləri aid etmək olar. Bəyannamədə zorakılığın əsas formalarının müəyyən edilməsi ilə bərabər onun yaranma yerləri qeyd edilir, dəqiq desək, zorakılığın ailədə, cəmiyyətdə və dövlət tərəfindən yaranması göstərilir. Məişət zorakılığına Bəyannamə döyülməni, ailədə qızların erkən nikaha məcbur edilməsini, ər tərəfindən arvadın zorlanmasını və istismarla bağlı zorakılıqları aid edir. Bəyannamə dövlət tərəfindən dəstəklənən fiziki, cinsi və psixi zorakılığa qarşı da yönəlibdir.

Bəyannamənin 3-cü maddəsi məişət zorakılığını ümumilikdə qadınların əsas insan hüquqlarının məhdudlaşdırılması kimi qiymətləndirir. Orada göstərilir ki, qadına qarşı zorakılıq əsas hüquq və azadlıqların pozulması deməkdir. Beynəlxalq sənəd pozulan hüquqlara yaşamaq, bərabərlik, şəxsi toxunulmazlıq, işgəncələrə məruz qalmamaq və s. hüquqları aid edir.

Bəyannamənin böyük praktiki əhəmiyyəti var. Bəyannamədə zorakılığın formaları və yaranma səbəbləri ilə yanaşı, bu sosial bəla ilə mübarizə üsulları da müəyyən olunur. Bəyannamənin 4-cü maddəsi dövlətlərin qarşısında məişət zorakılığının bütün formalarından müdafiəni təmin etmək məqsədi ilə milli fəaliyyət planlarının hazırlanması tələbini qoyur. Bu plan aşağıdakı tədbirləri nəzərdə tutmalıdır:

- qadınlara qarşı zorakılıqla mübarizə sahəsində milli qanunvericiliyi yeniləmək, təkmilləşdirmək, onun həyata keçirilməsini təmin etmək;
- zorakılıqdan zərər çəkənlərə yardım göstərən xidmət şəbəkəsini yaratmaq, həm sosial müdafiə sistemi çərçivəsində, həm də qeyri-hökumət təşkilatları tərəfindən böhran mərkəzlərinin və zorakılıq qurbanları üçün sığınacaqların təşkil olunması;

- profilaktik tədbirlər görmək, ilk növbədə geniş maarifləndirmə və tərbiyə işləri aparmaq.[1]

Bəyannamə göstərir ki, məişət zorakılığı hüquqi və demokratik dövlətin prinsiplərinə ziddir. Dövlət isə insanlar qarşısında öz pozitiv öhdəliyini yerinə yetirməli, elə şərait yaratmalıdır ki, onlar ailədaxili münasibətlərdə zorakılığa məruz qalmasınlar.

BMT-nin Qadınlara Qarşı Ayrı-seçkiliyin Ləğv Olunması üzrə Komitəsi (bundan sonra - Komitə) 1992-ci ildə qəbul etdiyi 19 №-li "Ümumi tövsiyələri"ndə cinsi əlamətə görə qadınlara qarşı zorakılıq aktlarının qadağan olunmasını rəsmi bəyan etmişdir. Sənəddə göstərilir ki, cinsi əlamətə görə qadınlara qarşı zorakılıq qadına fiziki, psixi və cinsi zərər vura bilən, onun azadlığını məhdudlaşdıran zorakılıq hərəkətləridir. Qadınlara qarşı zorakılıq insan hüquqlarına xeyli dərəcədə xələl gətirdiyinə görə Komitə ölkələrə mövcud olan hüquqi vasitələrdən istifadə etməyi tövsiyə edir. Dövlətlər qadınları təhqirin bütün formalarından müdafiə edərək, məişət zorakılığından qorumalıdır.

Komitə ölkələrə tövsiyə edir ki, məişət zorakılığı halları baş verdikdə ədalətin bərpa edilməsi təmin olunsun. Dövlətlər məişət zorakılığının qarşısının alınması üçün öz qanunvericiliklərində məsuliyyət normalarını nəzərdə tutsun. Komitə ölkələri qadınlara qarşı zorakılığın bütün formalarının aradan qaldırılması üçün uyğun olan effektiv tədbirlərdən istifadə etməyə çağırır (bu tələblər xüsusilə məişət zorakılığına aiddir). Komitəni dövlətlərdə yaranan təcrübə də narahat edir. Dövlətlərə tövsiyə edilir ki, məişət zorakılığı ilə bağlı yaranmış vəziyyət aşkar edilsin, Komitəyə bu sahədə məhkəmə praktikası haqqında vaxtaşırı məlumat verilsin.[2]

1995-ci ildə qəbul olunmuş Pekin Bəyannaməsi və Fəaliyyət Platformasında BMT-yə üzvü olan ölkələr qadın və qızlara qarşı

---

[1] Декларация об искоренении насилия в отношении женщин // www.un.org/russian/documen/declarat/violence.htm

[2] Шейла Дж. Международно-правовые нормы о насилии в семье // Насилие в семье: как бороться с ним государству. – М., 1999.- С.84-85.

zorakılığın bütün formalarının qarşısının alınması və ləğv olunmasına öz hazırlığını təsdiq etdilər.[1] Qeyd olunmuşdur ki, bütün ölkələrdə zorakılığın səbəb və nəticələri haqqında bilik səviyyəsi əhəmiyyətli dərəcədə artıb. Xüsusilə vurğulanmışdır ki, cəmiyyətdə statusundan və bilik səviyyəsindən, əldə edilə gəlirin səviyyəsindən asılı olmayaraq qadın və qızlar müəyyən dərəcədə fiziki, cinsi və psixiki zorakılığa məruz qalırlar. Qeyd edilmişdir ki, kişilərlə qadınlar arasında tarix boyu yaranmış qeyri-bərabər münasibətlərin nəticəsi - qadınlara qarşı zorakılıq cəmiyyətdə kişilərin üstünlük əldə etməsinə və qadınların hüquq bərabərliyinin pozulmasına gətirib çıxara bilər.

Pekin fəaliyyət platformasında məişət zorakılığının aradan qaldırılması üçün kompleks yanaşma dəstəklənirdi və hesab edilirdi ki, mübarizə aparmaq tək ehtiyac deyil, həm də nail oluna bilən məqsəddir. Digər beynəlxalq sənədlərdən fərqli olaraq, Pekin Qaydaları məişət zorakılığı ilə mübarizə sahəsində dövlətlərin hökumətləri qarşısında daha praktiki fəaliyyət istiqamətləri müəyyən edir. Onlara aşağıdakıları aid etmək olar:

- adət-ənənələrə və ya müəyyən səbəblərə əsaslanmadan məişət zorakılığına görə məsuliyyət nəzərdə tutmaq;
- zorakılıq aktlarının dövlət və ya fiziki şəxs tərəfindən törədildiyinə baxmayaraq, zorakılığın istifadə olunmasından imtina və zorakılıq aktlarının qarşısının alınmasına və müzakirə edilməsinə lazımi diqqətin ayrılması;
- milli qanunvericilik səviyyəsində cinayət, mülki, əmək və inzibati məsuliyyətin artırılması, evdə, işdə, cəmiyyətdə baş vermiş zorakılıq nəticəsində dəyən zərərin ödənilməsinin təmin edilməsi;
- zorakılığa məruz qalan qadınların müdafiəsi üçün tədbirlərin görülməsi, kompensasiyanın ödənilməsi, sağlamlığın bərpa edilməsi;

[1] Доклад IV Всемирной конференции по положению женщин / Бюллетень ООН. – Пекин., 1995. – 202 с.

- zorakılığa məruz qalmış qadın və qızlar üçün təhlükəsiz şəraitin yaradılması və konfidensiallıq şəraitində zorakılıq törədən şəxslərə qarşı ittiham irəli sürmək məqsədi ilə belə qız və qadınların açıq məlumat vermələrinə imkan verən xüsusi strukturların yaradılması;
- zorakılıq qurbanları ilə ədalətli rəftar etmək məqsədi ilə məhkəmə, hüquq-mühafizə, tibb, sosial, immiqrasiya orqanlarının işçiləri üçün tədris proqramlarının yaradılması, onlarla maarifləndirmə işlərinin aparılması;
- qüvvədə olan qanunvericiliyin yenidən nəzərdən keçirilməsi və zorakılıqla mübarizə sahəsində effektiv tədbirlərin görülməsi;
- qadınlara qarşı məişət zorakılığının aradan qaldırılmasına dair fəaliyyət planının bütün müvafiq səviyyələrdə hazırlanması və həyata keçirilməsi, bu tədbirlərin həyata keçirilməsi üçün kifayət qədər maliyyə vəsaitlərinin ayrılması.

Məişət zorakılığı ilə beynəlxalq səviyyədə mübarizə aparılması, qadın və uşaqların hüquq və azadlıqlarının təmin edilməsi üçün effektiv qurumlardan biri də BMT-nin İqtisadi və Sosial Şurasıdır. Bu Şura insan hüquqlarının təmin edilməsi ilə bağlı tövsiyələr verə və ölkələrdə yaranmış vəziyyəti müzakirəyə çıxara bilər. 1946-cı ildə Şura yanında qadınların vəziyyətini araşdıran xüsusi komissiya yaradılmışdır. Bu komissiya ölkələrdə məişət zorakılığı ilə bağlı vəziyyəti təhlil edir, iki ildə bir dəfə yığıncaq keçirir və dünyanın bütün ölkələrində bərabərliyin təmin olunması ilə bağlı məruzələri dinləyir.

Məişət zorakılığı ilə mübarizə sahəsində digər beynəlxalq mexanizm Qadınlara Qarşı Ayrı-seçkiliyin Ləğv Olunması üzrə Komitədir. Bu komitə "Qadınlara qarşı ayrı-seçkiliyin ləğv olunması haqqında" Konvensiyaya əsasən təsis olunub.

BMT səviyyəsində bir xüsusi təsisat da var. 1994-cü ildə İnsan hüquqları üzrə BMT Komissiyası qadınlara qarşı zorakılığın ləğv olunması məsələlərini araşdıran xüsusi məruzəçinin təyin olunması haqqında qərar qəbul etdi. Xüsusi

məruzəçi özünün ilk məruzəsində qadınlara qarşı zorakılığın ləğv edilməsində dövlətin məsuliyyətini vurğuladı. O qeyd etdi ki, "dövlətlər qadınlara qarşı zorakılıq hallarını araşdırmalı, müvafiq tədbirlər görməli, qanunvericiliklərində məsuliyyət nəzərdə tutmalıdırlar, əks halda dövlətlər də zorakılığı törədən şəxs kimi törədilən cinayətlərdə təqsirkardırlar".[1]

Məruzədə göstərilirdi ki, "gender problemi məişət zəminində yarandığına görə "məişət zorakılığına milli qanunvericilikdə yalnız cinayət hüquq problemi kimi yox, hətta insan hüquqlarının təminatı məsələsi kimi baxılmalıdır".[2]

Nəhayət, 1999-cu il 6 sentyabr tarixində iki prosedur nəzərdə tutan Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında Konvensiyaya Fakültativ protokol qəbul olundu. Biri şikayətin təqdim edilməsi proseduru, digəri isə araşdırma proseduru ilə bağlı idi.

Məişət zorakılığı ilə mübarizə sahəsində beynəlxalq sənədlər sırasına ölkələr üçün vacib əhəmiyyət kəsb edən model qanunvericilik aktını aid etmək olar. BMT 1996-cı ildə "Məişət zorakılığı haqqında" model qanunvericilik aktını bütün ölkələrin müzakirəsinə təqdim etdi. Düzdür, model qanunvericiliyin mütləq xarakteri olmasa da, ölkə parlamentlərinə müəyyən qədər istiqamətverici və tövsiyəedici təsiri var. Model qanunvericilikdə xüsusiləşdirilmiş qanunlar paketinin variantı təqdim olunub və onlar məişət zorakılığından əziyyət çəkən qadınların müdafiəsinə yönəldilibdir.[3]

Model qanunvericilik mövcud olan cinayət və mülki qanunvericiliyin təkmilləşdirilməsi və məişət zorakılığı haqqında qanunların hazırlanması üçün tövsiyələr verir. Məişət zorakılığı haqqında model qanunvericiliyin məqsədləri aşağıdakılardır:

---

[1] Предварительный доклад специльного уполномоченного о насилии против женщин, его причинах и последствиях, Документ ООН E/CN.4/1995/42, 22 ноября 1994., - С.18.
[2] Доклад специального уполномоченного о насилии против женщин, его причинах и последствиях, Документ ООН E/CN.4/1996/53, 5 февраля 1996., – С. 9.
[3] State Responses to Domestic Violence. WLDI. Washington D.C., 1996. - P.109 -128

- insan hüquqları sahəsində beynəlxalq standartlara, xüsusən də "Qadınlara qarşı zorakılığın ləğv edilməsi haqqında" 1993-cü il tarixli BMT Bəyannməsinə riayət etmək;
- cinsi əlamətlər əsasında qadına - ailə üzvünə və ya tanış qadına qarşı törədilən zorakılığın məişət zorakılığı adlandırılması qəbul edilməlidir;
- qəbul olunmalıdır ki, məişət zorakılığı şəxsiyyət və cəmiyyətə qarşı ciddi cinayətdir;
- ailə üzvləri olan qadınlara və yaxın əlaqədə olan qadınlara qarşı zorakılığı qadağan edən qanunvericiliyi qəbul etmək;
- məişət zorakılığından əziyyət çəkən hər bir kəsin hüquqi müdafiəsini təmin etmək;
- cinayət və mülki qanunvericilikdə nəzərdə tutulan məişət zorakılığının aradan qaldırılması və cəzalandırılması üçün zorakılıqdan zərər çəkənlərin müdafiəsi ilə bərabər zorakılıqdan onların tələbatlarına cavab verən çevik tədbirlərin görülməsi;
- qadınları məişət zorakılığından qorumaq və insanları bu cür cinayətləri törətməkdən çəkindirmək məqsədi ilə ayrı-seçkiliyi nəzərdə tutmayan cinayət qanunvericiliyinin tətbiqini təmin etmək;
- məişət zorakılığı üzrə profilaktik tədbirləri təmin edən sığınacaqlar, məsləhətxanalar, məişət zorakılığı qurbanlarına yardım göstərən bölmələr, proqramlar, xidmətlər və protokollar yaratmaq;
- qanunvericilik yolu ilə dəstək verən yardım xidmətlərinin yaradılması;
- məişət zorakılığından əziyyət çəkən şəxslərə yardımın göstərilməsində hüquq mühafizə orqanlarının səlahiyyətlərini genişləndirmək, məişət zorakılığı faktlarının mövcud olduğu hallarda qanuna riayət edilməsini və bu cür faktların profilaktikasını (xəbərdaredici) təmin etmək;

- hakimləri, prokurorları, polis və sosial işçiləri məişət zorakılığı qurbanlarına yardımın göstərilməsində təlimatlandırmaq, onlara iqtisadi yardım və təhlükəsizlik tələb olunanda, o cümlədən əlillik ilə əlaqədar olan hallarda effektiv yardım etməyi öyrətmək;
- polis, məhkəmə və digər orqanlar üçün ailədə zorakılığın qurbanı olanları ilə iş aparan təlimatçıların hazırlanması və zorakılığı törədən şəxslərlə işin aparılması üçün onlara məsləhətlər vermək;
- məişət zorakılığı halları ilə yerli əhalinin və qonşuların daha çox məlumatlı olmalarına çalışmaq və ictimaiyyətin məişət zorakılığı hallarının aradan qaldırılmasında iştirakını dəstəkləmək.

Model qanunvericiliyində məişət zorakılığı məfhumu altında cinsi əlamətə görə qadınlara qarşı törədilən bütün fiziki, psixi və cinsi xarakterli hərəkətlər başa düşülür. Bu hərəkətlərə aşağıdakılar aid edilir: sözlə təhqirdən və hədələnmələrdən ağır fiziki döyülmələrədək, oğurlamaq, şikəst etmə ilə hədələmə, qoxutmaq, məcbur etmək, izləmə, evinə qanunsuz və ya zorla daxil olma, yaşayış evini yandırma, mülkiyyətinə ziyan vurma, cinsi zorakılıq, nikahda zorlama, cinsi şikəst etmə, cehizlə və ya gəlinin alınması ilə əlaqədar olan zorakılıq, fahişəlikdə istismar etmə, ev xadimələrinə qarşı zorakılıq və s.

Məişət zorakılığı haqqında model qanunvericiliyi subyektlərinin dairəsinə aşağıdakı kateqoriyalardan olan şəxsləri daxil edilir: nikahda olan arvadlar, birlikdə yaşayan partnyorlar, keçmiş arvadlar və ya partnyorlar, məişət münasibətlərində birlikdə yaşayan şəxslər, o cümlədən onlarla bir evdə yaşamayan şəxslər, qohumlar (bacılar, qızlar, analar), ev xadimələri və onların ailə üzvləri. Dövlətlər yol verməməlidirlər ki, dini və ya mədəni-milli adətlər hər hansı bir qadının bu məişət zorakılığından qanun çərçivəsində müdafiə olunmasına mane olsun. Dövlətlər onun vətəndaşı olmayan qadınların xüsusi qanun çərçivəsində tam müdafiəsini təmin etməli və bu qanuna uyğun olaraq ölkənin vətəndaşı olmayan kişilərin də məsuliyyətini nəzərdə tutmalıdır.

Model qanunvericiliyi tövsiyə edir ki, milli qanunda məişət zorakılığından əziyyət çəkənlərin və ya zorakılıq qurbanlarının, onların ailə üzvlərinin, zorakılığın şahidlərinin, qurbanlara yaxın olan adamların, qurbana sığınacaq verən şəxslərin, dövlət və özəl tibb müəssisələrinin, sosial xidmətlərin, zorakılıq qurbanlarına yardım mərkəzlərinin məhkəməyə müraciət etmə prosesi və polisdə qeydə alınma qaydası nəzərdə tutulsun.

Model qanunvericiliyində şikayətlərin təqdim olunması qaydası, alternativ prosedurlar, qurbanların hüquqları, polisin məsuliyyəti, müdafiə orderi və müvəqqəti məhdudlaşdırıcı order kimi sənədlərin təsir etmə mexanizmi və s. barədə tövsiyələr verilir.

Bütövlükdə beynəlxalq hüquq məişət zorakılığı ilə mübarizənin ümumi şərtlərini göstərsə də, bu sahədə fəaliyyətin effektivliyi dövlətlərin gördüyü tədbirlərdən asılıdır. Dövlət məişət zorakılığı ilə mübarizədə öz iradəsini bildirməli, hüquq sistemində qadın və uşaqların müdafiəsi üçün xüsusi vasitələr yaratmalıdır.

## 1.3. Məişət zorakılığı ilə mübarizə sahəsində xarici ölkələrin təcrübəsi

Məişət zorakılığı probleminin beynəlxalq hüquqda aktuallaşması dövlətlərin hüquq sistemlərinə də təsirini göstərir. Problem qlobal olduğuna görə məişət zorakılığı ilə mübarizə sahəsində universal tövsiyələr, proqramlar, model normativ aktlar və s. hazırlanıb. Beynəlxalq hüquqda dövlətlərin hesabatı mexanizmi yaradılıb. Bununla yanaşı, dövlətlər beynəlxalq standartları milli qanunvericiliklərinə implementasiya edərək özlərinə məxsus modellər yaradırlar. Onların çox vaxt oxşarlıqları olsa da, praktiki cəhətdən maraq doğuran fərqli xüsusiyyətləri də var.

Təbiidir ki, cinsi bərabərliyi və bərabər imkanları yaradan xüsusi qanunlara malik ölkələrin təcrübəsi məişət zorakılığı ilə mübarizənin təkmilləşdirilməsi baxımından böyük maraq doğurur. İslandiya, Danimarka, Norveç, İsveçrə, Finlandiya,

Litva, Estoniya və Latviyada, habelə Rusiya, Moldova, Belarus, Gürcüstan və sair ölkələrdə məişət zorakılığı ilə bağlı qanunlar qəbul edilibdir. Bu qanunların əsas məqsədi qadınların və kişilərin faktiki bərabərliyinin təmin olunmasına şərait yaramaq və ayrı-seçkiliyin qarşısını almaqdır.

Məişət zorakılığı ilə mübarizə əksər ölkələrdə gender bərabərliyinin təminatı ilə paralel aparılır. Bunun üçün xüsusi mexanizm yaradılır, onun icrasını təmin edənsə komitələr və müvəkkillər olurlar. Məsələn, Skandinaviya ölkələrində bu mexanizmin işləməsi üçün qadın işləri üzrə xüsusi müvəkkillər fəaliyyət göstərir. "Cinslərin bərabər statusu haqqında" 1978-ci il tarixli Norveç Qanunu ilə xüsusi ombudsman təsisatı və gender məsələləri üzrə xüsusi apellyasiya orqanı yaradılıb. İsveçrədə 1980-ci ildə "Bərabər imkanlar haqqında" Aktın qəbul olunması ilə xüsusi nəzarət orqanı - Komissiya yaradılıb. Bundan əlavə, Əmək Nazirliyi nəzdində bərabər hüquqlar üzrə müvəkkilin ofisi açılıb.

Digər ölkələrdə bərabərliyin təmin olunmasında fərqli qanunvericilik aktlarından istifadə olunur. Məsələn, Fransada cinayət məcəlləsində ayrı-seçkiliyə, o cümlədən cinsi əlamətə görə törədilən cinayətlərə aid bölmə var. Bu bölməyə iqtisadi fəaliyyəti məhdudlaşdıran, işə qəbulda və işdən azad olunmada ayrı-seçkilik, məişət zorakılığının formaları və s. kimi cinayət növləri daxil edilib.[1]

Gender problemi aktual olan, lakin bərabərlik prinsipini nisbətən çətin təmin edən ölkələr də var. Onların əksəriyyəti Şərq adət-ənənələrini bu gün də yaşadan, lakin demokratik inkişaf yoluna çıxan ölkələrdir. Məsələn, Türkiyədə 2003-cü ildə Mülki Məcəlləyə kişi və qadınların bərabərliyinə zəmanət verən dəyişiklik qəbul olunmuşdur. Beləliklə, Türkiyə qanunvericiliyində kişi hüquqi cəhətdən daha ailə başçısı hesab olunmur, qadınlar isə ərləri ilə birgə yaşadıqları dövrdə əldə edilmiş mülkiyyətə eyni hüquqlu sahib olurlar.[2]

---

[1] Уголовный Кодекс Франции. Глава 5 «О посягательствах на достоинство человека». – СПБ., 2002. – С.260

[2] Booklet on the new Turkish Civil Code // www.nasilie.net

Gender problemi sahəsində milli qanunvericiliklərin əsas çatışmazlığı onlarda cinayətkar zorakılığın qarşısının alınması üzrə xüsusi normaların olmamasıdır. Əksər halda qanunvericiliyin təkmilləşdirilməsi üçün əsas şərt zorakılıqdan zərər çəkən şəxslərin müdafiəsi və cinayətkarların cəzalandırılması haqqında hüquqi normaların hazırlanmasıdır.

Meksikada, Malayziyada, Hindistanda və s. ölkələrin əksəriyyətində qadınlara münasibətdə məişət zorakılığına qarşı kampaniya cinayətkar zorakılığın müxtəlif formalarına qarşı islahatla başlanırdı. Portuqaliyada və İtaliyada cinsi xarakterli cinayətlər əvvəllər mənəviyyata qarşı cinayətlər kimi müzakirə olunurdusa, sonralar onlar insan ləyaqətini alçaldan cəhd kimi qiymətləndirilirdi.[1] Bir sıra ölkələrdə (İngiltərə, İsveçrə, Niderland, Yaponiya, Yeni Zelandiya və s.) cinayət qurbanlarına zərərin ödənilməsi təcrübəsi cinayətkar xarakterli məişət zorakılığının qarşısının alınmasında xüsusi rol oynadı.

Məişət zorakılığının qarşısının alınmasına yönəldilən profilaktik fəaliyyətin həyata keçirilməsində çox şey onun yaranma səbəblərinin aşkar edilib, onlara qarşı tədbirlərin görülməsindən asılıdır. Məsələn, qadının razılığı olmadan onu seksual cəhətdən əldə etməyə çalışmaq məişət zorakılığının səbəblərindən biridir.

Ölkələrin milli qanunvericiliyi seksual cinayətlərə müxtəlif cür yanaşır. Sosial Məsələlər üzrə Avropa Komissiyası bildirir ki, yalnız Fransa və Belçikada seksual cinayətlərin qarşısının alınması üzrə konkret və tam qanunvericilik mövcuddur. Məsələn, Fransada Cinayət Məcəlləsinin 222-33-cü maddəsinə görə, seksual cinayət digər şəxsi hədələmə, təqib və əmrlərlə məcbur etmə, seksual xarakterli üstünlüyü əldə etmək məqsədi ilə məcburetmə və ya ağır təzyiq göstərmə, öz səlahiyyətlərindən sui-istifadə edən vəzifəli şəxs tərəfindən məcburetmədir.[2]

---

[1] Final Repot “Unveiling the hidden data on Domestic Violence in the European Union” . 1999., - P. 205.

[2] Уголовный кодекс Франции // www.law.edu.ru/norm/norm.asp?normID=1243018

Macarıstan, Polşa və Rumıniya kimi ölkələrin qanunvericiliyində seksual cəhətdən əldə etməyə çalışma ümumi cinayət qanunvericiliyinə daxil edilsə də, maddə ilə təmin olunmayıb. Yunanıstan və Portuqaliyada belə hallarda təqsirkarın cəzalandırılması üçün heç bir tədbir nəzərdə tutulmayıb.[1]

Cinsi təqib və ya cinsi cəhətdən əldə etməyə çalışma ABŞ-da, Kanadada, İsraildə və Cənubi-Şərqi Asiyanın bəzi ölkələrində qadağan edilibdir. İsveçrədə seksual təqib Cinayət Məcəlləsinin 198-ci maddəsinə görə yüngül ictimai təhlükəli cinayət hesab olunur.[2]

MDB ölkələrinin qanunvericiliyində seksual təqiblərə görə cinayət məsuliyyəti nəzərdə tutulmayıb, ancaq cinayət məcəllələrinin müəyyən normaları bu ictimai təhlükəli əmələ qarşı dolayı qaydada istifadə oluna bilər.

Məişət zorakılığının qarşısını almaq məqsədilə onun yaranma səbəblərinin aşkar edilib onlara qarşı tədbirlərin görülməsi ölkələrin qanun yaradıcılıq siyasətində öz əksini tapmalıdır. Qanunvericilikdə ilk növbədə məişət zorakılığı formalarına qarşı məsuliyyət normaları nəzərdə tutulmalı və sonra xüsusi qanun qəbul edilməlidir.

Lakin bu problemin həlli istiqamətində cəhdlər mövcud konstitusiya, cinayət və mülki qanunvericilik normalarının təkmilləşdirilməsi ilə məhdudlaşırdı. Əksər ölkələrdə məişət zorakılığı ilə mübarizədə publik (xüsusi ilə də cinayət qanunvericiliyi) qanunvericiliyin zorakılığın qarşısının alınmasına yönəldilirdi. Halbuki məişət zorakılığı cinayət formasına görə mürəkkəb tərkibə malikdir. Nəticədə dövlətlər bu cür yanaşmanın qeyri-effektivliyini anlayaraq, məişət zorakılığı ilə bağlı xüsusi qanunların qəbul olunması qərarına gəldilər.[3]

---

[1] В организациях ЕС женщин сексуально домогаются // http://photo/normal/o/ACF24D/jpg

[2] Уголовный кодекс Швейцарии // www.sweden4rus.nu/rus/info/juridisk/ugolovnyj_kodeks_shvecii.asp

[3] Шейла Дж. Международно-правовые нормы о насилии в семье // Насилие в семье: как бороться с ним государству. – М., 1999.- С.88-91.

Lakin məişət zorakılığı ilə mübarizə kompleks şəkildə aparılmalıdır. İlk tədbirlər dövlətin Əsas Qanunu olan Konstitusiyadan başlanmalıdır. Konstitusiya hər bir dövlətin Əsas Qanunu olaraq, fərdlə dövlət arasında münasibətləri müəyyən edir. Konstitusiya əsas hüquqları əks etdirir və onların qorunmasına görə məsuliyyət dövlətin üzərinə qoyulur. İnsanın əsas hüquqları ümumilikdə hüquq sistemi üçün strateji əsas yaradır.

Qeyd etmək lazımdır ki, konstitusiyaların əksəriyyətinin mətninə məişət zorakılığı haqqında müddəalar daxil edilməyib. Lakin insan hüquqları üzrə konstitusiya normaları - yaşamaq, işgəncələrə məruz qalmamaq, şərəf və ləyaqətin müdafiəsi, şəxsi toxunulmazlıq, ayrı-seçkiliyin qadağan edilməsi, vicdan azadlığı, şəxsi həyatın toxunulmazlığı, azadlıq hüquqlarını məişət zorakılığından müdafiədə müəyyən qədər zəmanət verir. Demokratik ölkələrin bütün konstitusiyalarında bərabərlik prinsipinin bəyan olunması məişət zorakılığı probleminin aradan qaldırılmasına təkan verir. Demokratik ölkələrin konstitusiyalarında bərabərlik prinsipi insan hüquqları bölməsinin əsasını təşkil edir və ilk maddələrin birində təmin edilir.

Bəzi ölkələrdə məişət zorakılığı ilə bağlı müddəalar hətta konstitusiyaların mətninə daxil edilibdir. Məsələn, Braziliyanın 1988-ci il Konstitusiyasının 226-ci maddəsində göstərilir ki, ailə cəmiyyətin əsasıdır, dövlətin xüsusi müdafiəsi altındadır və dövlət məişət zorakılığı ilə mübarizənin aparılması üçün xüsusi mexanizmləri yaradır. Kolumbiyanın 1991-ci il Konstitusiyasının 42(5)-ci maddəsində deyilir ki, məişət zorakılığı ailənin harmoniyası və bütövlüyü üçün məhvedicidir və ona görə qanun tərəfindən cəzalandırılmalıdır.[1]

MDB ölkələrinin konstitusiyalarında da ailənin dövlətin müdafiəsi altında olması haqqında müddəalar var. Azərbaycan Respublikasının Konstitusiyasının (bundan sonra Konstitusiya) 34-cü maddənin 3-cü bəndində qeyd edilir ki, "Nikah və ailə

[1] Orada. – S. 89.

dövlətin himayəsindədir. Analıq, atalıq, uşaqlıq qanunla mühafizə edilir. Dövlət çoxuşaqlı ailələrə yardım göstərir".

Bir sırası ölkələrin konstitusiyaları məişət zorakılığının qismən aradan qaldırılması səylərinin müəyyən aspektlərini əks etdirir. Məsələn, 1994-cü il tarixli Efiopiya Konstitusiyası qadınların zorakılıq yaradan adətlərdən müdafiə olunmasına dövlət tərəfindən zəmanət verir və habelə qadınların insan azadlıqlarını məhdudlaşdıran, onlara fiziki və ya psixi zərər gətirən qanunları, adət və ənənələri qadağan edir. Vyetnam Respublikasının 1980-cı il tarixli Konstitusiyası qadınlara qarşı ayrı-seçkilik xarakteri daşıyan, onların ləyaqətini alçaldan hər hansı hərəkətlərin edilməsini qadağan edir.[1]

Konstitusiya normaları məişət zorakılığına qarşı tələbləri, ailə münasibətlərinin dövlət nəzarəti altında olmasını bəyan etsə də, hüququn geniş mənada effektini təmin etmir. Məişət zorakılığı ictimai təhlükəli əməl sayılırsa, deməli, onun törədilməsinə görə hüquq sistemində məsuliyyət formaları (sanksiyalar) olmalıdır. Bu baxımdan müxtəlif ölkələrin məişət zorakılığı ilə bağlı cinayət qanunvericiliyinin müqayisəli təhlili maraqlıdır.

Xarici ölkələrin əksəriyyətində məişət zorakılığı cinayət məcəlləsinə daxil edilibdir. Bəzi ölkələr hətta məişət zorakılığına gətirib çıxaran və məişət səviyyəsində artıq adət halını alan hərəkətləri cinayət məcəllələrinə daxil ediblər və onlara görə məsuliyyət nəzərdə tutulur. Məsələn, Hindistanda bu zamana qədər cehizə görə ölüm adəti var. Bu adətə əsasən, qadının qohumları cehizi artırmaqdan imtina etdikdə nikahın ilk illərində gəlin öldürülə bilər. Ona görə 1986-cı ildə Hindistanda "Cehizin qadağan olunması haqqında" Akt qəbul olunmuşdur. Qanun cehizin ödənilməsi və alınmasına görə həbs cəzasını nəzərdə tutur.[2] Şərq ölkələrində, xüsusilə türkdilli xalqlarda gəlini qaçırma adəti var idi. Müəyyən xalqlarda bu adət bu günə qədər saxlanılır. Ancaq hüquq-mühafizə orqanları cinayət

---

[1] Orada. – S. 90-91.
[2] Orada. – S.92.

qanunvericiliyinə görə bu cür halları artıq adam oğurluğu kimi tövsif edirlər (məsələn, Cinayət Məcəlləsinin 144-cü maddəsi).

Müəyyən ölkələr (İsrail, Polşa, İsveçrə, Latviya və sair) cinayət qanunvericiliyinin təsir gücünü artırmaq məqsədi ilə məişət zorakılığına dair maddələri birbaşa cinayət məcəllələrinin mətninə daxil etmişlər. Məsələn, Latviya Respublikasının Cinayət Məcəlləsinin 174-cü maddəsinə əsasən, təqsirkar şəxsdən maddi və ya başqa asılılığı olan yetkinlik yaşına çatmayan şəxslərə qarşı qəddar və zorakı münasibət cinayət hesab edilir. Bu cinayət növünə görə hətta azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulur.[1] İsrailin Cinayət Məcəlləsi asılı vəziyyətdə olan yetkinlik yaşına çatmayanların döyülməsini cinayət hesab edir.

Niderlandın cinayət qanunvericiliyi ailə üzvlərini təhqir etməyə, onlara qarşı zorakılıq tətbiq etməyə görə cəza nəzərdə tutur.[2] Fransanın Cinayət Məcəlləsinin 227-15 və 222-27-ci maddələrinə əsasən, yetkinlik yaşına çatmayan şəxslərin sağlamlığına ciddi ziyan vuraraq, onların qidadan və ya qayğıdan məhrum edilməsinə, habelə onlara qarşı qohumları, himayəçiləri tərəfindən zorlama olmayan cinsi təcavüzün törədilməsinə görə azadlıqdan məhrumetmə və ya böyük cərimə nəzərdə tutulur.[3]

Postsovet məkanında əksər ölkələrin cinayət məcəllələrində yetkinlik yaşına çatmayan şəxsləri lazımı qaydada tərbiyə etməyən, onlara zorakılıq tətbiq edən ailə üzvlərinin məsuliyyətə cəlb edilməsi nəzərdə tutulur. Məsələn, Ukraynanın Cinayət Məcəlləsinin "Yetkinlik yaşına çatmayan şəxsləri pis yola çəkmək" adlı 156-cı maddəsinin 2-ci hissəsi subyektlərin məhdud dairəsini nəzərdə tutur. Bu subyektlərə ana, ata və ya valideyn vəzifəsini yerinə yetirən digər şəxslər aid edilirlər. Beləliklə, uşaqlara qarşı pozğun hərəkətlərin, onların pis yola çəkilməsinin

[1] Уголовный кодекс Латвии / принятый 8 июня 1998 года // www.lawlibrary.ru/izdanie39014.html
[2] Private Violence Public Issue. – The Hague., 2002. – P.8.
[3] Уголовный кодекс Франции // www.law.edu.ru/norm/norm.asp?normID=1243018

onları tərbiyə edənlər tərəfindən törədilməsi ağırlaşdırıcı hal kimi tövsif edilir.[1]

Məişət zorakılığı halları çox olan ölkələrdə qanunverici orqanlar bu cür cinayətlərə görə hətta cəza sanksiyasını artırırlar. Məsələn, Banqladeşdə "Qadınlara qarşı qəddar münasibətə görə məsuliyyət haqqında" 1988-ci il tarixli 37 №-li Aktda cəza artırılıbdır. İspaniyanın, Perunun, Belçika və İsveçrənin cinayət məcəllələrinə həyat yoldaşlarının bir-biri ilə pis rəftar etmələrinə görə cəza nəzərdə tutan maddələr əlavə olunmuş, maddələrin sanksiyaları artırılmışdır.[2]

Bir sıra ölkələrin, məsələn, Polşa və İsveçrənin cinayət məcəllələrində (müvafiq olaraq 201 və 213-cü maddələr) insestə, yəni yaxın qohumlar, qan qardaşları və bacıları, övladlığa götürülən uşaqla valideyn arasında cinsi əlaqələrə görə ciddi sanksiyalar nəzərdə tutulub.[3] Əksər halda bu hərəkətlər hətta zorakılıqla müşahidə olunur. Fransanın 227-26-cı maddəsinə əsasən, yetkinlik yaşına çatmayan şəxslərə qarşı cinsi qəsdin, qohumlar və ya himayədarlar tərəfindən törədilməsi cəzanı ağırlaşdıran hal kimi tövsif olunur.[4]

Uzun müddət latent kimi qalan cinayətə - ərin arvadını zorlama cinayətinə müxtəlif cür yanaşılır. Məsələn, postsovet ölkələrinin əksəriyyəti bu cür zorlama cinayətini ərlə arvad münasibətlərinə də aid edirlər. Lakin son zamanlar müxtəlif mədəni dəyərlər baxımından ölkələr ailədə zorakılığın daha bir latentlik formasını kriminallaşdırırlar. Məsələn, Polşa, İsveçrə və Norveçdə, ABŞ və Avstraliyanın ştatlarının əksəriyyətində xüsusi normalar mövcuddur. Bununla belə, elə ölkələr var ki, qadına ərinə qarşı zorlama ilə bağlı ittiham irəli sürməyə icazə vermir. Məsələn, Boliviya və Ekvador kimi dövlətlərin cinayət

---

[1] Уголовный кодек Украины // http://www.crime.org.ua/osobliva/4/

[2] Шейла Дж. Международно-правовые нормы о насилии в семье // Насилие в семье: как бороться с ним государству. – М., 1999.- С.92.

[3] Уголовный кодекс Польши // *www.*law.edu.ru/norm/norm.asp?normID=1246817*;* Уголовный кодекс Швейцарии // www.chtivo.ru/chtivo=3&bkid=843050.htm

[4] Уголовный кодекс Франции // www.law.edu.ru/norm/norm.asp?normID=1243018

məcəllələrində ər-arvada bir-birinin hərəkətlərini təqsirləndirməyi qadağan edən normalar mövcuddur.[1]

MDB ölkələrində cinayət qanunvericiliyi islahatları oxşar aparıldığına görə bu ölkələrin cinayət qanunvericiliyində məişət zorakılığına görə xüsusi məsuliyyət normaları yoxdur. Ona görə məişət zəminində törədilən cinayətlər subyektlərin dairəsinə görə fərqlənmir. Məsələn, arvad ər tərəfindən döyülüb və ya öldürülübsə, törədilən cinayət müvafiq olaraq "Döymə" (Cinayət Məcəlləsinin 132-ci maddəsi) və "Qəsdən adam öldürmə" (Cinayət Məcəlləsinin 130-cu maddəsi) cinayətləri kimi tövsif olunacaq. Ancaq qeyd edək ki, Cinayət Məcəlləsində ailə münasibətləri daxilində törədilən cinayətlərə görə də məsuliyyət nəzərdə tutulur.[2]

Cinayət xarakterli məişət zorakılığı hallarının xüsusiyyətlərini nəzərə almaq lazımdır. Onlar əksərən zərər çəkmiş şəxs tərəfindən bildirilmir, ona görə uzun müddət baş verən cinayət xarakterli zorakılıqlar latent qala bilər və ya zərər çəkmiş şəxs ittihamdan imtina edə bilər. Bunun da səbəbləri var. Birincisi, məişət zorakılığı çox zaman bir-birindən maddi cəhətdən asılı olan şəxslər arasında baş verir, ona görə cinayəti törədən şəxs ittiham olunan zaman tərəflər ailə maraqları ilə bağlı məsələlərin üstünü örtməyə çalışırlar. İkincisi, ailə üzvləri peşmançılıq çəkərək ailə münasibətlərinin saxlanılmasını arzulayırlar. Bu cür hallarda cinayət təqibi orqanları qətiyyətli olmalı və törədilən cinayətin ictimai təhlükəli xarakterinə görə cinayəti törədən şəxsi məsuliyyətə cəlb etməlidir. Təbii ki, cinayətkarın cəzalandırılması adətən ailənin dağılmasına səbəb olur. Ancaq bu cür tədbirin ictimai faydalı əhəmiyyəti və ictimai münasibətlərə profilaktik təsiri var.

Digər tərəfdən təcrübə göstərir ki, məişət zorakılığını törədən şəxsləri azadlıqdan məhrumetmə və ya yüksək cərimələr çox da

---

[1] Шейла Дж. Международно-правовые нормы о насилии в семье // Насилие в семье: как бороться с ним государству. – М., 1999.- С.93.

[2] Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. 22-ci fəsil - Yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə olan cinayətlər. Bakı., 2001. – C.90.

tərbiyə etmir. Bu baxımdan Rusiya cinayət qanunvericiliyinə verilən təkliflər maraq doğurur. Məsələn, kriminoloqlar qeyd edirlər ki, məişət zorakılığı törədən şəxslər öz hesablarına məcburi psixoterapiya kursları keçərlərsə, onların cəzaları şərti cəza ilə əvəz edilə bilər.[1] Bu baxımdan ABŞ təcrübəsinin öyrənilməsi məqsədəuyğundur.

Məişət zorakılığı ilə mübarizə sahəsində cinayət qanunvericiliyinin rolu böyükdür. Xarici ölkələrin cinayət qanunvericiliyinin təhlili göstərir ki, bu cür cinayətlərin müxtəlif növləri var, lakin bütövlükdə əksər dövlətlər bu sahənin kriminallaşmasını nəzərdə tutur və müxtəlif modellər təklif edirlər.

Məişət zorakılığından əziyyət çəkən şəxsləri cinayət qanunvericiliyi ilə bərabər mülki qanunvericilik də qoruyur. Əksər ölkələrin mülki hüquq qanunvericiliyində zərər çəkən şəxslərə kompensasiyanın verilməsi, zərərin ödənilməsi, ər və arvadın ayrılıqda yaşaması, məcburi boşanma kimi mülki məsuliyyət növləri nəzərdə tutulur.

Məişət zorakılığı ilə mübarizədə cinayət və mülki qanunvericiliklərin tətbiq edilməsinin üstünlüklərinə baxmayaraq, onlardan heç biri məhkəmə müdafiəsinin vasitələrini təmin edə bilməz. Məişət zorakılığı ilə bağlı xüsusi qanunlar məhkəmələrə imkan yaradır ki, zorakılıq hallarına müxtəlif aspektlərdən yanaşsınlar. Ona görə ölkələr tezliklə məişət zorakılığına qarşı xüsusi qanunlar qəbul etməlidirlər.

Məişət zorakılığı ilə mübarizə sahəsində ilk xüsusi qanunlar ABŞ-da sosioloji nəzəriyyə tərəfdarlarının səyi nəticəsində hazırlanmışdır. Keçən əsrin 90-cı illərinin əvvəllərində ABŞ-ın bütün ştatlarında məişət zorakılığı ilə bağlı xüsusi qanunlar qəbul edilmişdi. Bu təcrübədən istifadə edərək BMT məişət zorakılığı haqqında model qanunvericilik hazırladı və onu üzvü olan ölkələrin qanunvericilik orqanları üçün tövsiyə etdi.

Beləliklə, məişət zorakılığı haqqında xüsusi qanunlar Argentina, Böyük Britaniya, Kipr, Çili, Türkiyə, Malayziya və

---

[1] Криминалогия – XX век / под редакцией В.Н.Бурлакова, В.П.Сальникова. – СПб., 2000. – С.509.

digər ölkələrdə qəbul olundu. Onların predmeti eyni olsa da məişət zorakılığı ilə mübarizədə fərqli istiqamətlər seçirdilər. Onların bir qismi (məsələn, Finlandiya, İspaniya) məişət-ailə münasibətləri zəminində hüquq pozuntusunun birinci dəfə törədilməsinə görə müdafiə orderlərindən istifadə etməyə imkan verən mülki-hüquqi tədbirlərlə kifayətləndi. Digər ölkələr (məsələn, Avstriya, İrlandiya) müdafiə orderlərindən istifadə etmək imkanlarını və daxili işlər orqanlarının səlahiyyətlərini genişləndirməyin tərəfdarları idi. Daha qətiyyətli mövqe seçən ölkələr (məsələn, Meksika, ABŞ və s.) mülki-prosessual və cinayət-prosessual tədbirləri ümumilikdə qanuna əlavə etdilər.

BMT-nin məlumatlarına əsasən, XX əsrin sonunda təxminən 35 ölkədə məişət zorakılığını qadağan edən qanunlar mövcud idi. Hazırda postsovet ölkələrində məişət zorakılığı ilə bağlı qanun yaradıcılığı tendensiyası mövcuddur. 2001-ci ildə Ukraynada, 2003-cü ildə Qırğızıstan Respublikasında, 2006-cı ildə Gürcüstanda, 2007-ci ildə Moldovada belə qanunlar qəbul edilmişdir.

Bütövlükdə, hüquq müdafiəsinin müxtəlif üsullarından istifadə olunmasına baxmayaraq, məişət zorakılığı haqqında xüsusi qanunlar əlverişli hüquqi alətlər kimi qəbul olunub. Onlar məhkəmə müdafiəsini təmin edir və eyni zamanda belə zorakılığı kriminallaşdırırlar.

## 1.4. Məişət zorakılığı ilə mübarizə sahəsində Azərbaycan Respublikasının təcrübəsi

Azərbaycanda ənənəvi olaraq ailə münasibətləri xüsusi dəyərləndirilir. Hər bir gənc ailə münasibətlərinin yaranmasına məsuliyyətlə yanaşır. Ailə münasibətləri dövlət tərəfindən qorunur. Konstitusiya ailə münasibətlərinin qorunmasını dövlətin vəzifəsi kimi müəyyən edir. Azərbaycan qanunvericiliyində ailə münasibətləri geniş anlamda başa düşülür. Bu münasibətlərə ərlə arvaddan başqa uşaqlar da aid edilir.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi Konvensiyanın 8-ci maddəsinin tətbiqi ilə ailə təsnifatını daha geniş şərh edir. Adətən ər-arvad uşaqları ilə birgə ailə kimi mürəkkəb sosial halı tam əhatə etmir. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin "Marks Belçikaya qarşı 1979-cu il tarixli işində" məhkəmə göstərdi ki, "Konvensiyanın 8-ci maddəsinin mənasına görə ailə həyatı minimum yaxın qohumları, məsələn babalar, nənələr və nəvələr arasında əlaqəni əhatə edir, çünki belə əlaqələr ailə həyatında mühüm rol oynaya bilir".[1] Olsson İsveçə qarşı 1988-ci il tarixli işində isə Avropa Məhkəməsi bəyan etdi ki, doğma qardaş və bacılar, uşaq və valideynlər münasibətindən asılı olmayaraq, özləri arasında münasibətlər çərçivəsində ailə həyatı hüququna malikdirlər.[2]

Konstitusiya könüllük prinsipini nəzərə alaraq (maddə 34 hissə 2) nikaha daxil olmaq hüququnu təmin edir. Həmin maddənin 3-cü hissəsi bəyan edir ki, "nikah və ailə dövlətin himayəsindədir". Öz növbəsində 1999-cu il 28 dekabr tarixində qəbul edilmiş və 2000-ci ilin 1 iyulundan qüvvəyə minmiş Ailə Məcəlləsinin 1-ci bölməsi nikah münasibətlərinin əsaslarını müəyyən edir. Ailə Məcəlləsinin 5-ci maddəsi ailə üzvləri arasındakı münasibətləri mülki-hüquq münasibətləri kimi müəyyən edir. Mülki hüquq normaları altına düşməyən münasibətlər humanizm və ədalətliyə əsaslanmalıdır.

Nikahın bağlanması və ona xitam verilməsi Ailə Məcəlləsinin 2-ci bölməsi ilə müəyyən edilir. Ər və arvad arasındakı bərabərlik prinsipi onların azad əmək fəaliyyətini seçmələrində (maddə 29.3) və mülki münasibətlərində (maddə 32) təsbit olunmuşdu. Bu normalar tam şəkildə İnsan Hüquqları üzrə Avropa Konvensiyanın 7 saylı Protokolunun 5-ci maddəsinin formal tələblərinə uyğundur. Orada deyilir: "Ər və arvad özləri və uşaqları arasında özəl münasibətlərdə bərabər hüquqa malikdirlər və eyni məsuliyyət daşıyırlar".

---

[1] Case of Marckx v Belgium // www.pravnadatoteka.hr/pdf/aktualno/eng/20021104/**MARCKX_v_BELGIUM**.pdf
[2] Case of Olsson v Sweden // www.nkmr.org/**olsson**2_**v_sweden**.htm

Ailə Məcəlləsi həmçinin uşaqların hüquqlarını müəyyən edir. Azərbaycan qanunvericiliyinə əsasən uşaqlar 18 yaşa qədər şəxslər hesab olunurlar. Hər bir uşaqda öz valideynlərini tanımaq, onların qayğısından istifadə etmək və onlarla birgə yaşamaq hüququ vardır (maddə 49.2). Uşaqların Ailə Məcəlləsinin 51-ci maddəsinə əsasən müdafiə hüququ var. Onlar həmçinin valideyn hüququnun sui-istifadəsindən qoruna bilərlər (maddə 51.4). Ailə Məcəlləsi nikahın pozulmasında ər və arvadın və uşaqların müdafiəsini müəyyən edir.

Beləliklə, ailə münasibətlərində iştirak edən subyektlərin hüquqları ümumi qanunvericilikdə təmin olunur. Yəni dövlət hər bir iştirakçının hüquqlarını müəyyən edərək onların qarşılıqlı qorunmasına zəmanət verir. Ancaq hüquqların bəyan edilməsi onların qorunmasına tam zəmanət verə bilməz. Ailə münasibətlərinin təminatı üçün effektiv vasitə kimi qoruyucu normalar olmalıdır. Məsələn, mülki, cinayət qanunvericiliyində. Lakin nəzərə almaq lazımdır ki, ailə münasibətləri öz təbiətinə görə etik və əxlaqi prinsiplərə daha çox söykənir. Ona görə hüququn bu münasibətlərə müdaxiləsi mürəkkəbdir.

Uzun müddət Azərbaycanın təcrübəsində dövlət tərəfindən ailə münasibətlərinə müdaxilə kəskin qəbul edilirdi. Lakin dövlət orqanlarının qeyri-hökumət təşkilatları ilə insan hüquqlarının müdafiəsi üzrə birgə apardıqları kampaniyalar məişət zəminində törədilən zorakılıqların miqyasını aşkar etdi və cəmiyyətə çatdırdı.

XXI əsrin əvvəllərində bu problem Azərbaycanda daha da aktuallaşdı. Ümumiyyətlə 15-49 yaşlı qadınların 13%-də 15 yaşından başlamış fiziki zorakılıq təcrübəsi mövcuddur. Bu qadınların yarısından çoxunda, yəni qadınların 8%-də sorğudan öncə son 12 ay ərzində zorakılıq təcrübəsi olubdur. Respondentlərin 2%-i xəbər vermişdir ki, sorğudan öncə son il ərzində tez-tez zorakı-fiziki hərəkətlərə məruz qalır. Ümumilikdə, həyat yoldaşları spirtli içkilərdən istifadə etməyən qadınlar emosional, fiziki və ya cinsi zorakılığa daha az (9%), spirtli içki

qəbul edən kişilərin arvadları isə zorakılığa daha çox məruz qalır (48%).[1]

Məişət zorakılığının aradan qaldırılması problemi Azərbaycanda dövlət səviyyəsində araşdırılır və onun həlli yolları müzakirə edilir. Azərbaycan Respublikası Avropa Şurasının qadınlara qarşı zorakılıqla mübarizə aparmaq üzrə kampaniyasına qoşulub. 2006-cı il 21 dekabr tarixində Azərbaycan Respublikasının Parlamenti ilə "Qadınlara qarşı zorakılıq, o cümlədən məişət zorakılığı ilə mübarizə haqqında" xüsusi Bəyanat qəbul olunmuşdur.

2003-cü ildən məişətdə baş verən zorakılıq hallarının Azərbaycanda gender münasibətləri səviyyəsində araşdırılmasına başlanıldı. «Simmetriya» təşkilatı tərəfindən Azərbaycanın bir sıra regionlarında həyata keçirilən tədqiqatlardan göründüyü kimi, Azərbaycanda yaşayan qadınların 37%-i zorakılıq faktını, 10%-i özlərinə qarşı ictimai həyatda baş verən zorakılıq faktını, 90%-i isə ailədə baş verən zorakılıq faktiki təsdiqləmişdirlər.

Məişətdə baş verən zorakılıq hallarına nəinki uşaqlıq və yeniyetməlik vaxtında (32%), həm də ailə həyatı qurandan sonra da (58%) rast gəlirik. 1998-ci ildə həyata keçirilmiş bu tədqiqatda 19-65 yaşında olan 1000-ə yaxın qadın iştirak etmişdi. 2001-ci ildə əldə olunmuş məlumatlara əsasən isə Bakı şəhərində yaşayan qadınların 59%-i öz ərləri tərəfindən ev zorakılığına məruz qalmışdırlar. Cinslərin hüquq bərabərliyinə gəldikdə isə qadınların 70%-i, kişilərin isə 48%-i ailədə hüquqların bərabər olduğunu qəbul edirlər. Gənc oğlanların 32%-i ,gənc qızların 48%-i kişi və qadınların eyni hüquqa malik olduğunu təsdiqləmişdirlər.[1]

Son illər insan, vətəndaş hüquq və azadlıqlarına, o cümlədən qadın və uşaq hüquqlarının müdafiəsinə gender bərabərliyinin təmin edilməsinə dair beynəlxalq normaların milli qanunvericiliyə uyğunlaşdırılması prosesi müşahidə olunur.

[1] Azərbaycanda Demoqrafiya və Saglamlıq Sorğusu. 2006. Calverton, Maryland, ABŞ: Dövlət Statistika Komitəsi və Macro International Inc.. Bakı., - C.1

[1] Ailə münasibətlərinin gender problemləri // http://education.gender-az.org/Files/4.4.5az.pdf

Ümumilikdə Azərbaycan qanunvericiliyi Azərbaycanın tərəfdar çıxdığı dövlətlərarası müqavilələrin öz hüquq sistemində üstünlüyünü qəbul edir. Məsələn: Konstitusiyanın 151-ci maddəsi göstərir ki, "Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ-hüquqi aktlar ilə (Konstitusiya və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir". [1]

Beləliklə, beynəlxalq Aktlar Azərbaycanda müvafiq ratifikasiyanı keçdikdən sonra birbaşa tətbiq oluna bilər. Yəni məhkəmə təcrübəsində beynəlxalq aktlara əsaslanaraq qərarlar çıxarıla bilər. Lakin insan hüquqları üzrə beynəlxalq standartlar, o cümlədən məişət zorakılığı ilə bağlı beynəlxalq sənədlər özü-özlüyündə hüquq sistemində təmin oluna bilmirlər. Onların təminatı üçün milli qanunvericilikdə müvafiq normalar qəbul olunmalıdır.

1995-ci il 30 iyun tarixində BMT-nin "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" 1979-cu il 18 dekabr tarixli Konvensiyasına qoşulmaq barəsində Milli Məclisin qərarı qəbul edilmişdir.  Bu qərarla Ədliyyə Nazirliyi və Xarici İşlər Nazirliyinə tapşırıq verilmişdir ki, müvafiq tədbirlər görülsün və qanunvericiliyin təkmilləşdirilməsi üzrə təkliflər verilsin.

1992-ci il 4 avqust tarixində BMT-nin "Qadınların siyasi hüquqları haqqında" Konvensiyaya qoşulması barədə Milli Məclisin qərarı qəbul edilmişdir. Bununla Azərbaycan BMT-nin Nizamnaməsində xalqların əsas insan hüquqlarına, insan şəxsiyyətinin ləyaqətinə və dəyərinə, kişi və qadınların hüquq bərabərliyinə öz inamını təsdiq etdiyini bildirmişdir.

Sonralar 2001-ci il 16 fevral tarixində BMT-nin "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyasının fakültativ protokolun təsdiq edilməsi

---

[1] Azərbaycan Respublikasının Konstitusiyası. // 1995-ci il noyabrın 12-də referendumda qəbul edilmişdir.

barədə qanun qəbul edilmişdir və 2006-cı il 21 dekabr tarixində "Qadınlara qarşı zorakılıq, o cümlədən məişət zorakılığı ilə mübarizəyə dair" Azərbaycan Respublikası Milli Məclisinin bəyanatı təsdiq edilmişdir. Bəyanatda bildirilmişdir ki, Azərbaycan Respublikası Milli Məclisinin deputatları Avropa Şurasının qadınlarına qarşı zorakılıq, o cümlədən məişət zorakılığı ilə mübarizə kampaniyasını dəstəkləyir və səlahiyyətləri olan parlament vasitəsilə onun həyata keçirilməsinə köməklik göstərilməsini öhdəsinə götürürlər.

Ümumilikdə, Azərbaycanın hüquq sisteminə nəzər yetirsək məişət zorakılığına qarşı müxtəlif qoruyucu vasitələri müşahidə etmək olar. Ancaq bu baxımdan cinayət və inzibati qanunvericilik daha aktualdır. Belə ki, Cinayət Məcəlləsində qadınlara qarşı zorakılıqla mübarizə sahəsində 108, 108-1, 109, 116, 136, 149, 150-153, 164, 171 və s. kimi normaları aid etmək olar. Cinayət Məcəlləsi yetkinlik yaşına çatmayan şəxslərə qarşı və ailə münasibətləri daxilində törədilən cinayətləri xüsusi bir qrupda göstərir. Məsələn, Cinayət Məcəlləsinin 22-ci fəsli Yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə olan cinayətləri nəzərdə tutur. Cinayət qanunvericiliyi məsuliyyət nəzərdə tutsa da, bu sahədə qanun pozuntuları narahatlığa səbəb olur.

Məişət zorakılığı bir qədər latent hüquq pozuntularına bənzərdir. Latent cinayətlər gizli olduqlarına görə ictimai-siyasi, sosial münasibətlərə daha çox ziyan vururlar. Ona görə ki, onlar gizli törədilirlər və onları törədən şəxslər məsuliyyətə cəlb olunmadan qalır. Məişət zorakılığını tam şəkildə latent hüquq pozuntusuna da aid etmək çətindir. Ona görə ki, zorakılığı törədən şəxs bəllidir və əksər hallarda zərər çəkmiş tərəf aşkar ziyanı dərk edir və onu törədən şəxsi aydın görür, hətta əksər hallarda bu hüquq pozuntusunu ictimaiyyət də (qohumlar, qonşular, dostlar) müşahidə edirlər. Cəmiyyətdə məişət zorakılığı ilə mübarizə ilk növbədə törədilən bu ziyanın adekvat qiymətləndirilməsindən asılıdır. Ona görə məişət zorakılığı ilə bağlı cinayət halları açılaraq onlara görə cəza tətbiq edilməlidir.

2008-ci il ərzində respublika ərazisində qadınlara qarşı 6352 cinayət hadisəsi törədilmişdir. Onlardan 4370-ni zorakılıqla bağlı cinayətlər təşkil etmişdir. Qısqanclıq və digər məişət zəminində qadınlara qarşı törədilmiş, zorakılıqla müşayiət olunan 1550 cinayət hadisəsi nəticəsində 14 qadın ölmüş, 1550-si müxtəlif dərəcədə xəsarət almışdılar. Qadınlara qarşı cinayət törətdiklərinə görə 5783 şəxs müəyyən edilmiş, onlardan 4358-i məsuliyyətə cəlb olunmuşdur. (bax: Cədvəl №1).

Məişət zorakılığı ilə mübarizənin effektiv formalarından biri inzibati-hüquqi vasitələrdir. 2006-cı il 28 dekabr tarixində Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq olunmuş Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi haqqında Fəaliyyətin Milli Planının 17 bəndində uyğun olan dövlət orqanlarına zorakılıqla, o cümlədə qadınlara qarşı məişət zorakılığı ilə mübarizənin artırılması, belə zorakılığın qurbanlarının hüquqi müdafiə vasitələri, kompensasiya, reabilitasiya, tibbi və psixiki yardım, bu sahədə geniş maarif işinin təşkil olunması ilə təmin edilməsi tapşırılmışdır.

2007-ci il 25 yanvar tarixində Nazirlər Kabinetinin Sərəncamı ilə "Demokratik Cəmiyyətdə gündəlik zorakılıqla mübarizəsi haqqında Respublikanın Kompleks Proqramı" təsdiq olunmuşdur. Bu proqramın çərçivəsində qadınlara qarşı zorakılığın aradan qaldırılması ilə əlaqədar olan, o cümlədə qanunvericiliyin təkmilləşdirilməsi sahəsində, bu cür əməlləri törədən insanlarla işin aparılması, beynəlxalq təşkilatlarla əməkdaşlığın təkmilləşdirilməsi sahəsində, təşkiledici xasiyyəti daşıyan tədbirlər, təhsil sahəsində, əhalinin hüquqi tədrisi, statistik məlumatların qeydiyyatı, monitorinqlər və s. kompleksli tədbirlər nəzərdə tutulubdur. Proqramın 2.1. və 2.2. bəndində müvafiq olan dövlət orqanlarına milli qanunvericiliyin həyata keçirilməsi və onun nəticələrinə görə qanunvericiliyin təkmilləşdirilməsi haqqında təkliflərin işlənib hazırlanması: BMT "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyasının implementasiyası təmin edilməsi, habelə

qadınlara qarşı zorakılığın aradan qaldırılması haqqında digər qanunların hazırlanması tapşırılmışdır.

İnzibati sistem daha çox profilaktik fəaliyyətə üstünlük verir. Əslində əksər ailədaxili yaranan zorakılığın müxtəlif formalarının qarşısı profilaktik tədbirlərlə alınır. Məsələn, Daxili İşlər Nazirliyinin 2003-cü il 16 iyun tarixli 09 nömrəli əmri ilə "polis sahə inspektorlarının işinin təşkilinə dair" təlimatda ailə-məişət münasibətləri zəminində mütəmadi olaraq qanun pozuntusuna yol verdiklərinə görə inzibati cinayət və digər təsir tədbirlərinə məruz qalan şəxslərə məqsədyönlü profilaktik işlərin aparılması nəzərdə tutulur. Profilaktik tədbirlər xəbərdaredici xarakter daşıyırlar və müəyyən qədər məişət zəminində yaranan zorakılığın qarşısını alırlar. Lakin mütəmadi baş verən xırda zorakılıq halları nəticədə cinayətə gətirib çıxarır. Məsələn, 2008-ci il ərzində respublika ərazisində qısqanclıq, mübahisə, ailə münaqişəsi və s. məişət zəminində 6072 cinayət (o cümlədən 83 qəsdən adam öldürmə) hadisəsi törədilmişdir, onlardan da 1579-u – ailə münaqişəsi zəminində baş vermişdir. (bax: Cədvəl №1).

Məişət zorakılığı sahəsində beynəlxalq standartlarda və xüsusi ilə model qanunvericilikdə bu sahə üzrə təlimatçıların hazırlanması və onların hüquqi statusunun təmin edilməsi tövsiyə edilibdir. Azərbaycanın Polis Akademiyasında zorakılıq problemləri üzrə daxili işlər orqanlarının polis sahə inspektorları və yeniyetmələrlə iş üzrə əməkdaşlardan 140 nəfər təlimatçı hazırlanmışdır.

Daxili İşlər Nazirliyinin xüsusi əmri ilə nazirlik sistemində gender siyasətinin həyata keçirilməsi məsələləri üzrə məsul şəxs müəyyən edilmişdir. Bu məqsədlə şəxsi heyətlə iş idarəsinin strukturunda qadın məsələləri üzrə rəis köməkçisi vəzifəsi təsis olunmuşdur.

Əhalinin maarifləndirməsi məişət zorakılığı ilə mübarizə sahəsində profilaktik xarakter daşıyır. Azərbaycan cəmiyyətinə qadına hörmət təməl dəyərlərindən biri olub. Qadınlara qarşı hər bir zorakılıq halı, o cümlədən məişət zorakılığı halları cəmiyyət tərəfindən axır zamanlar çox mənfi qarşılanır. Cəmiyyətin bu

problemə mənfi münasibətinə təsir edən maarifləndirmə prosesləridir.

Cəmiyyət və dövlət məişət zorakılığının nəticə etibarı ilə cəmiyyətə mənfi təsirini anlayaraq ictimaiyyətlə maarifləndirmə işlərini aparmalıdır. Bu sahədə Azərbaycanda nümayəndəlikləri olan beynəlxalq təşkilatların dəstəyi ilə Parlament, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, polis orqanları və digər dövlət orqanları mütəmadi fəaliyyət göstərirlər.

Maarifləndirmə sahəsində xüsusi dövlət funksiyalarını Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri Üzrə Dövlət Komitəsi daşıyır. Komitə ailə, qadın və uşaq problemləri sahəsində Azərbaycan dövlətinin siyasətini həyata keçirən, bu sahədə inkişafı təmin edən müvafiq mərkəzi icra hakimiyyəti orqanıdır. Komitənin əsas vəzifələrindən biri insan və vətəndaş hüquq və azadlıqlarının qorunması, onların pozulmasının qarşısının alınması Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr hüquq sisteminin tərkib hissəsidir.

Məişət zorakılığının qarşısının alınması sahəsinə dair Komitə öz fəaliyyətini digər dövlət orqanları ilə əlaqəli qurur. Komitə monitorinqləri keçirir və nəticədə statistik məlumatları əhaliyə çatdırır. Komitə tərəfindən ailə institutunun möhkəmləndirilməsi, ailə hüquqlarının həyata keçirilməsi və müdafiəsi ilə bağlı qanunla müəyyən edilmiş qaydada dövlət nəzarəti həyata keçirilir, ailələrin sosial rifahının və etibarlı sosial müdafiəsinin təmin edilməsi komitənin 2008-ci il üçün əsas fəaliyyət istiqaməti olmuşdur. Komitə xüsusilə aşağıdakı məsələlərə önəm vermişdir:

- milli mənəvi dəyərlər sisteminin mühüm hissəsi olan ailə dəyərlərinin qorunub saxlanılması;
- əsas qruplardan olan ailələrin problemlərinin həlli;
- ailədaxili zorakılığın qarşısının alınması;
- erkən nikah hallarının sayının azaldılması.

Komitə axırıncı bir neçə il ərzində maarifləndirmə sahəsində məqsədli iş aparır. Onlara aid etmək olar aşağıdakılar:

2006-ci il 25 avqust tarixində Dövlət Komitəsində BMT-nin “Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi

haqqında Konvensiyasının” 25 illiyinə həsr edilmiş konfrans keçirilmişdir. Burada məişət zorakılığının yaranma səbəbləri araşdırılmışdır, bu qanun pozuntuları ilə mübarizə sahəsində dövlətin rolu göstərilmişdir.

2007-ci ildə may ayı ərzində BMT-nin Əhali Fondu və Qərb Universitetinin nəzdində fəaliyyət göstərən Gender Araşdırmaları Mərkəzi ilə birlikdə Respublikanın 4 ali təhsil müəssisəsində “Milli-mənəvi dəyərlərin qorunması və inkişaf etdirilməsi” layihəsi çərçivəsində mühazirələr keçirmişdir. Layihənin əsas məqsədi gender əsaslı zorakılıq və erkən nikahların aradan qaldırılması, qadınları qorumaq məqsədilə insan hüquqları üzrə beynəlxalq sənədlər və milli qanunvericilik haqqında biliklərin yayılması və qadınların ölkənin sosial və siyasi həyatında kişilərlə bərabər iştirakının təmin edilməsidir. Bu layihə çərçivəsində 14 – 29 may tarixlərində ardıcıl olaraq Azərbaycan Dövlət Memarlıq və İnşaat Universitetində, Bakı Dövlət Universitetində, Azərbaycan Dövlət Pedaqoji Universitetində və Azərbaycan Dövlət İdarəçilik Akademiyasında mühazirələr keçirilmişdir. Layihənin ikinci hissəsi 4 – 20 iyun tarixində regionlarda (Masallı, Lənkəran, Yardımlı, Lerik, Yevlax, Gəncə, Şəmkir) keçirilmişdir. Layihənin Yekun Konfransı 4 iyul tarixində “İnsan hüquqları və islamın gender ölçüləri” mövzusunda keçirilmişdir.

2007-ci ildə 22-23 oktyabr tarixində “Kompleks gender yanaşmasının praktik tətbiqi yolları: Gender bərabərliyinin və Gənclərin məşğulluğunun inkişafı üçün lazım olan vəsaitlər üzrə Seminar” təşkil olunmuşdur.

2007-ci ilin noyabr ayı ərzində “Qadınlara qarşı zorakılığa yox deyək” layihəsi çərçivəsində 6-8 noyabr tarixlərində məktəblərdə - 6 noyabr tarixində Bakı şəhərinin Qaradağ rayonu 180 saylı məktəb, 7 noyabr Sabunçu rayonu 169 saylı məktəb, 8 noyabr Səbail rayonu 51 saylı məktəbdə seminarlar təşkil olunmuşdur. BMT-nin “Qadınlara qarşı zorakılığa yox deyək” layihəsinə həsr edilmiş bölgələrdə təbliğat və təşviqat kompaniyası aparılmışdır. 2007-ci il 15 noyabr tarixində Salyan

və Neftçala rayonlarında, 16 noyabr tarixində Cəlilabad rayonunda, 19 noyabr tarixində Daşkəsən rayonunda 20 noyabr tarixində Xanlar rayonunda tədbirlər həyata keçirilmişdir.

Ailədaxili münasibətlərin (xüsusən, zorakılıq hallarının) uşaqlara təsirinin öyrənilməsi məqsədilə orta məktəblərdə (5-7-ci sinif şagirdlər arasında), Komitənin əməkdaşları (psixoloqlar cəlb olunmaqla) tərəfindən tərtib olunmuş anket əsasında 2007-ci ilin dekabr ayında sorğu keçirilmişdir. Ümumilikdə sorğuda 1671 şagird iştirak etmişdir. 2008-ci il 6 mart tarixində beynəlxalq təşkilatların və KİV nümayəndələrinin iştirakı ilə sorğunun nəticələri haqqında təqdimat nümayiş olunmuşdur.

2007-ci il 31 may tarixdə qəbul edilmiş "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq, 4 saylı Cəzaçəkmə Müəssisəsində məhkum qadınların arzularını müəyyən etmək məqsədilə keçirilmiş sorğu əsasında Ədliyyə Nazirliyinin Penitensiar xidməti, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Baş Məşğulluq İdarəsi ilə birgə 2008-ci il 18 noyabr tarixində 4 saylı Cəzaçəkmə Müəssisəsində məhkum qadınlar üçün dil və kompüter kurslarının açılış mərasimi keçirilmişdir.

2008-ci ildə 26 fevral tarixində Komitə, İctimai televiziya və radio yayımları şirkətinin "Özümüzdən başlayaq" verilişində, ekspertlərin iştirakı ilə "Erkən nikahların yaratdığı fəsadlar" mövzusunun müzakirəsini 4 saylı qadın cəzaçəkmə müəssisəsində təşkil etmişdir. Müzakirə nəticəsində erkən nikaha daxil olmuş məhkum qadınların problemləri öyrənilmiş, 260 məhkumdan 29-nun erkən nikaha daxil olduğu məlum olmuşdur.

BMT-nin Əhali Fondu tərəfindən Norveçin Xarici İşlər Nazirliyi və BMT-nin Əhali Fondunun maliyyə dəstəyi ilə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birlikdə 2008-2011-ci illərdə həyata keçirilən Gender Əsaslı Zorakılıqla Mübarizə Layihəsi (GƏZM) qadın hüquqlarının müdafiəsi, gender bərabərliyi və qadınların cəmiyyətdə qərar qəbul etmə prosesində iştirakının təmin

edilməsi üzrə həyata keçirilən siyasətin dəstəklənməsinə yönəlmiş təşəbbüslərdəndir.

Layihə çərçivəsində qadınlara qarşı baş verən zorakılığın yayılma səviyyəsinin müəyyən edilməsi məqsədilə keçirilmiş ölkə miqyaslı sorğu, qaçqın/məcburi köçkün qadınlara qarşı baş verən ailədaxili zorakılığın əsas səbəblərinin araşdırılması, bir sıra şəhər və kəndlərdə icma nümayəndələri, müəllimlər, tələbə və şagirdlər və s. məqsəd qrupları üçün keçirilən təlim və seminarlar, KİV nümayəndələri üçün keçirilmiş təlimlər və s. bu kimi təşəbbüslər reallaşdırılıb.

Hüquqi bərabərliyin təmin edilməsi, qadınlara qarşı zorakılığın qarşısının alınması ictimai nəzarət altında olmalıdır. Cəmiyyətdə məişət zorakılığının vəziyyəti, ondan mühafizə yolları (hüquqi, sosial, iqtisadi) informasiya vasitələri ilə ictimaiyyətə mütəmadi çatdırılmalıdır. Bu əhalinin maarifləndirilməsi, hüquqi düşüncəsinin artması üçün şərait yaradacaqdır.

**Cədvəl № 1**

**2004-2008-ci illər ərzində qeydə alınmış qadınlara qarşı və qadınlar tərəfindən törədilmiş cinayətlərə dair statistik**
MƏLUMAT

| | | | 2004 | 2005 | 2006 | 2007 | 2008 |
|---|---|---|---|---|---|---|---|
| 1.1 | **Qadınlara qarşı törədilmiş cinayətlərin ümümi sayı** | | **4480** | **5006** | **5342** | **5371** | **6352** |
| | O cümlədən yetkinlik yaşına çatmayan qızlara qarşı | | **208** | **261** | **270** | 258 | **307** |
| 1.2 | **Qadınlara qarşı zorakılıqla bağlı cinayətlərin ümümi sayı** | | **3434** | 3791 | **3857** | **3851** | **4370** |
| | O cümlədən yetkinlik yaşına çatmayan qızlara qarşı | | **65** | **101** | 78 | 85 | **103** |
| 1.3 | Qısqanclıq və digər məişət zəminində qadınlara qarşı törədilmiş cinayətlərin sayı | | **1030** | 987 | **993** | **837** | **1553** |
| | Onlardan zorakılıqla bağlı cinayətlər | Cəmi | **1023** | 982 | **989** | **837** | **1551** |
| | | Ölən qadınların sayı | 15 | 19 | 34 | 15 | 14 |
| | | O cümlədən azyaşlı | 2 | | 5 | 2 | 1 |
| | | Xəsarət alan qadınların sayı | **1126** | 1031 | **1053** | **901** | **1657** |
| | | O cümlədən azyaşlı | **3** | **12** | 14 | 16 | **24** |
| 1.4 | Qadınlara qarşı cinayət törətməsi müəyyən edilmiş şəxslərin sayı | | **4457** | 5071 | **5696** | **5426** | **5783** |
| | **Onlardan məsuliyyətə cəlb olunmuş şəxslərin sayı** | | **3365** | **3746** | **4240** | 4069 | **4358** |
| 1.5 | Narkotik və psixotrop maddələrin qaçaqmalçılığı cinayəti üzrə məsuliyyətə cəlb olunmuş qadınların sayı | | 2 | 5 | 5 | 5 | 9 |
| 1.6 | Narkoman qadınların ümumi sayı | | **272** | 300 | **363** | **352** | **395** |
| **2. Cəmi qadınlara qarşı törədilmiş cinayətlərin sayı təsnifat üzrə (1.1 sətrindən)** | | | | | | | |
| ON | 2.1 | Qəsdən adam öldürmə | 56 | 65 | 69 | 54 | 66 |
| | 2.2 | Zorlama | 25 | 44 | 35 | 34 | 25 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| NLARDAN | 2.3 | Qadının cinsi toxunulmazlığı əleyhinə törədilmiş digər cinayətlər | | **122** | **147** | **148** | **141** | **170** |
| | 2.4 | Döymə | | **2174** | **2400** | **2477** | **2496** | **2887** |
| | 2.5 | İşgəncə vermə | | 45 | 31 | 24 | 16 | 21 |
| | 2.6 | Sağlamlığa qəsdən zərər vurma cinayətləri | | **657** | 641 | **619** | **615** | **690** |
| | 2.7 | İnsan alveri ilə bağlı cinayətlər | | 14 | 28 | 88 | 129 | **209** |
| | | O cümlədən | insan alveri (maddə 144-1) | | 1 | 25 | 73 | 74 |
| | | | Azyaşlılara qarşı | 6 | 6 | 11 | 10 | 16 |
| | 2.8 | Adam oğurluğu | | 16 | 27 | 16 | 18 | 18 |
| | | o cümlədən evlənmək məqsədilə | | 14 | 24 | 12 | 17 | 17 |
| | 2.9 | Xuliqanlıq | | **274** | 309 | **335** | **292** | **256** |
| | 2.10 | Qadınların hüquqlarının məhdudlaşdırılması (maddə 164) | | | | | | |
| | 2.11 | Özünü öldürmə həddinə çatdırma (maddə 125) | | 14 | 19 | 45 | 42 | 38 |
| | | Onlardan ölüm qeydə alınmış faktların sayı | | 13 | 13 | 29 | 28 | 30 |
| | | ölüm qeydə alınmış faktlar üzrə ölən qadınların sayı | | 13 | 13 | 29 | 28 | 30 |
| | | o cümlədən azyaşlı qızlar | | 1 | 4 | | 3 | 1 |
| **3. Hansı səbəblərdən törədilib (3-cü sətirdən)** | | | | | | | | |
| On-lar-dan | 3.1 | Qəsdən | | **2035** | **2165** | **2189** | **2120** | **2180** |
| | 3.2 | Ehtiyatsızlıq üzündən törədilmiş cinayətlər | | 15 | 21 | 15 | 21 | 17 |
| | 3.3 | Sərxoş vəziyyətdə (sərxoşluq zəminində) | | 6 | 6 | 10 | 17 | 17 |

# II BÖLMƏ. “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikası Qanununun kommentariyası

## PREAMBULA

**Bu Qanun yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşayışdan sui-istifadə etməklə törədilən zorakılığın, onun doğurduğu mənfi hüquqi, tibbi və sosial nəticələrin qarşısının alınması, məişət zorakılığından zərər çəkmiş şəxslərin sosial müdafiəsi, hüquqi yardımla təmin edilməsi, habelə məişət zorakılığına səbəb olan halların aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirləri müəyyən edir və tənzimləyir.**

Bu Qanunun preambulasında göstərilib ki, məişət zorakılığı zəminində baş verən zorakılığın qarşısının alınması mexanizmlərinin yaradılması və tənzimlənməsi bu normativ-hüquqi aktın vəzifəsidir. Bu Qanunun yükü ailə münasibətlərinin qorunmasından daha çox zorakılıqdan zərər çəkən insanların sosial mühafizəsinə yönəlibdir. Ailə münasibətlərinin qorunması, ailə üzvlərinin hüquq və vəzifələrinin təminatı geniş mənada digər qanunvericilik aktlarının vəzifəsidir. Məsələn, Azərbaycan Respublikası Ailə Məcəlləsinin preambulasında göstərilir ki, “Məcəllə Azərbaycan Respublikası Konstitusiyasında nəzərdə tutulan əsas insan və vətəndaş hüquqlarına və azadlıqlarına uyğun olaraq ailə münasibətlərinin yaranmasının və möhkəmlənməsinin, onlara xitam verilməsinin prinsiplərini, ailə münasibətlərinin iştirakçılarının hüquq və vəzifələrini, dövlət orqanlarının bu sahədə vəzifələrini, habelə vətəndaşlıq vəziyyəti aktlarının qeydə alınması qaydalarını tənzimləyən normaları müəyyən edir”.[1] Ailə Məcəlləsi ümumilikdə ailə münasibətlərini tənzimləyən, hüquq və vəzifələri yaradan normativ aktdır.

[1] Azərbaycan Respublikasının Ailə Məcəlləsi. – Bakı., 2004. – S.3

Bu Qanun isə zorakılıq qurbanlarının cinayət və inzibati qaydada qorunmaq zəmanətinin yaradılması ilə bərabər onların sosial mühafizə mexanizmlərinə yönəlibdir. Bu Qanun qabaqlayıcı vasitələrin və reabilitasiya təsisatlarının formalaşmasına, habelə məişət zorakılığı ilə kompleksli mübarizə məqsədi ilə vahid hüquqi mexanizm yaradır.

Bununla yanaşı bu Qanun cinayət, inzibati və mülki qanunvericilikdə yeni mühafizə və məsuliyyət normalarının yaranmasına əsas kimi çıxış edir. Bu Qanunun tətbiqi ilə Cinayət Məcəlləsində məişət zorakılığının qarşısının alınması məqsədi ilə yeni cinayət növləri, İnzibati Xətalar Məcəlləsində isə inzibati xətalar və qabaqlayıcı prosedurlar formalaşmalıdır. Məişət münasibətlərində yaranan və bir müddət davam edən hər hansı ailə üzvünün digərinə qarşı zorakılıq hərəkətləri məsuliyyətə cəlb edilməsinə əsas olmalıdır. Onlar qanunvericilikdə neqativ xarakterli və ictimai təhlükəli əməl tək qiymətləndirilməlidir. Məsələn, ümumi hüquq *(common law)* sistemində *"assault"termini* mövcuddur. *"Assault"* anlayışının tam şəkildə tərcüməsi olmasa da, bu anlayış şəxsin digər şəxsə qarşı zorakılıq cinayətinin bir forması kimi başa düşülür. Avstraliya və Yeni Zelandiyanın qanunvericiliyində *"assault"* bir şəxsin digər şəxsə qarşı qorxu yaradan hərəkətləri nəticəsində zərər çəkmişə təhlükənin yaranması və ciddi narahatçılıq, qorxu keçirməsini nəzərdə tutur. ABŞ-ın presedent hüququnda isə *"assault"* bir şəxsin digər şəxsə qarşı faktiki yaratdığı təhlükə hədələri kimi başa düşülür.[1] Beləliklə, bu Qanunun tətbiqinin effektivliyi məqsədi ilə cinayət, xüsusi ilə də inzibati qanunvericilikdə yeni cinayət və ya xəta növləri yaradılmalıdır. Məsələn, məişət zəminində ərin arvadını mütəmadi hədələməsi, ailə üzvünün psixi vəziyyətinə təsir göstərən faktiki təhlükənin olması ən azı xəta kimi qiymətləndirilməli və zərər çəkən ailə üzvünə mühafizə orderi verilməlidir.

---

[1] Arkansas Code, Title 5, Chapter 13, Subchapter 2 § 205-207; California Penal Code, Part 1, Chapter 9, § 240.// www.en.wikipedia.org/wiki/Assault

Bu Qanunda məqsədləri müəyyən edən xüsusi maddənin olmadığından bu normativ aktın məqsədləri preambulada bəyan edilir. Preambula qanunun vəzifə və məqsədlərini müəyyən edir. Qanunvericilik praktikasında norma-bəyanat xarakterli maddələri normativ aktlarda rast gəlmək olur. Bu cür normalar hüquq və vəzifə yaratmırlar. Ona görə normativ aktın məqsədinin preambulada göstərilməsi hüquqi texnika baxımından daha məqsədəmüvafiqdir.

Bu Qanunun preambulası BMT-nin "Məişət zorakılığı haqqında model qanunvericilik" [1] tövsiyələrinə müvafiq subyektləri əhatə edir və məqsədləri bəyan edir. Tövsiyələrin tələbi milli qanunvericiliyin insan hüquqları üzrə beynəlxalq standartlara uyğunlaşdırılması və məişət zorakılığının cəmiyyət üçün təhlükəli sayılan cinayət kimi tanınmasıdır. Belə ki, model qanun məişət zorakılığını cinsi zəmində yaranan qanunazidd əməl tək tanınmasını tövsiyə edir. Bir tərəfdən bu tövsiyə tərəqqi xarakter daşıyır, digər tərəfdən isə məişət zorakılığını tək cinsi zəmində yaranan qanunazidd əməl kimi tanınması, ümumiyyətlə məişət zorakılığı anlayışını dar çərçivədə şərhinə xidmət edir. Təhlil edilən bu Qanun isə məişət zorakılığının model qanunvericiliyə müvafiq subyektlər dairəsini nəzərdə tutur, lakin hüquq pozuntusunun yalnız cinsi zəmində yaranması ilə məhdudlaşmır. Əsas amil kimi bu Qanunda subyektlərin (kişi, qadın, uşaq, yaşlı və s.) yaxın qohumluq əlaqələri, birgə və ya əvvəllər birgə yaşaması götürülür.

Bu Qanunda BMT-nin tövsiyələrinə əsaslanaraq, məişət zorakılığı ilə mübarizə sahəsində ayrı-seçkiliyin olmaması bəyan edilir. Bu normativ-hüquq aktda ayrı-seçkiliyə məhdudiyyət qoyularaq məişət zəminində tərəflərin bərabərliyini nəzərdə tutur. Cinsi, yaşı və ya sosial statusundan asılı olmayaraq məişət münasibətlərində hər bir subyekt bu Qanun tərəfindən mühafizə edilir.

---

[1] Модельное законодательство о насилии в семье / Рекомендации ООН.// www.aile.az/index.php/ru/obshestvo-socialnaya-jizn/genderniye-problemi/

Preambulada məişət zorakılığının qurbanları olan şəxslərin mühafizəsi ilə əlaqədar əsas fəaliyyət istiqamətləri göstərilir. Onlara aid edilir:

- sosial müdafiə;
- hüquqi yardımla təmin edilmə;
- məişət zorakılığına səbəb olan halların aradan qaldırılması istiqamətində tədbirlər.

Beləliklə, bu Qanunda məişət zorakılığından əziyyət çəkən şəxslərin qorunması üçün yaradılan vasitələr ilə bərabər geniş profilaktik tədbirlərin keçirilməsinin vacibliyi vurğulanır. Bu kompleksli yanaşma normativ-hüquqi aktı praktiki cəhətdən əhatəli və tətbiqi üçün faydalı edir.

# I FƏSİL. ÜMUMİ MÜDDƏALAR

## Maddə 1. Əsas anlayışlar

**1.0. Bu Qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:**

**1.0.1. məişət zorakılığı – yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşamaqlarından sui-istifadə etməklə, bu Qanunun şamil edildiyi şəxslərin birinin digərinə qəsdən fiziki və ya mənəvi zərər vurması;**

**1.0.2. məişət zorakılığından zərər çəkmiş şəxs (bundan sonra - zərər çəkmiş şəxs) - bir yerdə yaşadığı ailə üzvünün, yaxın qohumunun, qanuni nikahda olmadığı və ya əvvəllər birgə yaşadığı şəxsin ona qarşı qəsdən törətdiyi bu Qanunun 1.0.3-1.0.6-cı maddələrində nəzərdə tutulmuş hərəkətlər nəticəsində fiziki və ya mənəvi zərər çəkmiş şəxs;**

**1.0.3. məişət zəminində fiziki zorakılıq - bu Qanunun şamil edildiyi şəxslərin birinin digərinə qəsdən fiziki təzyiq göstərməsi, yəni zor tətbiq etməklə təhlükəsizliyini pozması, döyməsi, sağlamlığına zərər vurması, işgəncə verməsi, azadlıq hüququnu məhdudlaşdırması;**

**1.0.4. məişət zəminində psixi zorakılıq - bu Qanunun şamil edildiyi şəxslərin birinin digərinə qəsdən psixi təzyiq göstərməsi və ya dözülməz psixi şərait yaradılmasına yönəlmiş hərəkətləri;**

**1.0.5. məişət zəminində iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqi - bu Qanunun şamil edildiyi şəxslərin birinin digərini onun mülkiyyətində, sərəncamında və ya istifadəsində olan əmlakdan, gəlirlərdən məhrum etməsinə, iqtisadi asılılıq yaratmasına, belə asılılığın saxlanmasına və ya ondan sui-istifadə etməsinə yönəlmiş hərəkətləri;**

**1.0.6. məişət zəminində cinsi zorakılıq - bu Qanunun şamil edildiyi şəxslərin birinin digərini onun iradəsi əleyhinə seksual xarakterli hərəkətlərə məcbur etməsi;**

**1.0.7. məişət zorakılığın qarşısının alınması - məişət zorakılığı təhlükəsinin aradan qaldırılması məqsədi ilə həyata keçirilən hüquqi, sosial və qabaqlayıcı tədbirlər;**

**1.0.8. yardım mərkəzləri - zərər çəkmiş şəxslərə hüquqi, tibbi, psixi, sosial və digər yardımın göstərilməsi məqsədi ilə yaradılan dövlət və qeyri-dövlət qurumları;**

**1.0.9. mühafizə orderi – məişət zorakılığı törətmiş şəxsin zərər çəkmiş şəxsə qarşı edə biləcəyi hərəkətlərə tətbiq olunan məhdudiyyətlər haqqında akt.**

Bu Qanunun **1-ci maddəsində** Azərbaycan qanunvericiliyi üçün yeni olan və bu normativ aktda istifadə olunan anlayışların izahı verilir. Bu norma-definisiyalar anlaşların mahiyyətini açıqlayan və qısa izahedici xarakter daşıyırlar. Lakin, onların vacib praktiki əhəmiyyəti mövcuddur. Hüquq nəzəriyyəsində definisiyaları vacib funksiya daşıyan xüsusi xarakterli normalar adlandırırlar. Bu Qanunda göstərilən subyektlərin hüquq və vəzifələrinin tətbiqində norma-definisiyalar izahla bərabər istiqamətverici, subyektlərin dairəsini müəyyən edici və digər funksiyalar daşıyır. Məsələn, məişət zorakılığının anlayışında subyektlərin dairəsinin, zorakılığın növlərinin açıqlanmasında onların xüsusiyyətlərinin göstərilməsi terminlərin mahiyyətini görməyə xidmət edir.

**1.0.1.-ci maddədə** məişət zorakılığı anlayışının vacib elementləri qeyd edilib. Bu maddədə məişət zorakılığı anlayışı qnosioloji yanaşmadan fərqli olaraq bir qədər dar çərçivədə nəzərdə tutulsa da, tətbiqi baxımından uğurlu ifadə olunub. Belə ki, məişət zorakılığı anlayışı zorakılığın bir növü kimi göstərilərək məişət zəminində yaranan zorakılıq subyektlərinin məhdud dairəsini göstərib. Bu Qanunda qeyd edilən məişət zorakılığı anlayışı təhlil edilən normativ aktın təsiri altına düşən subyektlərin dairəsini müəyyən edir. Ən əsası isə məişət

zorakılığı termini 1.0.1.-ci maddədə göstərilən subyektlərin birgə yaşamaqlarını göstərərək məişət münasibətlərində bir-biri ilə emosional, iqtisadi, fizioloji (uşaqlar, əlillər və s.) bağlılığını nəzərdə tutur.

Məişət zorakılığının xüsusiyyəti ondan ibarətdir ki, yaranmış sosial əlaqələr nəticəsində bir subyekt digərindən məişət zəminində asılı vəziyyətdə olur və üstünlüyü olan subyekt bu asılılıqdan sui-istifadə edir. Asılılıq əlaməti bu Qanunun tətbiqində, qanun pozuntularının tövsüfündə vacib əhəmiyyət kəsb edir. Məsələn, ər-arvad münasibətində arvadın təhsili yoxdursa, işləmirsə və övladları var, o, ərin təsiri altına düşür və ondan asılı vəziyyətdə olur. Ondan sui-istifadə edən ər arvadına qarşı psixi zorakılıq törədirsə bu zorakılığın araşdırılmasında arvadın ərindən asılılıq əlaməti tövsüfdə əsas göstərici kimi nəzərdə tutulmalıdır.

Lakin xüsusi hallarda asılılığın müəyyən edilməsinə ehtiyac yaranmır. İngilis-sakson hüquq sistemlərində mövcud olan "statutory presumption of dependency" konsepsiyası nəzərdə tutur ki, müəyyən hallar üçün (yaş, fiziki vəziyyəti) asılılıq vəziyyətini sübut etmək lazım deyil. Məsələn, ABŞ 5-ci Federal dairəsi üzrə Apellyasiya məhkəməsinin azyaşlının ananın Səhiyyə, Təhsil və Sosial təminat Nazirliyinə qarşı işində göstərilir ki, Sosial Təhlükəsizlik Aktına görə hər bir uşaq yaşına görə valideynindən asılıdır və bunun sübut edilməsinə ehtiyac yoxdur.[1]

Məişət zorakılığı anlayışının vacib elementləri birgə yaşayan subyektlərin yaxın qohumluq əlaqəsi və ya birgə yaşadıqları dövrdə yaranan asılılıq münasibətləridir. Azərbaycan qanunvericiliyində qohumluq əlaqələrində olan insanların dairəsi göstərilir. Məsələn, Azərbaycan Respublikasının Cinayət-

---

[1] The Social Security Act. Mae Ella Johnson Cotlong, in her capacity as Natural Tutrix of her minor child, Samantha E. Johnson, Plaintiff-Appellant v. Patricia Roberts Harris, Secretary of Health and Human Services, Defendant-Appelle.No.9-3799.United States Court of Appeals, Fifth Circuit. //
www.bulk.research.org/courts.gov/c/F2/634/634.F2d.890.79-3799.html

Prosessual Məcəlləsinin (bundan sonra - CPM) 7.0.32-ci maddəsinə əsasən "yaxın qohumlar – babalar, nənələr, valideynlər, övladlığa götürənlər, doğma və ögey qardaşlar və bacılar, ər-arvad, uşaqlar övladlığa götürülənlər, nəvələrdir". Bununla belə, CPM-in 7.0.33-cü maddəsində qohumlar definisiyasını açıqlayır: "qohumlar – babaya və nənəyə qədər əcdadları ümumi olan şəxslər, ər-arvadın yaxın qohumları, babanın, nənənin, valideynin, övladlığa götürənin, doğma ögey qardaş və bacıların, uşağın, övladlığa götürülənin və yas nəvənin (əri, arvadı) və ya onların yaxın qohumları". Təhlil edilən bu Qanunda istifadə olunan "yaxın qohumluq" termini Azərbaycan qanunvericiliyinə uyğun başa düşülür.

Bu Qanunda məişət münasibətləri ənənəvi ailə münasibətləri subyektlərinin dairəsindən bir qədər geniş göstərilir. Normativ-hüquqi aktın subyektlərinə, obyektiv olaraq, əvvəllər birgə yaşayan ər arvad və ya partnyor münasibətlərində olan şəxslər də aid edilir. Birgə yaşayan şəxslərin əlaqələri hər hansı səbəbdən pozulduğu halda onların bir-birindən müəyyən asılılıqları qalır. Məsələn, ümumi övladları, ipotekada olan evləri və s. Bütün bu asılılıq əlaqələri, əvvəllər ailə münasibətlərində olan şəxslər üçün müəyyən məhdudiyyətlər yaradır. Tərəflər isə bundan sui-istifadə edərək üstünlük əldə etmək məqsədilə zorakılıq hərəkətlərini törədə bilərlər.

Məişət münasibətləri subyektləri olan digər kateqoriyalı şəxslər birgə yaşayan və məişət münasibətlərində bir-birindən müəyyən qədər psixi asılı olan insanlardır (kişi, qadın, uşaq, valideyn, nənə və nəvələr). Qanun baxımından heç də vacib deyil ki, bu şəxslər birgə yaşadıqları halda eyni ünvanda rəsmi qeydiyyatda olsunlar, eyni vətəndaşlıqları olsun və ya ər-arvad olsunlar. Bu Qanun məişət zorakılığı anlayışını açıqlayaraq ən əsası subyektlərin bir-birindən asılılıq əlaqəsini nəzərdə tutur.

Məişət zorakılığı anlayışının əsas əlamətlərindən biri onun qəsdən törədilməsidir. Qəsd məişət zorakılığı zəmində törədilən qanun pozuntusunun subyektiv tərəfinin əsas əlamətidir. Məişət zorakılığı obyektiv cəhətdən hərəkət və ya hərəkətsizlik

nəticəsində yaransa da, bu qanun pozuntusunun subyektiv cəhəti mütləq qaydada qəsdə ifadə olunur. Bu qanun pozuntusunun tövsifində ilk növbədə məişət zorakılığı nəticəsində zərər çəkmiş şəxsə dəyən zərəri mövcudluğu aşkar edilməlidir. Dəymiş zərərlə törədilən qanunsuz əməl arasında səbəbli əlaqə mövcud olmalıdır. Məişət zorakılığı hüquq pozuntusunun obyektiv və subyektiv cəhətinin təhlili zamanı bu Qanunun dairəsi altına düşən subyektlərin asılılıq əlamətinin aşkar olması xüsusilə vacibdir.

**1.0.2.-ci maddə** məişət zorakılığından zərər çəkmiş şəxsin anlayışını vermək, məişət zorakılığı hərəkətləri nəticəsində şəxsə fiziki və ya mənəvi zərərin vurulması məsələsini nəzərdə tutur. Bu maddədə Qanunun 1.0.3.-1.0.6.-cı maddələrinə istinad edilərək zərər çəkmiş şəxsə qarşı edilən zorakılığın formaları qeyd edilir. Belə ki, 1.0.3.-1.0.6.-cı maddələrdə zorakılığın formaları kimi fiziki, cinsi, psixi və iqtisadi təzyiqlər göstərilir.

Hüquq ədəbiyyatında məişət zorakılığının 3 forması fərqləndirilir: fiziki, cinsi və psixi. Fiziki zorakılıq bir fərdin digər fərdə yönəltdiyi enerji nəticəsində yaranır. Fiziki zorakılığın daha ağır nəticələri müşahidə olunur. Fiziki zorakılıq bir insanın digərinin iradəsinə qarşı müəyyən enerji vasitəsilə təsir göstərmək yolu ilə onun orqanlarına, toxumalarına və ya ümumilikdə fizioloji funksiyalarına fiziki zərərin gətirilməsi və bunun nəticəsində yaranan qanuna zidd əməldir. Fiziki zorakılıq döymə, sağlamlığa zərər vurma, işgəncə vermə, azadlıq hüququnun məhdudlaşdırması və s. kimi əməllərdə ifadə oluna bilər.

Psixi zorakılıq bir şəxsin digər şəxsi psixi təsir altında saxlaması nəticəsində yaranır. Psixi zorakılıq şəxsə qarşı qanuna zidd onun psixikasına yönələn müqavimətini qırmaq məqsədi ilə, iradəsinin digər şəxsin istəyinə tabe edilməsi məqsədilə müəyyən bir qüvvədən istifadə olunması hədəsi ilə qorxutmaqdır. Bu psixi təzyiq göstərilməsi və ya dözülməz psixi şərait yaradılmasına yönəlmiş hərəkətlərdir.

Məişət zorakılığı problemi ilə bağlı ədəbiyyatda iqtisadi məhdudiyyətlərin zorakılıq kimi qiymətləndirilməsi yeni

konseptual baxışdır. Müzakirə edilən bu Qanunda iqtisadi xarakterli məhdudiyyətlərə daha zorakılığın bir forması kimi baxılır. İqtisadi məhdudiyyətlər əksər halda zorakılığa şərait yaradan hal kimi nəzərdən keçirilir. Lakin iqtisadi məhdudiyyət müəyyən təzyiqlərlə və ya digər hərəkətlərlə əlaqəlidir. Məsələn, əmlakdan, gəlirlərdən məhrum etmə, iqtisadi asılılıq yaratma, belə asılılığı saxlama və ya ondan sui-istifadə etməyə yönəlmiş hərəkətləri göstərmək olar. Bu baxımdan Qanunda zərər çəkmiş şəxsə yönələn zorakılıq forması kimi iqtisadi məhdudiyyət də nəzərdə tutulub.

Cinsi zorakılıq müxtəlif bioloji, sosial, iqtisadi və digər aspektlərdən asılı olan cinsi münasibətlərin formalaşmasından asılıdır. Beləliklə, məişət zəminində cinsi zorakılıq ailənin bir üzvünün digərinin cinsi toxunulmazlığına təsir etməsi və ya yetkinlik yaşına çatmayan ailə üzvünə qarşı seksual xarakterli hərəkətlərin törədilməsi deməkdir.

"Məişət zorakılığından zərər çəkmiş şəxs" anlayışı cinayət-prosessual qanunvericiliyində göstərilən "zərər çəkmiş şəxs" anlayışından subyektlərin dairəsinə görə bir qədər məhdud başa düşülür. CPM-in 87.1-ci maddəsinə müvafiq olaraq "cinayət qanunu ilə nəzərdə tutulmuş əməl nəticəsində fiziki şəxsə birbaşa mənəvi, fiziki və ya maddi ziyan vurulmasına kifayət qədər əsaslar olduqda o, zərər çəkmiş şəxs qismində tanınır".[1] CPM-in bu maddəsində subyektlərin dairəsi məhdudlaşdırılmır. Belə ki, hər hansı bir şəxs cinayət nəticəsində zərər çəkdisə CPM-ə müvafiq zərər çəkmiş şəxs sayılır. Məişət zorakılığı nəticəsində zərər çəkmiş şəxslər isə yaxın qohumlardan, bir yerdə yaşayan ailə üzvlərindən, qeyri-rəsmi nikahda yaşayan şəxslərdən, əvvəllər birgə yaşadıqları şəxslərin zorakılığı nəticəsində zərər çəkən şəxslərdir.

Bu Qanunun **1.0.3. – 1.0.6. maddələrində** məişət zorakılığının fərqli formalarının anlayışı verilir. Məişət zorakılığı formalarının izahını bu Qanunun 1.0.2.-ci maddəsinin

[1] Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. Bakı., 2000. – S.73.

komentariyasında və kitabın I bölməsinin 1-ci paraqrafında nəzərdən keçirmək olar.

Zorakılıq formalarının anlayışı verildikdə, ilk növbədə Qanunun təsiri altına düşən subyektlərin dairəsi göstərilir və zorakılıq formalarının xüsusiyyətləri açıqlanır. Məsələn, fiziki zorakılıqla bağlı anlayışda zorakılığın nəticəsi kimi şəxsə fiziki təzyiq göstərilməsi, döyülməsi, işgəncə verilməsi, azadlıq hüququnun məhdudlaşdırılması və s. kimi hallar göstərilir. Qeyd edilən bu hərəkətlər qanunvericiliklə cinayət və ya xəta sayılır. Lakin, bu Qanun məişət zəminində yaranan neqativ hallara qarşı, məsələn, fiziki zorakılıq cəhdlərinə qarşı qabaqlayıcı, tərbiyəedici tədbirlərin keçirirməsini nəzərdə tutulur.

Məişət zorakılığının nisbətən latent və zərəri çətin müşahidə edilən forması kimi psixi zorakılığı qeyd etmək olar. Psixi zorakılığı sübut etmə prosesi hüquq pozuntusunun obyektiv cəhətinin aşkar edilmə xüsusiyyətinə görə mürəkkəbdir. Ona görə ki, sübutların toplanması ilk növbədə şahid bazasından və ya xüsusi hallarda tibbi müayinənin rəyindən asılıdır. **1.0.4.-cü maddədə** psixi zorakılıq nəticəsində təcrübədə daha çox rast gəlinən hallar sadalanıb.

İqtisadi xarakterli məhdudiyyətlərin hərəkət və ya hərəkətsizlik halları müxtəlif olsa da bu Qanunun **1.0.5.-ci maddəsində** onun daha zərərli formaları qeyd edilir. Onlar ümumi model standartlarına və Gürcüstanın müvafiq Qanununun 4-cü (d) maddəsinə, habelə Moldovanın oxşar qanun layihəsinin 2-ci (4) maddəsinə uyğundur.

Cinsi zorakılıq ümumilikdə fiziki və psixi zorakılığı cəmləşdirən, lakin birbaşa cinsi zəmində törədilən qanun pozuntusudur. Bu qanun pozuntusunun əsas xüsusiyyəti cinayətin qurbanınınköməksiz vəziyyətindən istifadə edərək onun iradəsi əleyhinə cinsi zorakılığı həyata keçirməkdir. Buna əsaslanaraq, **1.0.6.-cı maddədə** zərər çəkən şəxsin “onun iradəsi əleyhinə seksual xarakterli hərəkətlərə məcbur etmə” halı xüsusilə vurğulanır.

Bu Qanunun **1.0.7.-ci maddəsi** məişət zorakılığının qarşısının alınması kimi hüquq, sosial və qabaqlayıcı xarakterli tədbirləri göstərir. İlk baxışdan bu təsnifat qeyri-korrellətiv (uyğunlaşmayan) görünsə də, onun müəyyən məntiqi bağlılığı var. Məsələn, məişət zorakılığına qarşı mübarizədə ilk növbədə vahid prinsiplərə əsaslanan hüquqi baza mövcud olmalıdır (qanunlar, əsasnamələr, təlimatlar və s.). Sonra bu Qanunun tələbinə görə sosial vasitələr yaradılmalıdır (yardım mərkəzləri, sosial işçilər və s.). Bu iki fəaliyyət prosesi bir-biri ilə məntiqli əlaqəlidir.

Bu Qanuna müvafiq hüquqi tədbirlər geniş mənada cinayət-prosessual və inzibati-hüquqi prosedurları nəzərdə tutur. Məsələn, hüquqi tədbirlər dövlət orqanları ilə şikayətlərin müzakirəsini, qanun pozuntusunu törətmiş şəxsləri cinayət və inzibati məsuliyyətə cəlb olunmasını, zorakılıq qurbanlarının hüquqi yardımla təmin edilməsini və sair tədbirləri əhatə edir.

Sosial tədbirlər məişət zorakılığı nəticəsində zərər çəkən şəxslərin sosial müdafiəsinin təmin olunmasına, dövlət hesabına onlara hüquqi və tibbi yardımın göstərilməsinə, uyğun olan sənədlərin alınmasında köməkliyin göstərilməsinə, sosial vəsaitlərinin təqdim olunmasına, təhsilin davam etdirilməsinə və s. əsaslanır. Məsələn, bu Qanunda məişət zorakılığı qurbanları üçün yardım mərkəzlərinin yaradılması nəzərdə tutulur. Dövlət yardım mərkəzləri ilə göstərilən xidmətlər pulsuz olduğuna görə onlar sosial təminat xarakterini daşıyırlar. Yardım mərkəzləri yerli özünüidarəetmə orqanları və qeyri-hökuməti təşkilatları tərəfindən də yaradıla bilər. Lakin əsas şərtlərdə biri odur ki, yardım mərkəzləri vacib sosial yük daşıdıqlarına görə xidmətləri ödənişsiz olmalıdır.

Qabaqlayıcı xarakterli tədbirlərin hüquqi və sosial təyinatı ilə bərabər xüsusi məqsədli xarakteri də mövcuddur. Qabaqlayıcı tədbirlər ilk növbədə məişət zorakılığı nəticəsində ağır fəsadların baş verməsinin qarşısının alınmasına yönəlibdir. Onlar məişət zorakılığı ilə mübarizənin profilaktikasında vacib funksional əhəmiyyət kəsb edirlər.

**1.0.8.-ci maddədə** Azərbaycanın hüquq sistemi üçün yeni olan sosial təminat xarakterli "yardım mərkəzləri" termininin izahı verilir. Bu definisiyada yardım mərkəzlərinin funksiyaları açıqlanır və onları yaradan subyektlərin dairəsi kimi dövlət və habelə qeyri-hökumət qurumlar göstərilir. Bu qayda beynəlxalq təcrübəyə əsaslanır. Məsələn, Kanada, ABŞ Türkiyənin təcrübəsində yardım mərkəzlərinin təsisçilərinin dairəsi geniş göstərilib. Hətta ailə daxilində zərər çəkmiş şəxslər sosial yardım və sığınacaq əldə edə bilərlər.

Yardım mərkəzləri ilk növbədə reabilitasiya xarakteri daşıyırlar. Bu yardım mərkəzləri zərər çəkmiş şəxslərə hüquqi, tibbi, psixi, sosial və digər yardım göstərərək məişət zorakılığından zərər çəkmiş şəxslərin müəyyən bir müddət ərzində mühafizəsini təmin edirlər. Ona görə əksər ölkələrin qanunvericiliyində yardım mərkəzləri – təhlükəsiz ev, reabilitasiya mərkəzləri, sığınacaqlar və s. kimi adlandırılırlar. Məsələn, "Ailədə zorakılığın qarşısının alınması, zorakılıq qurbanlarının müdafiəsi və onlara yardım göstərilməsi haqqında" Gürcüstan Qanununun 4-cü maddəsinin (k) bəndində yardım mərkəzi reabilitasiya mərkəzi adlanır.

**1.0.9.-cu maddədə** Azərbaycanın hüquq sistemi üçün yeni olan mühafizə orderinin termini açıqlanır. Xarici ölkələrin təcrübəsində bu sənəd müxtəlif formalarda adlandırılır: "qoruyucu order", "xəbərdaredici akt" və s. Qazaxıstan Respublikasının "Məişət zorakılığının qarşısının alınması və xəbərdar edilməsi haqqında" Qanununun 1-ci maddəsinə müvafiq olaraq mühafizə orderi "məhdudedici göstəriş və məhkəmə qoruyucu orderi" kimi adlanır.

BMT tərəfindən təsdiq edilən model qanunvericiliyində mühafizə orderi mütləq profilaktik tədbir kimi tövsiyə edilir. Mühafizə orderi hər bir subyekt qarşısında müəyyən öhdəlik və zorakılıq törətmiş şəxs qarşısında mütləq xarakterli məhdudiyyət qoyur. Məhdudiyyətin müddəti və tələbləri orderin xüsusiyyətindən asılıdır. Nəzəriyyədə mühafizə orderlərini "məqsədli məhdudiyyət" kimi adlandırırlar. Məsələn, Kanadanın

Alberto vilayətinin 1998-ci il tarixli "Məişət zorakılığından mühafizə haqqında" Aktında mühafizə orderinin üç forması fərqləndirilir:

- mühafizə orderi (təxirəsalınmaz yardım tələb edildikdə);
- kral məhkəməsi mühafizə orderi;
- mənzilə daxil olmaq orderi;

Bu orderinin hər bir növü hüquqi təsirinə görə müxtəlif xarakterli məhdudiyyətlər nəzərdə tutur.

Əksər ölkələrdə mühafizə orderi məhkəmə orqanları tərəfindən məişət zorakılığından zərər çəkmiş şəxsə verilir. Order verilərək zorakılığı törətmiş şəxs mütləq qaydada xəbərdar edilir. Mühafizə orderinin məhkəmənin qərarı ilə məhkəmə zalında təqdim edilməsi təcrübəsi müsbət təcrübə sayıla bilər (ABŞ, Kanada). Ona görə ki, məhkəmələr tərəfindən mühafizə orderi verilərək zorakılığı törədən şəxslər təlimatlandırılırlar və qarşı tərəfin yanında xəbərdar edilirlər.

**Maddə 2. Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

**Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu Qanundan və digər normativ hüquqi aktlarından ibarətdir.**

Bu Qanunun **2-ci maddəsi** hər hansı hüquq və vəzifə yaratmasa da, məişət zorakılığının qarşısının alınması sahəsində qanunvericiliyin dairəsini göstərir. Bu maddənin funksional vəzifəsi məişət zorakılığı ilə mübarizəni təmin edən normativ hüquq sisteminin geniş olduğunu göstərməkdir. Bu maddədə normativ aktlar hüquqi qüvvəsinə görə ardıcıl qaydada göstərilibdir. Ardıcıllıq Konstitusiyanın 148-ci maddəsinin müvafiq sisteminə uyğun nəzərdə tutulub. Belə ki, bu maddədə Konstitusiya ali hüquqi qüvvəyə malik olduğuna görə ilkin

göstərilir, sonra hüquq sistemində qanunlardan üstün olan beynəlxalq aktlar və digər normativ hüquqi aktlar öz hüquqi qüvvəsinə müvafiq qaydada qeyd edilir.

Bu Qanunda Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələri Azərbaycan Respublikasının hüquq sisteminin ayrılmaz tərkib hissəsi kimi qeyd edilmişdir. Maddə 2-də Konstitusiyadan sonra Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin göstərilməsi Konstitusiyanın 151-ci maddəsinin məntiqinə əsaslanır. Belə ki, bu maddədə qeyd edilir: "Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Konstitusiya və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir".[1] Beləliklə, Konstitusiya Azərbaycanın tərəfdar çıxdığı dövlətlərarası beynəlxalq müqavilələrin parlament tərəfindən qəbul olunan qanunlarından üstünlüyünü təmin edir. Buna görə bu maddədə Milli Məclis tərəfindən qəbul olunan qanunlar, o cümlədən "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanun beynəlxalq müqavilələrdən sonra göstərilir.

Məişət zorakılığı ilə mübarizə sahəsində proqram və təlimat xarakterli normativ aktlar mövcuddur. Məsələn, Daxili İşlər Nazirliyinin 2003-cü il 16 iyun tarixli 09 nömrəli Əmri ilə təsdiq edilmiş "Polis sahə inspektorlarının işinin təşkilinə dair" Təlimat. Bu Təlimat məişət münasibətləri zəminində törədilən qanun pozuntularına dair profilaktik işlərin aparılmasını nəzərdə tutan normativ xarakterli aktdır. Ona görə 2-ci maddədə göstərilən təsnifatda qanunlardan sonra digər normativ-hüquqi aktlar qeyd edilir. Bunlara aid etmək olar Azərbaycan Respublikası Prezidentinin Fərmanlarını, Nazirlər Kabinetinin Qərarlarını və s.

2-ci maddə öz təyinatı görə texniki xarakter daşıyır və məişət zorakılığı ilə mübarizə sahəsində normativ-hüquqi aktların tətbiqini nizamlamaq məqsədi ilə xidmət edir. Məişət zorakılığı

[1] Azərbaycan Respublikasının Konstitusiyası //1995-ci il 12 noyabr tarixində referendum yolu ilə qəbul edilib.

nəticəsində insan üçün ən yüksək dəyərlərdən biri olan onun həyatı və sağlamlığına zərər dəyə bilər. Ona görə bu maddədə insan üçün ali dəyərlər olan həyat və ləyaqətin mühafizəsinin konstitusion səviyyədə qorunması nəzərdə tutulur.

**Maddə 3. Məişət zorakılığının qarşısının alınması sahəsində əsas prinsiplər**

**3.0. Məişət zorakılığının qarşısının alınmasının əsas prinsipləri aşağıdakılardan ibarətdir:**

**3.0.1. hər kəsin Azərbaycan Respublikasının Konstitusiyasında və Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş əsas insan hüquq və azadlıqlarının təmin edilməsi;**

**3.0.2. qadınlara qarşı ayrı-seçkiliyin qadağan edilməsi;**

**3.0.3. qanunvericiliklə müəyyən edilmiş hallar və hüdudlar istisna olmaqla hər kəsin şəxsi və ailə həyatına müdaxilənin yolverilməzliyi;**

**3.0.4. şəxsi və ailə həyatı sirrinin qorunması məqsədi ilə konfidensiallığa riayət edilməsi;**

**3.0.5. zərər çəkmiş şəxslərin pozulmuş hüquqlarının bərpası;**

**3.0.6. məişət zorakılığının qarşısının alınması sahəsində dövlət orqanlarının və qeyri-dövlət qurumlarının qarşılıqlı əməkdaşlığı.**

Bu Qanunun **3.0.-ci maddəsində** göstərilən norma-prinsiplər məişət zorakılığı ilə mübarizə sahəsinin normayaradıcılığa, normativ aktların tətbiqinə, bütövlükdə mübarizə mexanizminin hər bir mərhələsinə təsir göstərir. Prinsiplərin bu Qanunun icrası sahəsində yaranan normativ xarakterli hüquqi aktların (təlimat, proqramlar və s.) hazırlanması prosesinə müsbət təsiri olacaqdır. 3-cü maddədə ümumi prinsiplərlə yanaşı məişət zorakılığı ilə mübarizə sahəsində vacib olan xüsusi prinsiplər nəzərdə tutulub.

Xüsusi prinsiplərə 3.0.2. - 3.0.6.-cı maddələri aid etmək olar. Məsələn, cəmiyyətdə hər bir kəsin hüquq qarşısında bərabərliyini, qadının nəslin davamında əvəzolunmaz rolunu nəzərə alınaraq 3.0.2.-ci maddədə xüsusi prinsip kimi qadınlara qarşı ayrı-seçkiliyin qadağan edilməsi prinsipi ehtiva edilmişdir. Bu prinsip insan hüquqları üzrə beynəlxalq standartların əsas tələblərindən biridir.

**3.0.3.-cü maddədə** göstərilən prinsip daha çox hüquq-mühafizə orqanlarının əməkdaşları və sosial işçilərə ünvanlanır. Fərdin şəxsi həyatının toxunulmazlığı əsas insan hüquqlarından biri olaraq Konstitusiya səviyyəsində qorunur. İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasının (bundan sonra - İHAK) 8-ci maddəsi şəxsi və ailə həyatının qorunmasını Avropa dəyərləri sırasına aid edib. İnsan Hüquqları üzrə Avropa Məhkəməsi İHAK-ın 8-ci maddəsinə dair baxdığı işlərin əksəriyyətində şəxsi həyatın qorunmasında əsas tələb kimi onun qanun səviyyəsində təminatını nəzərdə tutur. Bu prinsipin tələbinə görə hüquq pozuntusunu törətmiş şəxsin təqibi zamanı, habelə məcburi qaydada aparılan sosial tərbiyəedici tədbirlərin tətbiqi mərhələsində dövlət orqanları qanunvericilik hədləri çərçivəsində fəaliyyət göstərərək fərdin şəxsi həyatına müdaxilənin hədlərinə riayət etməlidirlər.

Məişət zorakılığına qarşı görülən tədbirlər ailə sirrinin yayılmasına şərait yarada bilər. Belə bir halda zərəri məişət münaqişəsinin hər bir tərəfi daşıyır. Məhz bu baxımdan **3.0.4.-cü maddəsinə** əsasən məişət zorakılığı hallarının araşdırılması mərhələsində şəxsi və ailə həyatı sirrinin qorunması məqsədi ilə konfidensiallıq prinsipinə riayət edilməsi xüsusi ilə vacibdir.

Bu Qanunun vəzifəsi cinayət və inzibati xətalar nəticəsində zərər çəkmiş şəxslərin qorunması ilə bərabər onların hüquqlarının bərpa edilməsi və reabilitasiyasıdır. Ona görə **3.0.5.-ci maddədə** zərər çəkmiş şəxslərin hüquqlarının bərpa edilməsi xüsusi prinsip kimi göstərilir.

Məişət zorakılığı ilə mübarizənin effektiv olması üçün onun kompleksli qaydada aparılması vacibdir. Bu tək dövlət

orqanlarının vəzifəsi olmamalıdır. Məişət zorakılığı ilə mübarizədə vətəndaş cəmiyyəti iştirakçılarının dəstəyi də tələb olunur. Bu baxımdan **3.0.6.-cı maddədə** dövlət orqanlarının və qeyri-hökumə qurumları arasındakı əməkdaşlığı prinsipi bəyan edilir.

**Maddə 4. Bu Qanunun şamil edildiyi şəxslər**

**4.0. Bu Qanun aşağıdakı şəxslərə şamil edilir:**

**4.0.1. yaxın qohum olan ailə üzvlərinə (ər, arvad, valideynlər, uşaqlar, nənələr, babalar, nəvələr, doğma və ögey qardaşlar və bacılar, övladlığa götürmüş və övladlığa götürülmüş şəxslər), habelə birgə yaşadığı hallarda digər qohumlara;**

**4.0.2. nikah pozulduqdan sonra birgə və ya ayrılıqda yaşayan keçmiş ər-arvada;**

**4.0.3. qəyyum və himayəçi təyin olunmuş fiziki şəxslərə, habelə üzərində qəyyumluq və himayəçilik təyin edilmiş şəxslərə;**

**4.0.4. qanuni nikahda olmadan birgə yaşayan kişi və qadına, habelə onlarla birgə yaşayan yaxın qohumlarına.**

**4-cü maddə** bu Qanunun şamil edildiyi şəxslərin dairəsini müəyyən edir. Tətbiqi cəhətdən xüsusi əhəmiyyəti olan bu maddə BMT tərəfindən tövsiyə edilən model qanunvericiliyin tələblərinə müvafiq tərtib edilib. Əksər xarici ölkələrin təcrübəsində də qanunun təsiri altına düşən şəxslərin dairəsi oxşar qaydada müəyyən edilir. Məsələn, "Ailədə zorakılığın qarşısının alınması və ailə zorakılığı qurbanlarının müdafiəsi haqqında" 2006-cı il 25 may tarixli Gürcüstan Qanununun 4(g) maddəsində qanunun şamil edildiyi şəxslərinin dairəsi ailə üzvləri tək göstərilib və onlara aid edilib: "ana, ata, baba, nənə, ər-arvad, oğul (oğulluq), qız (qızlıq), övladlığa götürülən oğul və yaxud qız, övladlığa götürən ailə (ata, ana), nəvə, bacı, qardaş, ər-arvadın valideynləri,

kürəkən, gəlin, habelə keçmiş ər-arvad, qeyri-rəsmi nikahda olan şəxslər, himayəçilər".

Bu maddənin hazırlanmasında Azərbaycan qanunvericiliyində mövcud olan terminlər də istifadə edilibdir. **4.0.1.-ci maddədə** yaxın qohum termini CPM-in 7.0.32-ci maddəsinə müvafiq olaraq göstərilib.[1] Yaxın qohumlar dedikdə, ər, arvad, valideynlər, uşaqlar, nənələr, babalar, nəvələr, doğma və ögey qardaşlar və bacılar, övladlığa götürmüş və övladlığa götürülmüş şəxslər, habelə birgə yaşadığı hallarda digər qohumlar başa düşülür.

Məişət zorakılığının əsas xüsusiyyəti ondan ibarətdir ki, şəxslər birgə yaşadıqları müddətdə aralarında müəyyən psixoloji asılılıq yaranır. Bu ilk növbədə emosional səviyyədə baş verir və emosional asılılıqla səciyyələnir. Digər tərəfdən birgə yaşayış sosial-iqtisadi bağlılığa səbəb olur. Beləliklə, birgə məişət münasibətlərində iştirak edən tərəflərin hər hansının digərinin üzərində üstünlük əldə etdikdə sui-istifadə hallarına zəmin yaranır.

Məişət zorakılığı ilə mübarizə üzrə model qanunvericilikdə beynəlxalq təcrübəyə əsaslanaraq tövsiyə edilir ki, məişət zorakılığı subyektlərinin dairəsi geniş göstərilsin. "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunun ilkin layihəsinə verilən 2007-ci il aprel tarixli ekspertlərin tövsiyələrində bildirilmişdir ki, qanun təsiri dairəsinə rəsmi nikahda olmayan müəyyən müddət partnyor münasibətlərində (qeyri-rəsmi nikah əlaqələrində) olan kişi ilə qadına da şamil edilməlidir.

Bununla belə, bu Qanun nikah münasibətlərinə xitam verilən, lakin birgə və ya ayrı yaşayan ər-arvada da şamil edilir. Nəzərə almaq lazımdır ki, ər-arvad münasibətləri müəyyən sosial və iqtisadi bağlılığa səbəb olur. Ona görə **4.0.2.-ci maddəsinə** əsasən subyektlərin dairəsinə nikah pozulduqdan sonra "birgə və ya ayrılıqda" yaşayan ər-arvad, **4.0.4.-cü maddəyə** müvafiq

[1] Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi., Bakı. - 2000. – S.7.

qanuni nikahda olmadan birgə yaşayan kişi və qadın, habelə onlarla birgə yaşayan yaxın qohumları da əlavə edilibdir. Bu müddəanın əsaslandırılması onunla bağlıdır ki, uzun müddət davam edən mülki münasibətlər keçmiş ər-arvadı bir-birindən asılı vəziyyətdə saxlaya bilər. Bu isə, öz növbəsində, şəxslərin bu asılılıqdan sui-istifadə etməsinə gətirib çıxara bilər.

Qəyyum və himayəçi şəxslər cinayət-prosessual və mülki qanunvericiliyi ilə ailə münasibətlərinin tamhüquqlu subyekti hesab edilirlər. Onlar Ailə Məcəlləsində hətta valideynlərlə birgə eyni hüquq və vəzifə daşıyırlar. Ona görə **4.0.3.-cü maddəyə** əsasən bu subyektlər bu Qanunun şamil edildiyi şəxslər dairəsinə daxil edilir.

4-cü maddənin məişət zorakılığı halının hüquqi cəhətdən tövsüfündə əhəmiyyətli rolu var. Belə ki, şəxslərin məhz bu dairəsində zorakılıq baş verdiyi halda həmin qanun pozuntusunun məişət zorakılığı kimi tövsüf edilməsinə əsas verir.

## II FƏSİL. MƏİŞƏT ZORAKILIĞI BARƏDƏ ŞİKAYƏTLƏRƏ BAXILMASI QAYDASI

**Maddə 5. Məişət zorakılığı barədə şikayətlərə baxan dövlət orqanları**

**5.1. Məişət zorakılığı barədə şikayətdə törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatlar olduqda həmin şikayətlərə cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş qaydada baxılır.**

**5.2. Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda həmin şikayətə müvafiq icra hakimiyyəti orqanları tərəfindən baxılır. Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda şikayətlərə baxılma qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.**

**5-ci maddə** xüsusi prosedur-prosessual normalar sisteminin əsas şərtlərini müəyyən edir. Bu maddə məişət zorakılığına dair şikayətlərin baxılmasının aidiyyətini fərqləndirir. Belə ki, cinayət faktları ilə bağlı zorakılıq haqqında şikayətlərə baxılma qaydaları cinayət-prosessual qanunvericiliyinə aid edilir. Cinayət aşkar edildikdə, dərhal cinayət işi başlanır və cinayət-prosessual qaydada cinayət təqibi aparılır. Bu prosedur qaydaları CPM ilə müəyyən edilir, ona görə təkrarlığa yor verməmək məqsədi ilə bu Qanunda CPM istinad edən maddələrdən istifadə edilir.

5-ci maddədə məişət zorakılığı ilə bağlı şikayətlərə baxan dövlət orqanlarının dairəsinin göstərilməsi xüsusilə vacibdir. Şikayətlərə baxan dövlət orqanları sırasında ilk növbədə ixtisaslaşmış müvafiq icra hakimiyyəti orqanı nəzərdə tutulur. Azərbaycanda qanunyaradıcılıq təcrübəsinə əsaslanaraq bu Qanunda müvafiq icra hakimiyyəti orqanının növü göstərilməyib. Azərbaycanın qanunyaradıcılıq təcrübəsinə əsasən müvafiq icra hakimiyyəti orqanının növü qanunlarla müəyyən edilmir. Konstitusiyanın 109-cu maddələrinə müvafiq olaraq icra

funksiyası birbaşa Azərbaycan Respublikası Prezidentinin səlahiyyətindədir. Azərbaycan Respublikasının Prezidenti Qanunun tətbiqi ilə bağlı Fərman imzalayarkən müvafiq icra hakimiyyəti orqanının növünü müəyyən edir.

**5.1.-ci maddədə** cinayət-prosessual qanunvericiliyə istinad edilərək cinayət xarakterli məişət zorakılığı halları ilə şikayətlərə cinayət-prosessual qaydada baxılması göstərilsədə, aidiyyəti dövlət orqanının növü qeyd edilmir. Əksər xarici ölkələrin müvafiq qanunlarında cinayət xarakterli məişət zorakılığı ilə bağlı şikayətlərə baxılması polis orqanlarının səlahiyyətlərinə aid edilir. Məişət zəminində baş verən hüquq pozuntuların qarşısının alınması Azərbaycan qanunvericiliyinə müvafiq olaraq polis orqanlarının vəzifəsidir. Güman etmək olar ki, məişət zorakılığı ilə bağlı psixi və ya iqtisadi zorakılığın qarşısının alınması vəzifəsi xüsusi təlim keçmiş polis orqanlarının səlahiyyətinə aid ediləcək. CPM-nin 47.1-ci maddəsində göstərilir ki, "cinayət təqibi üzrə icraat cinayət prosesini həyata keçirən orqan tərəfindən aparılır."[1] Deməli gələcəkdə məişət zorakılığına dair yeni növ cinayət işləri üzrə təhqiqat və istintaq polis orqanlarının səlahiyyətinə aid ediləcək.

Beləliklə, 5-ci maddəyə əsasən şikayətlərdə göstərilən hüquq pozuntularının ictimai təhlükəlilik xarakterinə müvafiq olaraq qabaqlayıcı tədbirlər və ya cinayət təqibini həyata keçirmək məqsədi ilə cinayət-prosessual xarakterli tədbirlər görülür. Məsələn, şikayətdə cinayət törədilməsi haqda məlumat olmadığı halda bu şikayətlərə ixtisaslaşmış müvafiq icra hakimiyyəti orqanı tərəfindən baxılır və ya iddia ilə bağlı müvafiq tədbirlər görülür (qabaqlayıcı, profilaktik və s.). Məişət zorakılığı ilə bağlı şikayətdə cinayət törədilməsi haqda məlumat olduğu halda ixtisaslaşmış müvafiq icra hakimiyyəti orqanı şikayəti aidiyyati ilə səlahiyyətli hüquq-mühafizə orqanına (polisə) göndərir və ya şikayət cinayət təqibi üzrə icraatı aparan orqana birbaşa göndərilə bilər.

[1] Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. Bakı., 2000. – S.35.

**Maddə 6. Məişət zorakılığı barədə şikayətlərin araşdırılması**

**6.1. Məişət zorakılığı üzrə araşdırmanın aparılması üçün aşağıdakılar səbəb ola bilər:**

**6.1.1. zərər çəkmiş şəxsin özünün və ya onun ailə üzvlərinin şikayəti;**

**6.1.2. fiziki və ya hüquqi şəxslərdən, dövlət və yerli özünüidarə orqanlarından, o cümlədən təhsil və ya səhiyyə müəssisələrindən, qeyri-hökumət təşkilatlarından, kütləvi informasiya vasitələrindən daxil olmuş müraciətlər.**

**6.2. Dövlət və yerli özünüidarə orqanlarının vəzifəli şəxsləri, yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar, qəyyumluq və himayə orqanları, təhsil və səhiyyə müəssisələri, yardım mərkəzləri xidməti vəzifələrinin həyata keçirilməsi zamanı məişət zorakılığının törədilməsi barədə aldığı şikayətləri bu Qanunun 5-ci maddəsində müəyyən edilmiş müvafiq icra hakimiyyəti orqanlarına təqdim edirlər.**

**6.3. Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda həmin şikayət yalnız zərər çəkmiş şəxsin və ya onun qanuni nümayəndəsinin razılığı olduqda araşdırılır.**

**6-cı maddədə** məişət zorakılığına dair şikayətlərin prosedur-prosessual qaydada araşdırılmasının əsas şərtlərini müəyyən edir. Təbii ki, bu Qanun bütövlükdə şikayətin araşdırılması ilə prosedur qaydanın bütün mərhələlərini əhatə etmək imkanı yoxdur. Təcrübədə şikayətlərin araşdırılması prosesində çox sayda icraatı tələb olunan prosedur tədbirləri aşkar edilir. Ona görə onların nizama salınması üçün müvafiq təlimat tələb edilir. Lakin bu Qanunun 6-cı maddəsi ümumi qaydada araşdırmanın əsas şərtlərini müəyyən edir. 6.1.1.-6.1.2-ci maddələrə əsasən araşdırmanın başlanması üçün əsas kimi zərər çəkmiş şəxsin özünün, onun ailə üzvlərinin şikayəti və ya fiziki və ya hüquqi

şəxslərdən, dövlət və yerli özünüidarə orqanlarından, o cümlədən təhsil və ya səhiyyə müəssisələrindən, qeyri-hökumət təşkilatlarından, kütləvi informasiya vasitələrindən daxil olmuş müraciətlər çıxış edə bilər.

**6.2.-ci maddə** hər bir dövlət və ya qeyri-hökumət təşkilatlarına ünvanlanan müraciətlərin aidiyyəti üzrə göndərilməsini nəzərdə tutur. Məişət zorakılığı ilə mübarizə peşəkar səviyyədə və vahid şəbəkədən aparıldığında bütün şikayət və müraciətlərin bir səlahiyyətli orqana göndərilməsi məqsədə uyğundur. Bu proses vahid koordinasiyanı həyata keçirməyə imkan yaradacaqdır. Məişət zorakılığına qarşı görülən tədbirlər sosial işçidən tərbiyəçi, pedaqoq bacarığı və vərdişlərini tələb edir. Ona görə məişət zorakılığı ilə bağlı müraciətlər ixtisaslaşmış orqanların mütəxəssisləri tərəfindən araşdırılmalıdır.

Bu Qanunun əsas təyinatından biri sağlam ailə münasibətlərinin qorunmasıdır. Ailə münasibətlərində münaqişə baş verdiyi halda sosial işçilər, dövlət qurumları dərhal bu münasibətlərə müdaxilə etməməlidirlə. Ailəyə göstərilən sosial qayğı məcburi deyil. Ailə münaqişəsinə dərhal müdaxilə cinayət hallarının baş verməsi ilə əlaqəlidir. Məhz bu baxımdan **6.3.-cü maddədə** məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda həmin şikayət yalnız zərər çəkmiş şəxsin və ya onun qanuni nümayəndəsinin razılığı olduqda araşdırılması nəzərdə tutulur.

**Maddə 7. Məişət zorakılığı ilə bağlı şikayətlərə cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş qaydada baxıldıqda, cinayət təqibi ilə yanaşı görülməli tədbirlər**

**7.0. Cinayət təqibinin həyata keçirilməsi ilə bağlı qanunvericiliklə müəyyən edilmiş vəzifələrlə yanaşı, məişət zorakılığı barədə məlumat təsdiqləndikdən sonra görülməli tədbirlər aşağıdakılardır:**

**7.0.1. zərurət olduqda zərər çəkmiş şəxsin dövlət vəsaiti hesabına dərhal tibbi yardımla, yardım mərkəzində müvəqqəti sığınacaqla, geyim və qida məhsulları ilə təmin**

**edilməsi, habelə onun barəsində psixoloji reabilitasiya kursunun aparılması məqsədilə müvafiq icra hakimiyyəti orqanına məlumat göndərmək;**

**7.0.2. məişət zorakılığının yaranmasına səbəb olan halları aşkar etmək və onların qarşısını almaq istiqamətində tədbirlər görmək;**

**7.0.3. məişət zorakılığının qarşısının alınmasını, onun təkrarlanmamasını, araşdırmanın aparıldığı müddət ərzində zərər çəkmiş şəxsin təhlükəsizliyini təmin etmək;**

**7.0.4. araşdırmanın aparılması zamanı tərəflərin münasibətlərinin normallaşmasına və ailədə münasibətlərin bərpa olunmasına kömək göstərmək;**

**7.0.5. məişət zorakılığını törətmiş şəxslərin profilaktik qeydiyyata götürülməsi və onlarla tərbiyəvi-qabaqlayıcı işin aparılması üçün tədbirlər görmək;**

**7.0.6. məişət zorakılığından əziyyət çəkən ailə üzvlərinə onların hüquqlarını, dövlət tərəfindən yaradılan və bu Qanunla müəyyən edilən vasitələrdən istifadə qaydalarını izah etmək;**

**7.0.7. zərər çəkmiş şəxsə mühafizə orderinin verilməsi ilə əlaqədar tədbirlər görmək;**

**7.0.8. məişət zorakılığı ilə bağlı şikayətin araşdırılması nəticəsində cinayət işinin başlanması üçün əsaslar müəyyən olunmadığı halda həmin şikayəti aidiyyəti üzrə müvafiq icra hakimiyyəti orqanına göndərmək;**

**7.0.9. zəruri hallarda məişət zorakılığı barədə şikayətlər üzrə araşdırmanı aparan digər dövlət orqanlarına kömək göstərmək.**

Bu Qanunun **7.0.-cı maddəsi** məişət zorakılığı ilə bağlı şikayətlərə cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş qaydada baxıldıqda, cinayət təqibi ilə yanaşı digər görülməli tədbirləri nəzərdə tutur. Bu tədbirlər mütləq xarakterlidir. Ona görə ki, onların icrası məişət zorakılığından zərər çəkmiş şəxslərin qorunmasına yönəlib.

Məişət zorakılığı ilə bağlı hüquq pozuntuları öz xüsusiyyətinə görə əksər halda təkrarlıq xarakterini daşıyırlar. Bu səbəbdən onlarla mübarizənin ardıcıl və kompleksli şəkildə aparılması məqsədə müvafiqdir. Belə ki, zərər çəkmiş şəxslərin reabilitasiyası, cinayət əməlinin subyektiv tərəfinin araşdırılması, zorakılıqdan zərər çəkmiş şəxslərin qorunması və s. məsələlər birgə aparılır.

Beləliklə, **7.0.-cı maddə** cinayət təqibi ilə bərabər görülməli kompleksli tədbirlərin müxtəlif istiqamətlərini nəzərdə tutur. Cinayətin törədilməsi ilə bağlı şikayət daxil olduğu halda ilk növbədə cinayət-prosessual tədbirlərin həyata keçirilməsi başlanır. Məsələn, CPM-in 46.2-ci maddəsinə müvafiq olaraq "cinayət işinin başlanması üçün səbəb kimi törədilmiş və ya hazırlanan cinayət haqqında fiziki şəxs tərəfindən verilən ərizə, hüquqi şəxsin (vəzifəli şəxsin) və ya kütləvi informasiya vasitələrinin məlumatları, yaxud bu məlumatların təhqiqatçı, müstəntiq və ya prokuror tərəfindən bilavasitə aşkar edilməsi ola bilər".[1] Deməli, cinayət-prosessual qanunvericiliyə əsasən fiziki şəxs tərəfindən verilən şikayət (müraciət) cinayət işinin başlanmasına səbəb hesab edilir. Lakin, məişət zorakılığı faktları haqqında verilən şikayətlər üzrə dərhal cinayət işinin başlanması tələsik addım olardı. Əksər hallarda təcrübədə məişət zəminində yaranan münaqişədən narazı olan şəxs bu münaqişənin hüquqi nəticələrini tam dərk etməyərək, emosional vəziyyətdə olaraq ərizəsində göstərdiyi faktları sonradan təkzib edir. Ona görə məişət zorakılığı ilə bağlı şikayətlərə xüsusi yanaşılaraq ilk növbədə zorakılıq qurbanının təcrid olunması və onun təhlükəsizliyini təmin edilir.

Bununla belə CPM-si ilə cinayət işinin dərhal başlanması halları nəzərdə tutulur. Bu prosessual hərəkəti məişət zəminində törədilən cinayətlərə aid etmək olar (məsələn, şəxsin sağlamlığına xəsarət yetirmək, qəsdən adam öldürmə və ya hər hansı cinayətin aşkar izlərinin olması və s.). Belə hallarda CPM-in 209.2-ci

[1] Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. Bakı., 2000. – S.34.

maddəsinə əsasən cinayət üzrə ibtidai araşdırma konkret faktlar əsasında dərhal başlana bilər. Bu cinayət-prosessual vəzifələr 7.0.-ci maddənin tələblərinə müvafiq olaraq məişət zəminində törədilən cinayətlərə də aid etmək olar.

CPM-in əsas tələblərindən biri zərər çəkmiş şəxsə təxirə-salınmaz yardımın göstərilməsidir. Lakin, məişət zorakılığının xüsusiyyətini nəzərə alaraq bu Qanunun **7.0.1.-ci maddəsinə** müvafiq olaraq yardım bir qədər geniş və kompleks qaydada nəzərdə tutulur: zərər çəkmiş şəxsin dövlət vəsaiti hesabına dərhal tibbi yardımla, yardım mərkəzində müvəqqəti sığınacaqla, geyim və qida məhsulları ilə təmin edilməsi, habelə onun barəsində psixoloji reabilitasiya kursunun aparılması məqsədi ilə müvafiq icra hakimiyyəti orqanına məlumatın göndərilməsi və s.

Məişət zorakılığı ilə mübarizənin effektiv olması üçün bu hüquq pozuntusunun yaranma, yayılması səbəbləri, habelə sair səbəbli məsələləri mərkəzləşdirilmiş qaydada təhlil edilir. Bu baxımdan ixtisaslaşmış müvafiq icra hakimiyyəti orqanının funksiyası zərər çəkmiş şəxslərin reabilitasiyası və onlara digər yardımın göstərilməsi ilə bərabər, ümumilikdə, cinayətin törədilməsi səbəblərinin təhlilini aparmaq, bu cinayətlə mübarizənin yeni üsul və metodları aşkar edilməsidir. Nəticədə əldə olunan məlumatların qiymətləndirilməsi məişət zorakılığı ilə mübarizənin ardıcıl aparılmasına şərait yaradır.

**7.0.2.-ci maddədə** məişət zorakılığının yaranmasına səbəb olan konkret halları aşkar etmək və onların qarşısını almaq istiqamətində tədbirlərin görülməsi nəzərdə tutulur. 7.0.2.-ci maddə ümumi profilaktik yanaşma ilə bərabər xüsusi fərdi yanaşmanı da əhatə edir. Yəni hər bir məişət zorakılığı ilə bağlı konkret hüquq pozuntusunun yaranmasının səbəbi aşkar olduqda ona qarşı xüsusi profilaktik tədbirlərin görülməsini müvafiq dövlət orqanlarının vəzifəsi kimi göstərir. Bu cür fərdi yanaşma ailə münasibətlərinin qorunmasına, təkrar cinayətin qarşısının alınmasına və zərər çəkmiş şəxsin təhlükəsizliyinə hüquqi zəmanət yaradır.

**7.0.3.-cü maddə** ilə səlahiyyətli orqanlar qarşısında şəxsin təhlükəsizliyini təmin etmək vəzifəsi qoyulur. Şəxsin təhlükəsizlik hüququ (şəxsi toxunulmazlıq) Konstitusiyanın 31-ci maddəsi ilə bəyan edilir. Konstitusiyada bəyan edilən insan hüquqları dövlətlə fərd arasındakı münasibətləri əks etdirir. Bu hüquqların təminatı ilə bağlı dövlətin qarşısında pozitiv öhdəlik dayanır. Dövlət insanların təhlükəsiz yaşamaqlarını təmin etməlidir və hər bir kəsin dövlət və habelə digər subyektlərdən qorunmasına hüquqi zəmanət yaratmalıdır. Beləliklə, 7.0.3-cü maddə məişət zorakılığı ilə bağlı hüquqpozuntularının xüsusiyyətini nəzərə alaraq onun qurbanlarının təhlükəsizliyinin təmin olunması üçün dövlət orqanları qarşısında xüsusi vəzifə müəyyən edir.

Ailə cəmiyyətin və dövlətin hüceyrəsidir. Ailə münasibətlərinin inkişafı və qorunması hər bir cəmiyyətin marağındadır. Ailə sabitliyindən nəslin davamı və cəmiyyətin inkişafı asılıdır. Məhz bu baxımdan dövlət ailənin qorunması və möhkəmlənməsində maraqlıdır. **7.0.4.-cü maddədə** məişət zorakılığı faktı üzrə araşdırmanın aparılması zamanı münaqişə tərəflərinin münasibətlərinin normallaşmasına və ailədə münasibətlərin bərpa olunmasına kömək göstərmək vəzifəsini müəyyən edilir. Bu vəzifə münaqişənin həlli ilə məşğul olan ixtisaslaşmış polis əməkdaşları, sosial işçilər və digər vəzifəli şəxslər qarşısında qoyulur.

**7.0.5.-ci maddə** məişət zorakılığını törətmiş şəxslərin profilaktik qeydiyyata götürülməsinin vacibliyini təyin edir. Profilaktik qeydiyyat məişət zorakılığını törətmiş şəxslərlə aparılan tərbiyəvi-qabaqlayıcı işin ardıcıllığına imkan yaradır. Vahid informasiya bazası vasitəsi ilə qeydiyyatın aparılması nəticə etibarı ilə məişət zorakılığı hallarının yaranma səbəbləri, zorakılığı törətmiş şəxslərin şəxsi keyfiyyətlərini, tərbiyəvi-qabaqlayıcı işlərin faydalılığını və s. məsələrin həllinə xidmət edir.

Məişət zorakılığı ilə mübarizənin aparılmasına ilk növbədə sosial tələbat olmalıdır. Cəmiyyətin hər bir üzvü bu sosial bəlanın fəsadları haqqında aydın məlumatlandırılmalı, onlarda məişət

zorakılığı nəticəsində baş verəcək psixoloji, mənəvi, nəhayət fizioloji zərər haqqında aydın təsəvvür yaranmalıdır. Məhz bu baxımdan **7.0.6.-cı maddədə** vəzifəli şəxslər qarşısında cinayət təqibinin həyata keçirilməsi vəzifəsi ilə yanaşı məişət zorakılığından əziyyət çəkən ailə üzvlərinə onların hüquqlarını, dövlət tərəfindən yaradılan vasitələrdən istifadə qaydalarının izah edilməsi vəzifəsi vurğulanır.

Bu Qanunun əsas təyinatlarından biri də məişət zorakılığından zərər çəkmiş şəxslərin sosial-hüquqi mühafizəsidir. **7.0.7.-ci maddə** cinayət-prosessual tədbirlərlə bərabər zərər çəkmiş şəxsin mühafizəsi tələbini irəli sürür. Belə ki, cinayət təqibinin həyata keçirilməsi ilə bağlı qanunvericiliklə müəyyən edilmiş vəzifələrlə yanaşı zərər çəkmiş şəxsə mühafizə orderinin verilməsi ilə əlaqədar tədbirlər görməsini nəzərdə tutur. Mühafizə orderinin prosessual qaydada verilməsi, bir tərəfdən zərər çəkmiş şəxsi təkrar zorakılıq hallarından qorumuş olur, digər tərəfdən zorakılıq törətmiş şəxsə qarşı cinayət təqibinin aparılmasına maneçilik törədən faktorlarının qarşısının almasına xidmət edəcək.

Məişət zorakılığı ilə əlaqədar verilən şikayətlərdə göstərilən cinayət xarakterli faktların araşdırılması zamanı zorakılığı törədən şəxs hərəkətlərində cinayət tərkibi olmadığı halda o, cinayət məsuliyyətinə cəlb edilə bilməz. Lakin, bu fakt münaqişənin bilməsini təsdiq etmir. Ailə münaqişəsində cinayət xarakterinin müəyyən edilmədiyi münaqişənin sönməsini göstərmir. Belə vəziyyətdə zorakılıq qurbanı təkrar zorakılığa məruz qalmaq təhlükəsi qarşısında dayanır. Ona görə qanunverici **7.0.8.-ci maddədə** məişət zorakılığı ilə bağlı şikayətin araşdırılması nəticəsində cinayət işinin başlanması üçün əsaslar müəyyən olunmadığı halda həmin şikayətin aidiyyəti üzrə müvafiq icra hakimiyyəti orqanına göndərilməsi vacibliyini vurğulayır.

**7.0.9.-cu maddə** 7.0.8.-ci maddənin məntiqi davamıdır. Bu maddədə cinayət təqibi orqanları qarşısında məişət zorakılığı barədə şikayətlər üzrə araşdırmanı aparan digər dövlət orqanlarına zəruri hallarda köməkliyin göstərilməsi vəzifəsi

qoyulur. Təbiidir ki, məişət zorakılığı üzrə cinayət təqibini həyata keçirən orqanlar digər dövlət və qeyr-hökümət təşkilatları ilə əməkdaşlıq etmək marağındadırlar. Ona görə ki, bu orqanların məqsədi məişət zorakılığını törətmiş şəxsi məsuliyyətə cəlb edərək cəzalandırmaq deyil, daha çox onun sosial reabilitasiyasını və ailənin qorunub saxlanmasını təmin etməkdir.

7.0.9.-cu maddədə nəzərdə tutulan "köməklik" tədbirləri iki əsas komponenti əhatə edir. Birincisi, informasiya yardımının göstərilməsi məişət zorakılığı faktını araşdıran təşkilat üçün problemin tam və ətraflı görməsinə xidmət edəcək. İkincisi isə məişət münaqişəsinin ağır nəticələri yarana bilər, belə halda, cinayət təqibi orqanları araşdırmanı aparan digər təşkilatlarla daim əlaqədə olurlar və zəruri hallarda münaqişənin qarşısının alınmasına müdaxilə edirlər.

**Maddə 8. Cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş qaydada araşdırılmayan məişət zorakılığı ilə bağlı dövlətin vəzifələri**

**8.0. Cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş qaydada araşdırılmayan məişət zorakılığı ilə bağlı dövlətin vəzifələri aşağıdakıların təmin edilməsindən ibarətdir:**

**8.0.1. məişət zorakılığı ilə bağlı daxil olmuş məlumatı qanunvericiliklə müəyyən edilmiş qaydada qəbul etmək, qeydiyyatdan keçirmək, araşdırmanı mümkün qədər qısa müddətdə aparmaq, müvafiq hallarda dərhal hadisə yerində araşdırma aparmaq və tərəfləri ayrılıqda dinləmək;**

**8.0.2. məişət zorakılığı ilə bağlı daxil olmuş şikayətdə törədilmiş və ya hazırlanan cinayət haqqında məlumat olduqda həmin şikayəti aidiyyəti üzrə göndərmək;**

**8.0.3. müraciət etmiş şəxsə onun hüquqlarını, zorakılığı törədən şəxsin məsuliyyətə cəlb edilməsi, habelə bu məsələ ilə bağlı məhkəməyə müraciət qaydasını izah etmək;**

**8.0.4. müraciətə səbəb olmuş hərəkətlərin təkrarlanmaması və məişət zorakılığının qarşısının alınması üçün tədbirlər görmək;**

**8.0.5. araşdırmanın aparıldığı müddət ərzində zərər çəkmiş şəxsin təhlükəsizliyinin təmin edilməsi üçün tədbirlər görmək;**

**8.0.6. zəruri hallarda zərər çəkmiş şəxsə hüquqi yardım göstərmək, onu dövlət yardım mərkəzində müvəqqəti sığınacaqla, geyim və qida məhsulları ilə, tibbi və psixoloji yardımla təmin etmək, təhsil alması, işlə təmin olunması, yeni peşələrə yiyələnməsi üçün, habelə sosial müdafiəsi ilə bağlı tədbirlər görmək;**

**8.0.7. məişət zorakılığından əziyyət çəkən yetkinlik yaşına çatmamış şəxslərin hüquqlarının və qanuni mənafelərinin müdafiəsi ilə bağlı tədbirlər görmək;**

**8.0.8. tərəflərin münasibətlərinin normallaşmasına və ailə münasibətlərinin bərpa olunmasına kömək göstərmək;**

**8.0.9. məişət zorakılığının təkrarlanmaması barədə zorakılıq törətmiş şəxsə xəbərdarlıq etmək və həmin xəbərdarlığın icrasına nəzarət etmək;**

**8.0.10. məişət zorakılığı törətmiş şəxslərin məsuliyyətə cəlb edilməsi ilə bağlı tədbirlər görmək;**

**8.0.11. zərər çəkmiş şəxsə mühafizə orderinin verilməsi ilə əlaqədar tədbirlər görmək;**

**8.0.12. bu Qanunun 13-cü maddəsində nəzərdə tutulmuş tədbirləri təşkil etmək;**

**8.0.13. məlumatın konfidensiallığına dair qanunvericiliyin tələbləri nəzərə alınmaqla, məişət zorakılığı ilə bağlı məlumat bankını yaratmaq, statistik məlumatların toplanmasını təşkil etmək;**

**8.0.14. qeyri-dövlət yardım mərkəzlərinin fəaliyyəti ilə bağlı normativ tənzimləməni və onların akkreditasiyasını həyata keçirmək;**

**8.0.15. məişət zorakılığının qarşısının alınması sahəsində beynəlxalq və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq etmək.**

Bu Qanunun **8-ci maddəsi** məişət zəminində törədilən zorakılığın cinayət xarakterli olmadığı halda şikayət üzrə araşdırma qaydalarını müəyyən edir. 7-ci maddədən fərqli olaraq bu prosessual qaydalar cinayət-prosessual qanunvericiliyin təsiri altına düşməyərək, daha geniş hərəkətləri əhatə edir və. Bu tədbirlərin ənənəvi təhqiqat və istintaq qaydalarından fərqli olaraq bu Qanunun tələblərinə müvafiq şəkildə həyata keçirilməsi nəzərdə tutulur.

İlk növbədə qeyd edilməlidir ki, 8-ci maddənin tələblərini icra edən vəzifəli şəxslər xüsusi təlim keçmiş, səlahiyyətli ixtisaslaşmış peşəkar şəxslər olmalıdırlar. Onlar məişət zorakılığının qarşısını almağa, pozulmuş hüquqları bərpa etməyə və münaqişənin tərəfləri arasında mediatorluğu həyata keçirməyi xüsusi peşəkarlıqla bacarmağa qadir olmalıdırlar.

Əksər xarici ölkələrin təcrübəsinə müvafiq **8.0.-ci maddədə** göstərilən tədbirlərin icrası polis orqanlarına həvalə edilir, məsələn, ABŞ, Ukrayna, Gürcüstan, Moldovada. Lakin, Azərbaycanda fəaliyyət göstərən Ailə, Qadın və Uşaq Problemləri üzrə dövlət Komitəsinin təcrübəsini nəzərə alaraq ehtimal etmək olar ki, 8-ci maddənin icrası ilə bağlı vəzifələri polis orqanları ilə birgə bu Dövlət Komitəsi həyata keçirəcəkdir.

**8.0.1.-ci maddə** ərizələrin müvafiq dövlət orqanlarına daxil olub qeydiyyatdan keçmə haqqında Azərbaycan qanunvericiliyinə istinad edir. 1999-cu il 28 oktyabr tarixli "Polis haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - "Polis haqqında" Qanun) 15-ci maddəsinin 2-ci bəndinə müvafiq olaraq "cinayət və digər hüquq pozuntuları haqqında daxil olan ərizələrin və məlumatların qəbul edilməsini, qeydiyyatdan keçirməsini və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada tədbirlərin görülməsini təmin etmək" polis əməkdaşlarının vəzifəsi kimi göstərir. "Polis haqqında" Qanunda birbaşa məişət zorakılığına qarşı görülən tədbirlər nəzərdə tutulmasa da, Qanun ümumilikdə cinayətkarlıqla mübarizədə polis orqanlarına profilaktik tədbirlərin görülməsi məqsədi ilə xüsusi səlahiyyətlər verir.

Məsələn, “Polis haqqında” Qanunun 25-ci maddəsinə müvafiq olaraq zəruri müdafiə və son zərurət hallarında şəxslərin həyat və sağlamlığını qorumaq məqsədilə polis orqanları əməkdaşları mənzilə daxil ola bilərlər. Bununla bərabər profilaktik tədbirlərin keçirilməsi ilə dindirmə, sorğu, qeydiyyat apara bilərlər.[1]

Azərbaycan qanunvericiliyi təcrübəsinə görə ərizə və şikayətlərin ümumi qaydada daxil olması prosesi Konstitusiya və habelə xüsusi orqanik qanunla tənzimlənir. İlk növbədə Konstitusiyanın 57-ci maddəsinin 1-ci hissəsinə əsasən Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına şəxsən müraciət etmək hüququ vardır. Konstitusiya normasına görə “hər bir müraciətə qanunla müəyyən edilmiş qaydada və müddətlərdə yazılı cavab verilməlidir”. “Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında” 1997-ci il 10 iyun tarixli Azərbaycan Respublikasının Qanununa əsasən müraciətlər təklif, ərizə və şikayət formasında ola bilər. Bu Qanunun 10-cu maddəsinə görə qanunvericilikdə digər müddət nəzərdə tutulmayıbsa müraciətlərə bir ay müddətində baxılır.[2]

Məişət zəminində yaranan münaqişələrin xüsusiyyətini nəzərə alaraq bu cür şikayətlərə dərhal baxılır. Bu hüquq pozuntusunun digər ağır fəsadlarının qarşısının alınması məqsədi ilə təxirəsalınmaz hərəkətlər görülməlidir: müraciətə səbəb olmuş hərəkətlərin təkrarlanmaması və məişət zorakılığının qarşısının alınması üçün tədbirlər görmək **(8.0.4.-cü maddə);** araşdırmanın aparıldığı müddət ərzində zərər çəkmiş şəxsin təhlükəsizliyinin təmin edilməsi üçün tədbirlər görmək **(8.0.5.-ci maddə);** zəruri hallarda zərər çəkmiş şəxsə hüquqi yardım göstərmək, onu dövlət yardım mərkəzində müvəqqəti sığınacaqla, geyim və qida məhsulları ilə, tibbi və psixoloji yardımla təmin etmək, təhsil alması, işlə təmin olunması, yeni peşələrə yiyələnməsi üçün,

[1] “Polis haqqında” 1999-cu il 28 oktyabr tarixli Azərbaycan Respublikasının qanunu // www.genprosecutor.gov.az/files/papers/file_12281409.

[2] “Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında” 1997-ci il 10 iyun tarixli Azərbaycan Respublikasının Qanunu // http://dqmk.az/az/downloads/qanunvericilik/qanunlar/pdf/Law314-100697(az).pdf

habelə sosial müdafiəsi ilə bağlı tədbirlər görmək **(8.0.6.-cı maddə);** məişət zorakılığından əziyyət çəkən yetkinlik yaşına çatmamış şəxslərin hüquqlarının və qanuni mənafelərinin müdafiəsi ilə bağlı tədbirlər görmək **(8.0.7.-ci maddə);** tərəflərin münasibətlərinin normallaşmasına və ailə münasibətlərinin bərpa olunmasına kömək göstərmək **(8.0.8.-ci maddə);** məişət zorakılığının təkrarlanmaması barədə zorakılıq törətmiş şəxsə xəbərdarlıq etmək və həmin xəbərdarlığın icrasına nəzarət etmək **(8.0.9.-cu maddə);** məlumatın konfidensiallığına dair qanunvericiliyin tələbləri nəzərə alınmaqla, məişət zorakılığı ilə bağlı məlumat bankını yaratmaq, statistik məlumatların toplanmasını təşkil etmək **(8.0.13.-cü maddə).**

Qeyd olunan tədbirlər təxirəsalınmaz və mütləq qaydada həyata keçirilməlidir. Lakin, törədilən məişət zorakılığının ictimai təhlükəlilik xarakterinə müvafiq olaraq bu tədbirlərdən əlavə digər daha da sərt məhdudiyyət tədbirləri görülə bilər. Məsələn, məişət zorakılığı törətmiş şəxslərin məsuliyyətə cəlb edilməsi ilə bağlı tədbirlər görmək **(8.0.10.-cu maddə);** zərər çəkmiş şəxsə mühafizə orderinin verilməsi ilə əlaqədar tədbirlər görmək **(8.0.11.-cu maddə).**

Məişət zorakılığı ilə bağlı konkret hüquq pozuntusuna qarşı görülən tədbirlərdən fərqli olaraq **8.0.-cı maddədə** ümumi funksional xarakterli vəzifələr göstərilir. Məsələn, qeyri-dövlət yardım mərkəzlərinin fəaliyyəti ilə bağlı normativ tənzimləməni və onların akkreditasiyasını həyata keçirmək **(8.0.14.-cü maddə);** məişət zorakılığının qarşısının alınması sahəsində beynəlxalq və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq etmək **(8.0.15.-ci maddə).**

8-ci maddədə göstərilən tədbirlər cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş qaydada araşdırılmayan məişət zorakılığı ilə bağlı dövlətin vəzifələrini ehtiva edir. Lakin daxil olan məlumatda zorakılığın cinayət xarakterli tərkibi aşkar olduğu halda şikayət aidiyyəti üzrə göndərilir. Aidiyyəti üzrə göndərilən müraciətin araşdırılması isə bu Qanunun 7-ci maddəsi və CPM-nə müvafiq olaraq aparılır.

**Maddə 9. Məişət zorakılığı barədə şikayətlərə bu Qanunun 5.2-ci maddəsində nəzərdə tutulmuş qaydada baxılmasının nəticələrinə dair qərar**

**9.0. Məişət zorakılığı barədə şikayətlərə bu Qanunun 5.2-ci maddəsində nəzərdə tutulmuş qaydada baxılmasının nəticələrindən asılı olaraq aşağıdakı qərarlardan biri qəbul olunur:**

**9.0.1. məişət zorakılığı ilə bağlı hərəkətlər törətmiş şəxsə qanunvericiliklə müəyyən olunmuş məsuliyyət izah edilməklə, məişət zorakılığının təkrarlanmaması barədə xəbərdarlıq edilməsi və zərər çəkmiş şəxsə qısamüddətli mühafizə orderinin verilməsi;**

**9.0.2. məişət zorakılığı ilə bağlı hərəkətlər törətmiş şəxsin qanunvericiliklə müəyyən olunmuş qaydada valideynlik hüququndan məhrum edilməsi və ya valideynlik hüquqlarının məhdudlaşdırılması ilə bağlı məhkəməyə müraciət edilməsi;**

**9.0.3. əməllərində cinayət tərkibi və ya inzibati xəta olan şəxsin qanunvericiliklə müəyyən olunmuş qaydada cinayət və ya inzibati məsuliyyətə cəlb edilməsi barədə səlahiyyətli dövlət orqanlarına müraciət edilməsi;**

**9.0.4. zərər çəkmiş şəxsə uzunmüddətli mühafizə orderinin verilməsi ilə əlaqədar məhkəməyə müraciət edilməsi;**

**9.0.5. zərər çəkmiş şəxsin yardım mərkəzində sığınacaqla təmin edilməsi.**

**9-cu maddənin** tələblərinə görə məişət zorakılığı ilə bağlı şikayətlərə baxılmasının nəticələrinə dair müvafiq icra hakimiyyəti orqanına xüsusi qərar qəbul etmək səlahiyyəti verilir. Bu qərarlar zərərçəkmiş şəxsin mühafizəsinə zəmanət verir və hüquq pozuntusunun təkrarlanmaması üçün xəbərdaredici xarakter daşıyırlar.

9-cu maddənin tələblərini prosessual qaydalar olmaqla bərabər sanksiya xarakteri kimi də qiymətləndirmək olar. Məsələn, **9.0.1.-ci maddədə** məişət zorakılığını törətmiş şəxsə

xəbərdarlıq edilməsi və zərər çəkmiş şəxsə qısamüddətli mühafizə orderinin verilməsi, **9.0.2.-ci** maddədə isə məişət zorakılığı ilə bağlı hərəkətlər törətmiş şəxsin qanunvericiliklə müəyyən olunmuş qaydada valideynlik hüququndan məhrum edilməsi kimi sanksiyalar nəzərdə tutulur.

Xəbərdarlıq tənbeh növünün tətbiqi qaydası İnzibati Xətalar Məcəlləsində göstərilsə də, mühafizə orderinin verilmə prosedurası Azərbaycan qanunvericiliyi üçün yenidir. BMT tərəfindən tövsiyə edilən model qanunvericiliyinin 4-cü maddəsinə müvafiq olaraq mühafizə orderinin verilməsindən əvvəl xüsusi prosedur görülməlidir və sonra orderin verilməsi üçün müvafiq icra orqanı tərəfindən müraciət olunmalıdır. Bu baxımdan 9.0.4.-cü maddə tövsiyə olunan model qanunvericiliyinə uyğun müddəa kimi qiymətləndirilə bilər. Lakin 9-cu maddə ümumi sanksiyalar sistemini müəyyən etdiyinə görə qısamüddətli və uzunmüddətli mühafizə orderlərinin tətbiqi prosedurası digər maddələrlə tənzimlənir.

9-cu maddənin tələblərinə görə müvafiq icra hakimiyyəti orqanı müəyyən qədər məhdud səlahiyyətlərə malikdir. Bu ədalət mühakiməsinin təminatı ilə bağlıdır. Ona görə 9.0.2. - 9.0.4.-cü maddələrində daha ciddi sanksiyaların tətbiq edilməsi ilə bağlı (məsələn, valideyn hüquqlarından məhrum edilməsi) əsas olduğu halda icra orqanının məhkəmə orqanlarına müraciət edilməsi nəzərdə tutulur. Fərdin konstitusion hüquqlarının qanunu məhdudlaşdırılmasına nəzarəti ədalət mühakiməsi qaydasında məhkəmələr tərəfindən həyata keçirilir. Konstitusiyanın 125-ci maddəsi göstərir ki: "Azərbaycan Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirirlər". Beləliklə, bu Qanun fərdə qarşı tətbiq olunan qanunu məhdudiyyətin yalnız məhkəmələr tərəfindən həyata keçirilməsini xüsusi vurğulayır.

**9.0.3.-cü maddədə** göstərilən tələblər 8-ci maddədə qeyd edilən oxşar hərəkətləri nəzərdə tutsa da öz mərhələsinə görə fərqlidir. Müraciətdə aşkar cinayət xarakterli məlumat olduğu halda müraciət təxirəsalınmaz cinayət-prosessual qaydada araş-

dırılması üçün səlahiyyətli orqana göndərilə bilər. 9.0.3-cü maddənin tələblərinə görə cinayət təqibi və ya inzibati xətalar icraatının araşdırılmanı həyata keçirən səlahiyyətli orqanlara müraciət edilməsi xüsusi qərarla nəzərdə tutulur. Bu qərar araşdırma zamanı əldə edilən sübut və dəlillərə əsaslanaraq ictimai təhlükəli əməlin nisbətən ağır nəticələrini təsdiq edir.

9-cu maddədə göstərilən qərarların növləri Azərbaycan qanunvericiliyi üçün bir qədər yenidir. Bu cür qərarların çıxarılması üçün müvafiq araşdırmanın aparılması tələb olunur. Bu araşdırma xüsusi prosedur qaydasında aparılmalıdır və əldə olunan sübut və dəlillər ciddi şəkildə təhlil edilməlidir, ona görə ki, qərarın müvafiq dövlət orqanına təqdim edilməsi cinayət işinin başlanmasına səbəb kimi çıxış edir.

**Maddə 10. Mühafizə orderi**

**10.1. Bu Qanuna uyğun olaraq zərər çəkmiş şəxsə qısamüddətli və ya uzunmüddətli mühafizə orderi verilə bilər.**

**10.2. Qısamüddətli mühafizə orderində məişət zorakılığını törətmiş şəxsə aşağıdakılar qadağan edilə bilər:**

**10.2.1. məişət zorakılığının təkrar törədilməsi;**

**10.2.2. zərər çəkmiş şəxsin olduğu yer ona məlum olmadıqda həmin şəxsin axtarılması;**

**10.2.3. zərər çəkmiş şəxsə narahatlıq gətirən digər hərəkətlərin edilməsi.**

**10.3. Uzunmüddətli mühafizə orderində bu Qanunun 10.1-ci maddəsində qeyd olunanlarla yanaşı aşağıdakılar nəzərdə tutula bilər:**

**10.3.1. məişət zorakılığını törətmiş şəxsin yetkinlik yaşına çatmamış uşaqları ilə ünsiyyət qaydaları;**

**10.3.2. yaşayış sahəsindən və ya birgə əmlakdan istifadə qaydalarının müəyyən edilməsi;**

**10.3.3. zərər çəkmiş şəxsə tibbi və hüquqi yardımın göstərilməsi ilə bağlı xərclərin məişət zorakılığını törətmiş şəxs tərəfindən ödənilməsi şərtləri;**

**10.3.4. mühafizə orderinin tələblərini icra etməyən şəxsin qanunvericiliyə uyğun olaraq məsuliyyətə cəlb olunmasının izah edilməsi haqqında məlumat.**

**10.4. Mühafizə orderi icra haqqında qanunvericiliklə müəyyən edilmiş qaydada icra olunur.**

**10-cu maddə** Azərbaycanın hüquq sistemi üçün yeni olan mühafizə orderinin mahiyyəti və məzmununu açıqlanır. Bu Qanunun ilk maddəsində mühafizə orderinin definisiyası verilsə də, onun tam tərkibi, mahiyyəti və tətbiqi qaydası nəzərdə tutulmamışdır.

**10-cu maddə** öz təyinatına görə qadağalar və tərəflər qarşısında qoyulan şərtlərdən ibarətdir. Mühafizə orderi zərərçəkmiş şəxsə verilsə də, onun surəti zorakılığı törədən şəxsə mütləq qaydada rəsmi şəkildə təqdim olunmalıdır. Xəbərdarlıq elan edildikdən dərhal sonra mühafizə orderinin verilməsi həyata keçirilməlidir. Bu mərhələdə zorakılığı törədən şəxsə zərər çəkmiş şəxslə ünsiyyətində xüsusi məhdudiyyətlər qoyulur. Məsələn, **10.2.1.-10.2.3.-cü maddələrində** qısamüddətli mühafizə orderinin verilməsi ilə zərərçəkmiş şəxsin təhlükəsizliyinin təmin edilməsi üçün zorakılığı törədənə qarşı xüsusi məhdudiyyətlər nəzərdə tutulur. Məsələn, məişət zorakılığının təkrar törədilməsinin qarşısının alınması məqsədi ilə, zərər çəkmiş şəxsin olduğu yerin axtarılması və zərər çəkmiş şəxsə narahatlıq gətirən digər hərəkətlərin edilməsi. Bir qanunla bütün məhdudlaşdırıcı qadağalar nəzərdə tutula bilməz. Ona gərə məhkəm öz mülahizəsinə görə mühafizə orderində ağlabatan və mütənasib məhdudiyyətlər nəzərdə tuta bilər.

Məişət zorakılığı ilə mübarizə sahəsində tövsiyə olunan model qanunvericiliyinin 4-cü "Ədliyyə əməkdaşlarının vəzifələri" bölməsində mühafizə orderinin iki növü qeyd edilir. Model qanunvericiliyində göstərilir ki, zorakılığı törədən şəxsin məhkəməyə gəlmədiyi və yayındığı halda məhkəmə tərəfindən zərər çəkmiş şəxsə onun ərizəsi əsasında birtərəfli *(ex parte)* qadağa orderi verilə bilər. Məişət zorakılığının təkrarlanmaması məqsədi

ilə birtərəfli mühafizə orderində ümumi əmlakdan (məsələn, mənzildən) məhdudiyyətli istifadə qaydası göstərilə bilər. Bu order ilkin mərhələ üçün nisbətən qısamüddətli nəzərdə tutulur.

Model qanunvericiliyində zorakılıq qurbanları ilə yanaşı digər ailə üzvlərinin geniş kateqoriyasının, hətta ailə üzvü olmayan şəxslərin də məhdudiyyət orderindən istifadə edilməsi tövsiyə edilir. Məsələn, zərər çəkmiş şəxs öz fiziki və sosial vəziyyətinə görə hüquq sistemində olan vasitələrdən faydalı istifadə imkanlarına malik olmadıqda şikayətçi digər şəxs olsun. Belə halda, zərər çəkmiş şəxsin və ona köməklik göstərən digər şəxslərin təhlükəsizliyi eyni qaydada təmin olunmalıdır. Model qanunvericiliyinin 4-cü bölməsinin 29-cu bəndində "birtərəfli fövqəladə müvəqqəti məhdudlaşdırıcı order" əsasında aşağıdakı məhdudiyyətlərin tətbiq edilməsi tövsiyə edilir:

- zorakılıq törətmiş şəxsin ailə evini tərk etmək tələbi;
- uşaqlarla məhdud ünsiyyətdə olma qaydaları;
- zərərçəkmiş şəxslə ünsiyyətdə olmağın qadağan edilməsi;
- zərərçəkmiş şəxsin müalicəsinin zorakılığı törətmiş şəxs tərəfindən ödənilməsi tələb edilməsi;
- ümumi əmlakdan birtərəfli istifadə edilməsinin məhdudlaşdırılması;
- məhdudlaşdırıcı orderinin tələblərinin pozulmasına görə cinayət məsuliyyətini daşıması haqqında zorakılığı törətmiş şəxsi məlumatlandırmaq;
- məhdudlaşdırıcı orderdən asılı olmayaraq zorakılıq törətmiş şəxsin cinayət məsuliyyətinə cəlb edilə bilməsi haqqında zərərçəkmiş şəxsi məlumatlandırmaq;
- məhdudlaşdırıcı orderinin olması ilə bərabər mülki prosessual qaydada nigahın pozulması, əmlakın bölünməsi, zərərin ödənilməsi məsələsinin qaldırılması haqqında iddiaçını məlumatlandırmaq;

- tərəflərin hər bir növbəti iddiası ilə bağlı məhkəməni məlumatlandırmaq vəzifələri haqqında xəbərdar etmək.[1]

Beləliklə, **10-cu maddə** ilə nəzərdə tutulan mühafizə orderində göstərilən qadağalar model qanunvericiliyinin universal tələblərinə cavab verir. Bu maddə qısamüddətli ilə uzunmüddətli mühafizə orderləri arasında fərqli xüsusiyyətləri göstərir. Uzunmüddətli mühafizə orderi **10.3.-cü maddədə** nəzərdə tutur. Model qanunvericiliyinə görə uzunmüddətli mühafizə orderi aşağıdakı şərtləri əks etdirir:

- zərərçəkmiş şəxsə və ya digər ailə üzvlərinə təhlükəsizliyini təmin etmək məqsədilə məişət zorakılığını törətmiş şəxsin təkrarın zorakılığın törədilməsindən çəkindirmək;
- evin mülkiyyətçiliyindən asılı olmayaraq cavabdehi (yəni zorakılıq törətmiş şəxs) yaşadığı evi bir meddətə tərk etməyinə göstəriş vermək;
- iddiaçının öz mülkiyyətindən azad istifadə etməsi üçün cavabdehə göstərişin verilməsi;
- cavabdehin uşaqlarla ünsiyyətdə olmasının tənzimlənməsi;
- cavabdehin iddiaçı ilə axırıncının iş yerində və yaxud digər olduğu yerlərdə ünsiyyətdə olmağının məhdudlaşdırılması;
- cavabdehin istifadəsində silah olduğu halda ona həmin silahdan istifadə etməsinə qadağan qoyulması;
- iddiaçının müalicəsini, psixoloji reabilitasiyasını keçməsini və yardım mərkəzində olması xərclərinin cavabdeh tərəfindən ödənilməsinin göstərilməsi;
- ümumi mülkiyyətdən istifadənin məhdudlaşdırılması;
- mühafizə orderinin tələblərinin pozulmasına görə cavabdehin həbs edilməsi və cinayət məsuliyyətinə cəlb edilməsi haqda cavabdehi və iddiaçını məlumatlandırmaq;

---

[1] Модельное законодательство о насилии в семье / Рекомендации ООН.// www.aile.az/index.php/ru/obshestvo-socialnaya-jizn/genderniye-problemi/

- mühafizə orderindən əlavə cavabdehə qarşı cinayət işinin qaldırılması imkanından istifadə etmək haqqında iddiaçını məlumatlandırmaq;
- mühafizə orderinin olması ilə bərabər mülki prosessual qaydada nikahın pozulması, əmlakın bölünməsi, zərərin ödənilməsi məsələsinin qaldırılması haqqında iddiaçını məlumatlandırmaq;
- şəxsi həyat sirrinin qorunması məqsədilə məhkəmə dinləmələrin qapalı keçirilməsi.[1]

Belə qənaətə gəlmək olar ki, tövsiyə edilən mühafizə orderlərinin hər bir forması oxşar tələbləri əks etdirsələr də, müddətinə və subyektlərə qarşı tələblərin ciddiliyinə görə bir qədər fərqlidir.

Bununla belə **10.3.-cü maddədə** uzunmüddətli mühafizə orderi üçün nəzərdə tutulan tələblər ümumi göstəriş xarakterli və ya konkret tələblər şəkilində fərqləndirilir. Məsələn, **10.3.1.-10.3.2. maddələrinə** əsasən məişət zorakılığını törətmiş şəxsin yetkinlik yaşına çatmamış uşaqları ilə ünsiyyəti, yaşayış sahəsindən və ya birgə əmlakdan istifadə qaydalarının tənzimlənməsi ümumi göstəriş kimi verilsə də **10.3.3.-cü maddədə** zərər çəkmiş şəxsə tibbi və hüquqi yardımın xərclərin məişət zorakılığını törətmiş şəxs tərəfindən konkret olaraq ödənilməsi tələbi göstərilir.

Mühafizə orderinin icrası Azərbaycan qanunvericiliyində məhkəmə qərarlarının icrasının ümumi qaydalarına əsasən həyata keçirilir. 2001-ci il 27 dekabr tarixli "Məhkəmə qərarlarının icrası haqqında" Azərbaycan Respublikasının Qanunun 2-ci maddəsi ilə Azərbaycan Respublikasında məhkəmə və digər orqanların qərarlarının məcburi icrası məhkəmə icraçıları tərəfindən həyata keçirilir.[2] Bu Qanun cinayət-prosessual və mülki-prosessual

---

[1] Модельное законодательство о насилии в семье / Рекомендации ООН.// www.aile.az/index.php/ru/obshestvo-socialnaya-jizn/genderniye-problemi/

[2] 2001-ci il 27 dekabr tarixli "Məhkəmə qərarlarının icrası haqqında" Azərbaycan Respublikasının Qanunu // www.e-qanun.az/cache/flramwork/1/f_1886.html

qanunvericiliyə istinadən məhkəmə qərarlarının icrasını təmin edir. Mühafizə orderinin icrası proseduru bir qədər fərqli olduğuna görə "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanun tətbiqi ilə cinayət-prosessual və inzibati qanunvericiliyə mühafizə orderinin icraatı ilə bağlı əlavələr və dəyişikliyin edilməsinə ehtiyac yaranır.

**Maddə 11. Məişət zorakılığının təkrarlanmaması barədə xəbərdarlıq edilməsi və qısamüddətli mühafizə orderinin verilməsi**

**11.1. Məişət zorakılığı törətmiş şəxsin hərəkətləri cinayət məsuliyyəti yaratmadıqda, lakin bu hərəkətlər nəticəsində zərər çəkmiş şəxsin hüquqları və qanuni mənafeləri pozulduqda, müvafiq icra hakimiyyəti orqanı tərəfindən məişət zorakılığı ilə bağlı hərəkətləri törətmiş şəxsə həmin və ya ona oxşar hərəkətlərin təkrarlanmaması barədə yazılı xəbərdarlıq edilə və zərər çəkmiş şəxsə qısamüddətli mühafizə orderi verilə bilər.**

**11.2. Müvafiq icra hakimiyyəti orqanı müraciət edilən vaxtdan 24 saat keçənədək zorakılığı törədən şəxsə xəbərdarlıq edir və dərhal zərər çəkmiş şəxsə 30 gün müddətinədək qısamüddətli mühafizə orderi verir. Xəbərdarlıq edilməsindən məhkəməyə şikayət verilə bilər.**

**11.3. Məişət zorakılığı ilə bağlı hərəkətlər törətmiş şəxsin qısamüddətli mühafizə orderinin tələblərinə əməl etməməsi uzunmüddətli mühafizə orderinin verilməsi üçün əsas ola bilər.**

Bu Qanunun **11-ci maddəsi** məişət zorakılığı ilə bağlı ənənəvi inzibati tənbeh növündən bir qədər fərqli olan xəbərdarlıq sanksiyasının və qısamüddətli mühafizə orderinin verilməsi xüsusiyyətini tənzimləyir. Hətta maddənin adında göstərilir ki, xəbərdarlıq məişət zorakılığının təkrarlanmaması məqsədilə elan edilir.

Məişət zorakılığından zərər çəkmiş və ya zorakılığı müşahidə edən hər bir şəxs məişət zorakılığını törədən şəxsə xəbərdarlıq edilməsi məqsədilə müvafiq dövlət orqanına müraciət edə bilər. Müraciətdə real "təhlükəli şəraitin yarandığı" vəziyyət aydın göstərilməlidir. Zorakılıq tərədən şəxsə xəbərdarlığın elan edilməsi ilə bərabər zərər çəkmiş şəxsə qısamüddətli mühafizə orderi verilməlidir. Xarici ölkələrdə ki təcrübə göstərir ki, xəbərdarlıq elan edildikdən dərhal sonra zərər çəkmiş şəxsə mühafizə orderinin verilmədiyi halda zorakılığın qurbanı təkrarən təhlükə ilə rastlaşmaq riski altında qalır.

Digər tərəfdən, məişət zorakılığı qurbanları olan ailə üzvləri təhlükə şəraitində qaldıqda zorakılığı törətmiş şəxsi məsuliyyətə cəlb etmək mürəkkəbləşir. Belə ki, zorakılığı törədən şəxs ailə üzvlərinə qarşı təzyiqlərini davam edir, hüquqi araşdırma prosesinin başlanmasına və sübutların toplanması maneələr törədir. Bu baxımdan, məişət zorakılığını törətmiş şəxsə xəbərdarlıq elan edilərkən, onun hərəkətlərindən zərər çəkmiş, habelə bu şəxslərə yardımçı olan digər ailə üzvlərinə dərhal mühafizə orderi verilməlidir.

Məişət zorakılığı ilə bağlı xəbərdarlığın elan edilməsi prosedurunun tətbiqi üçün İnzibati Xətalar Məcəlləsində əlavə və dəyişikliyin edilməsinə ehtiyac yaranır. İnzibati Xətalar Məcəlləsinin 23.1.1.-ci maddəsində xəbərdarlıq - inzibati tənbeh növü kimi nəzərdə tutulur. Bu Məcəllənin 24-cü maddəsinin tələblərinə görə "xəbərdarlıq inzibati tənbeh növü olmaqla hüquqa zidd əməlin yolverilməzliyi barədə şəxslərə edilən rəsmi xəbərdaredici tədbirdir. Xəbərdarlıq yazılı formada edilir".[1] Lakin burada məişət zorakılığı ilə bağlı dərhal mühafizə orderinin verilməsi haqqında tələb qoyulmur. Bu isə mühafizə orderin tətbiqinin imperativliyinə zəmanət vermir.

**11.1. -ci maddənin** tələblərinə görə məişət zorakılığı faktı cinayət məsuliyyətinin yaranması üçün əsas olmadığı halda inzibati qaydada zorakılığı törətmiş şəxsə xəbərdarlıq tətbiq

---

[1] Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. - Bakı., 2000.– S.11.

olunur. İnzibati Xətalar Məcəlləsinin 24-cü maddəsi xəbərdarlığın yazılı olduğu şərtini nəzərdə tutulur. Lakin, bu Qanunun tələblərinə görə məişət zorakılığı ilə bağlı xəbərdarlığın konkret hərəkətlərlə müşahidə olunması qeyd edilir. Məsələn, məişət zorakılığı ilə bağlı hərəkətləri törətmiş şəxsə həmin və ya ona oxşar hərəkətlərin təkrarlanmaması barədə xəbərdarlığın edilməsi zorakılığın qurbanlarının qorunması üçün kifayət qədər görülən tədbir deyil. Zərər çəkmiş şəxs mütləq qaydada zorakılığı törədən şəxsdən təcrid olmalıdır və proses inzibati-hüquqi qaydada mühafizə olunmalıdır.

Digər tərəfdən, xəbərdarlıq inzibati tənbeh növləri içərisində nisbətən yüngül tənbeh növüdür. Bu baxımdan onun tətbiqi ailə münasibətlərində mövcud olan psixoloji duruma və bu subyektlər arasında gələcək münasibətlərin bərpasına praktiki olaraq zərər vurmayacaqdır.

**11.2.-ci maddədə** konkret olaraq xəbərdarlıq elan edilməsi və qısamüddətli mühafizə orderinin verilməsi proseduru göstərilir. Belə ki, məişət zorakılığı faktı haqqında müvafiq icra hakimiyyəti orqanına müraciət edildiyi vaxtdan 24 saat ərzində zorakılığı törədən şəxsə rəsmi xəbərdarlıq elan edilməlidir. Bir sutkalıq qısa müddət məişət zorakılığının təkrarlanmaması üçün zəmanət yaradacaq. Bununla yanaşı **11.2.-ci maddədə** zərər çəkmiş şəxsə dərhal 30 gün müddətinədək qısamüddətli mühafizə orderinin verilməsini nəzərdə tutulur. Bu müddət ərzində zorakılığı törədən şəxsdən tələb olunur ki, məişət zorakılığını təkrar törətməsin və ailə münasibətlərində müəyyən hərəkətlərdən çəkinsin.

İnzibati qaydada xəbərdarlıq elan olunan şəxs bu faktla bağlı məhkəməyə şikayət verə bilər. Bu hüquq hər bir kəsə Konstitusiyanın 60-cı maddəsinin 2-ci hissəsi, habelə bu Qanun əsasında verilir. Konstitusiya norması göstərir ki: “hər kəs dövlət orqanlarının, siyasi partiyaların, həmkarlar İttifaqların və digər ictimai birliklərin vəzifəli şəxslərin qərar və hərəkətlərindən (yaxud hərəkətsizliyindən) məhkəməyə şikayət edə bilər”.[2]

[2] Azərbaycan Respublikasının Konstitusiyası //1995-ci il, 12 noyabr tarixində Referendum yolu ilə qəbul edilib.

Beləliklə, hər bir şəxs məhkəmə qarşısında ədalət mühakiməsinin təmin olunması tələbi ilə çıxış edə bilər. İnzibati qərarla razı olmadıqda məhkəməyə müraciət etmək hüququn təminatı "İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasının 6-cı maddəsinin tələblərinə də uyğundur.

Qısamüddətli mühafizə orderindən verilən şikayət onun müddətini və tələblərini pozmağa əsas vermir. **11.3.-cü maddə** müəyyən edir ki, məişət zorakılığı ilə bağlı hərəkətlər törətmiş şəxsin qısamüddətli mühafizə orderinin tələblərinə əməl etməməsi uzunmüddətli mühafizə orderinin verilməsi üçün əsas ola bilər. Bu norma ilə qısa müddətli mühafizə orderinin hüquqi əhəmiyyəti qorunur. Qısamüddətli mühafizə orderindən fərqli olaraq uzunmüddətli order daha ciddi məhdudiyyət şərtlərini nəzərdə tutur. Hətta uzunmüddətli mühafizə orderinin icrasına nəzarət məhkəmələr tərəfindən həyata keçirilir. Ona görə 11.3.-cü maddənin nəticələrini arzulamayan şəxs təkrar zorakılıq hərəkətlərindən çəkinməli və ilkin məhdudiyyətlərə riayət etməlidir.

## Maddə 12. Uzunmüddətli mühafizə orderinin verilməsi qaydası

**12.1. Məişət zorakılığı ilə bağlı hərəkətləri törətmiş şəxs verilmiş xəbərdarlığa əməl etmədikdə, zərər çəkmiş şəxs və ya müvafiq icra hakimiyyəti orqanı uzunmüddətli mühafizə orderinin verilməsi üçün məhkəməyə müraciət etmək hüququna malikdir.**

**12.2. Uzunmüddətli mühafizə orderi 30 gündən 180 gün müddətinə verilir. Uzunmüddətli mühafizə orderinin verilməsi barədə məhkəmə qərarının çıxarılması qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir.**

**12.3. Tərəflərin şəxsi və ailə həyatı sirrinin yayılmasının qarşısını almaq, habelə yetkinlik yaşına çatmamış şəxslərin maraqlarının təmin edilməsi məqsədi ilə uzunmüddətli mühafizə orderinin verilməsi barədə işə qanunvericiliklə müəyyən edilmiş qaydada qapalı məhkəmə iclasında baxıla bilər.**

**12.4. Uzunmüddətli mühafizə orderinin verilməsi barədə məhkəmə qərarı qanunvericiliyə uyğun olaraq qüvvəyə minir və müddəti hesablanır. Uzunmüddətli mühafizə orderinin verilməsi barədə qərar qanunvericiliyə uyğun olaraq icraya yönəldilir.**

**12.5. Uzunmüddətli mühafizə orderinin verilməsi barədə qərardan qanunvericiliklə müəyyən edilmiş qaydada şikayət verilə bilər. Yuxarı instansiya məhkəməsinə şikayətin verilməsi mühafizə orderi üzrə qərarın icrasını dayandırmır.**

**12.6. Uzunmüddətli mühafizə orderinin surəti onun çıxarıldığı gün tərəflərə verilməlidir.**

Bu Qanunun 12-ci maddəsi uzunmüddətli mühafizə orderinin təqdim edilməsi qaydalarını nəzərdə tutur. Uzunmüddətli mühafizə orderinin ciddi məhdudlaşdırıcı xüsusiyyəti və nisbətən uzun müddətinin olmasını nəzərə alaraq onun verilməsi qaydası **12.2.-ci maddəyə** müvafiq olaraq məhkəmələrə həvalə edilir.

Əksər xarici ölkələrdə məişət zorakılığı ilə bağlı mühafizə orderləri məhkəmələr tərəfindən tətbiq edilir. Ona görə ki, mühafizə orderlərində çox sayda məhdudlaşdırıcı tələblər qoyulur. Bu tələblər fərdlərin konstitusion hüquqlarının müvəqqəti məhdudlaşdırılmasına səbəb ola bilər. Məsələn, mühafizə orderi əsasında şəxsin öz mülkiyyətindən (mənzilindən) müvəqqəti istifadəsinə məhdudiyyətin qoyulması ümumi mülkiyyətdən istifadə qaydası mülkiyyət hüququnu müvəqqəti məhdudlaşmasını yaradır.

**12.1.-ci maddə** iki əsas elementdən ibarətdir. Birincisi, zorakılığı törətmiş şəxs ilkin xəbərdarlığa və qısamüddətli orderdə göstərilən tələblərə əməl etmədikdə ona uzunmüddətli mühafizə orderi təqdim edilə bilməsi. İkinci isə uzunmüddətli mühafizə orderinin mütləq qaydada məhkəmə tərəfindən verilməsi. Beləliklə, **12.1.-ci maddəyə** əsasən məhkəmə uzunmüddətli mühafizə orderini ona müraciət edən xüsusi subyektlərin iddiası əsasında zərər çəkmiş şəxsə təqdim edə bilər. Lakin, nəzərə alınmalıdır ki, qanunvericiliyin tələbinə görə,

uzunmüddətli mühafizə orderi məişət zorakılığını törədən şəxsə inzibati qaydada xəbərdarlıq proseduruna və qısamüddətli orderin tələblərinə riayət etmədikdə tətbiq olunur.

Uzunmüddətli mühafizə orderi inzibati qaydada xəbərdarlıq və qısamüddətli orderin təqdim edilməsi prosedurundan müddətinə və şərtlərinə görə fərqlənir. **12.2.-ci maddə** uzunmüddətli mühafizə orderi üçün 30 gündən 180 gün müddət nəzərdə tutulur. Öz növbəsində məhkəmələr zorakılığı törədən şəxsin hərəkətlərinə və psixi vəziyyətinə görə uzunmüddətli mühafizə orderi üçün 1 aydan 6 aya qədər müxtəlif ağlabatan müddət seçə bilər.

Mühafizə orderi mülki və ya inzibati-prosessual qaydada təmin olmalıdır. Bu qayda müzakirə edilən Qanunun tətbiqindən asılıdır. Məsələn, ABŞ, Gürcüstan, Ukrayna kimi ölkələrdə mühafizə orderinin verilməsi mülki-prosessual qaydada həyata keçirilir. Lakin mühafizə orderlərin müddətinin seçilməsində ölkələrin qanunvericiliyi bir qədər fərqli yanaşır. Məsələn, "Ailədə zorakılığın qarşısının alınması, zorakılıq qurbanlarının müdafiəsi və onlara yardım göstərilməsi haqqında" Gürcüstan Qanununun 12-ci maddəsinə əsasən uzunmüddətli mühafizə orderi 3 aya qədər müddətə nəzərdə tutulur. "Ailədə zorakılığın qarşısının alınması haqqında" Ukrayna Qanununun 13-cü maddəsinin 5-ci bəndində isə müvafiq ümumi mühafizə orderi çox qısa müddətə 30 günlük verilə bilər. Bu müddətin qısa olduğunu nəzərə alaraq, Ukrayna Qanununda "mühafizə göstərişi" kimi adlanan mühafizə orderinə nəzarəti polis orqanlarının sahə müvəkkilləri həyata keçirirlər.

12-ci maddənin tələbinə görə uzunmüddətli mühafizə orderinin müddəti uzun olsa da onun verildikdən sonra mütləq bitməsi nəzərdə tutulmur. Deməli tərəflər barışdığı halda mühafizə orderinin müddəti dayandırıla bilər. Lakin bu halda, hüquqi məntiqə əsaslanaraq demək olar ki, tərəflərin hər ikisinin məhkəməyə müraciət etməsi vacibdir.

**12.3.-cü maddədə** ailə sirrinin qorunması tələbi qoyulur. Azərbaycan Respublikasında şəxsi həyatın toxunulmazlığın ilkin

təminatçısı kimi Konstitusiya çıxış edir. Ailə sirri şəxsi həyat sirrinin əsas və vacib elementlərindən biridir. Bu sirrin yayılmasına görə cinayət qanunvericilində məsuliyyət nəzərdə tutulur. 1998-ci il 19 iyun tarixli "Məlumat azadlığı haqqında" Qanunun 10-cu maddəsinə əsasən "alınması məhdudlaşdırılan məlumatlara – dövlət, peşə (vəkil, notariat, hakim), qulluq, bank, kommersiya, istintaq və məhkəmə, şəxslərin şəxsi və ailə həyatı sirrinə aid olan məlumatlar aiddirlər".[1] Hüquq-mühafizə orqanlarının fəaliyyətində də şəxsi həyatın sirrinin qorunması ilə bağlı tələblər qoyulur. Məsələn, 1999-cu il 28 oktyabr tarixli "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinin 1-ci bəndində göstərilir ki, "hər hansı şəxsin razılığı olmadan onun şəxsi həyatının toxunulmazlığına, o cümlədən şəxsi və ailə həyatının sirrinə, habelə onun şərəf və ləyaqətinə dair əldə edilmiş məlumatları yaymaq qadağandır". [2]

Məhkəmə icraatı ilə bağlı cinayət-prosessual və mülki-prosessual qanunvericilikdə şəxsi həyat sirrinin qorunması məqsədilə qapalı iclasların keçirilməsi proseduru nəzərdə tutulur. Məhkəmə prosesinin iştirakçıları qarşısında şəxsi və ailə həyat sirrinin qorunması ilə bağlı ayrı-ayrılıqda tələb qoyulur. Məsələn, 1999-cu il 28 dekabr tarixli "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanunun 17-ci maddəsinə müvafiq olaraq şəxsi və ailə sirri ilə bağlı əldə olunan məlumatlar peşə sirrinə aid edilir.

Beləliklə, 12.3.-cü maddədə geniş mənada məişət zorakılığı faktlarını araşdıran subyektlərin qarşısında ailə sirrinin qorunması ilə xüsusi vəzifə qoyulur. Məhkəmələrdən isə tələb olunur ki, şəxsi və ailə həyatı sirrinin yayılmasının qarşısını almaq, habelə yetkinlik yaşına çatmamış şəxslərin maraqlarının təmin edilməsi

---

[1] 1998-ci il 19 iyun tarixli "Məlumat azadlığı haqqında" Azərbaycan Respublikası Qanunu // www.genprosecutor.gov.az/files/papere/file_1234434230

[2] "Əməliyyat-axtarış fəaliyyəti haqqında" 1999-cu il 28 oktyabr tarixli Azərbaycan Respublikası Qanunu // www.genprosecutor.gov.az/files/papere/file_1228201745

məqsədi ilə uzunmüddətli orderinin verilməsi məsələsinə qapalı məhkəmə iclasında baxılsın.

**12.4.-cü maddənin** tələblərinə görə uzunmüddətli mühafizə orderinin verilməsi barədə məhkəmə qərarı qanunvericiliyə uyğun olaraq qüvvəyə minir və müddəti hesablanır. Uzunmüddətli mühafizə orderinin qüvvəyə minmə müddəti qanunvericiliklə göstərilməsə də onun dərhal tətbiqi üçün kifayət qədər əsaslar var. İlk növbədə uzunmüddətli mühafizə orderinin tətbiqi qısamüddətli mühafizə orderinin müddətinin bitməsi nəticəsində yaranır. Digər tərəfdən, uzunmüddətli mühafizə orderinin tətbiqi zorakılıq təhlükəsinin bitməməsi ilə şərtlənir. Deməli, uzunmüddətli mühafizə orderinin dərhal qüvvəyə minməsi zorakılıq qurbanının mühafizə olunması baxımından xüsusi ilə vacibdir.

12.4.-cü maddəsinin digər tələbinə görə uzunmüddətli mühafizə orderinin verilməsi barədə qərar icraya qanunvericiliyə uyğun olaraq yönəldilir. Bu normanın effektif təminatı üçün qanunvericilikdə uzunmüddətli mühafizə orderinin icrasına nəzarət edən subyektlər və onların xüsusi səlahiyyətləri göstərilməlidir.

**12.5.-ci maddədə** uzunmüddətli mühafizə orderinin verilməsi ilə bağlı məhkəmə qərarından qanunvericiliklə müəyyən edilmiş qaydada şikayət verilməsi nəzərdə tutulur. Məişət zorakılığı ilə bağlı model qanunvericiliyində göstərilir ki, mühafizə orderi təxirəsalınmaz icra olunmalıdır və hətta onunla bağlı cavabdeh tərəfindən şikayət verildiyi halda mühafizə orderinin icrası dayandırılmır. Ona görə ki, mühafizə orderinin icrasının dayandırılması zorakılıqdan zərər çəkən ailə üzvlərinə real təhlükə yaranması üçün imkandır. Bununla belə, bu Qanunla tətbiq olunan mühafizə orderindən şikayətin verilməsinə hər hansı məhdudiyyət qoyulmur.

Uzunmüddətli mühafizə orderi ünvanlı xarakter daşıyır. Ona görə model qanunvericiliyin tövsiyələrini nəzərə alaraq bu Qanunun **12.6.-cı maddəsində** uzunmüddətli mühafizə orderinin

surətinin onun çıxarıldığı gün tərəflərə təqdim edilməsi nəzərdə tutulur.

## III FƏSİL. MƏİŞƏT ZORAKILIĞININ QARŞISININ ALINMASI SAHƏSİNDƏ TƏDBİRLƏR

**Maddə 13. Məişət zorakılığının qarşısının alınması sahəsində tədbirlərin növləri**

**13.1. Məişət zorakılığının qarşısının alınması sahəsində tədbirlərin aşağıdakı növləri vardır:**

**13.1.1. hüquqi xarakterli tədbirlər - məişət zorakılığı hallarının araşdırılması, məişət zorakılığına yol vermiş şəxslərin qanunla müəyyən edilmiş qaydada məsuliyyətə cəlb edilməsi;**

**13.1.2. sosial xarakterli tədbirlər - zərər çəkmiş şəxslərin sosial müdafiəsi üzrə, o cümlədən müvəqqəti sığınacaqla təmin edilməsi, onlara dövlət hesabına hüquqi və tibbi yardımın göstərilməsi, habelə digər sosial yönümlü tədbirlərin həyata keçirilməsi;**

**13.1.3. qabaqlayıcı tədbirlər - əhali arasında məişət zorakılığının mənfi hüquqi, tibbi və sosial nəticələrinin izah edilməsi, məişət zorakılığının qarşısının alınmasına yönəlmiş digər maarifləndirmə tədbirlərinin təşkili.**

**13.2. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən məişət zorakılığının qarşısının alınması ilə bağlı tədbirlər üzrə dövlət proqramları qəbul edilə bilər.**

Bu Qanunun **13-cü maddəsi** məişət zorakılığının qarşısının alınması sahəsində görülən tədbirlərin növlərini açıqlayır. Bu təsnifat mübarizənin hüquqi cəhətdən kompleksli şəkildə sistemləşdirilməsinə imkan yaradır. Tədbirlər öz əhəmiyyəti və təsirinə görə **13.1.1.-13.1.3-cü maddələrdə** təsnif edilir.

Hüquqi xarakterli tədbirlər geniş mənada cinayət-prosessual və inzibati hüquq prosedurlarını nəzərdə tutur. Hər bir hüquqi tədbir məcəlləşdirilmiş qanunvericilik əsasında mərhələ-mərhələ aparılmalıdır. Məsələn, məişət zorakılığı ilə bağlı tədbirlərdə zorakılığı törətmiş şəxsə ilk növbədə xəbərdarlıq elan edilir və

zərər çəkən şəxsə qısamüddətli mühafizə orderi verilir. Sonra müsbət nəticə əldə edilmədiyi halda məhkəmə tərəfindən uzunmüddətli mühafizə orderi təyin edilir. Digər tərəfdən isə şəxsin əməlində cinayət tərkibi aşkar edildiyi halda o, cinayət məsuliyyətinə cəlb edilir.

Hüquqi xarakterli tədbirlər dövlət orqanları tərəfindən həyata keçirilir və məhdudlaşdırıcı göstərişlərlə müşahidə olunur. Hüquqi xarakterli tədbirlərin təsiri vasitəsinə görə, onları zorakılığın qarşısını alan və zərər çəkmiş şəxslərə yardımı göstərən tədbirlər kimi təsnif etmək olar. Hər bir hüquqi tədbir qanunçuluq prinsipi əsasında həyata keçirildiyi halda ictimai münasibətlərin tənzimlənməsində müsbət rol oynayır.

Sosial xarakterli tədbirlər sisteminə zərərçəkmiş şəxsin sosial müdafiəsi, ona tibbi yardımın göstərilməsi, müvəqqəti sığınacaqla təmin edilməsi və s. kimi tədbirlər aid edilir. bu Qanun sosial baxımdan məişət zəminində törədilən münaqişə nəticəsində zərər çəkən şəxsə xüsusi sosial təminat əldə edilməsi üçün imkan yaradır. Məsələn, yardım mərkəzlərindən və sosial işçinin yardımından istifadə edilməsi. Sosial xarakterli tədbirlərin keçirilməsi hər bir sosial dövlətin marağındadır. Ona görə əksər ölkələrin təcrübəsində yardım mərkəzlərinin təminatı üçün dövlət büdcəsində xüsusi maliyyə ayrılmaları nəzərdə tutulur.

Bu Qanun sosial tədbirləri məhdud xarakterli nəzərdə tutmur. Məişət zorakılığı ilə bağlı dövlət tərəfindən göstərilən sosial xidmət ailədə saf psixoloji mühitin yaradılmasına ehtiyac olduğu halda təmin edilir. Məsələn, "Ailədə zorakılığın qarşısının alınması, zorakılıq qurbanlarının müdafiəsi və onlara yardım göstərilməsi haqqında" Gürcüstan Qanununun 4-cü maddəsində zorakılığı törətmiş şəxslər üçün də reabilitasiya mərkəzləri nəzərdə tutulub. Bu reabilitasiya mərkəzləri cinayət törətmiş şəxsin sağlam ailə münasibətlərinə qayıtması üçün psixoloji reabilitasiya fəaliyyətini həyata keçirir.

Məişət zorakılığı hüquq pozuntusu olduğuna görə bu neqativ halın qarşısının alınması məqsədi ilə **13.1.3.-cü maddədə** qabaqlayıcı tədbirlər nəzərdə tutulub. Bu tədbirlər ümumilikdə

profilaktik xarakter daşıyırlar. Əhalinin maarifləndirilməsi, hüquqi düşüncəsinin artırılması qabaqlayıcı tədbirlər sırasında vacibidir. Qabaqlayıcı tədbirlər sırasına məişət zorakılığının mənfi hüquqi, tibbi və sosial nəticələrinin izah edilməsi kimi tədbir də aid edilir.

**13.2.-ci maddədə** məişət zorakılığı ilə mübarizədə dövlət orqanlarının məqsədli proqramının qəbul edilməsi göstərilir. Təcrübəyə görə bu proqramlar müəyyən müddəti əhatə edir və kompleks xarakterli tədbirlər kimi nəzərdə tutulur.

**Maddə 14. Məişət zorakılığının qarşısının alınması sahəsində hüquqi tədbirlər**

**14.0. Məişət zorakılığının qarşısının alınması sahəsində hüquqi tədbirlər aşağıdakılardan ibarətdir:**

**14.0.1. məişət zorakılığı ilə bağlı cinayət təqibinin həyata keçirilməsi;**

**14.0.2. məişət zorakılığı törətmiş şəxslərin məsuliyyətə cəlb edilməsi;**

**14.0.3. zərər çəkmiş şəxslərin hüquqlarının, azadlıqlarının və qanuni mənafelərinin müdafiəsi, araşdırmanın aparıldığı müddət ərzində müraciət etmiş şəxsin təhlükəsizliyinin təmin edilməsi;**

**14.0.4. zərər çəkmiş şəxslərin dövlət vəsaiti hesabına hüquqi yardımla təmin edilməsi;**

**14.0.5. məişət zorakılığı ilə bağlı işlərə dair məhkəmə qərarlarının icrasının təmin edilməsi;**

**14.0.6. məişət zorakılığı ilə bağlı verilmiş xəbərdarlığın icrasına nəzarətin həyata keçirilməsi;**

**14.0.7. məişət zorakılığı ilə bağlı hərəkətləri törətmiş şəxslərin qanunvericiliklə müəyyən olunmuş qaydada valideynlik hüququndan məhrum edilməsi və ya valideynlik hüquqlarının məhdudlaşdırılması;**

**14.0.8. məişət zorakılığı ilə bağlı statistik məlumatların toplanması;**

**14.0.9. qanunvericiliklə müəyyən edilmiş qaydada məişət zorakılığı ilə bağlı məlumatların konfidensiallığının təmin edilməsi;**

**14.0.10. qeyri-dövlət yardım mərkəzlərinin fəaliyyəti ilə bağlı normativ tənzimləmənin və həmin mərkəzlərin akkreditasiyasının həyata keçirilməsi;**

Bu Qanunun **14-cü maddəsində** məişət zorakılığının qarşısının alınması sahəsində hüquqi tədbirlərin fərqli formaları göstərilir. Nəzərdə tutulan tədbirlər bütövlükdə cinayət və inzibati prosessual tədbirləri əhatə edir. Hüquqi tədbirlər öz xüsusiyyətinə görə məcburi xarakter daşıyır. Məsələn, məişət zorakılığı ilə bağlı statistik məlumatların toplanmasının hüquqi tədbir kimi göstərilməsi onun mütləq xarakterini qeyd edir. Hüquqi tədbirlər səlahiyyətli orqanlar tərəfindən həyata keçirilir. Hər bir hüquqi tədbir qanunvericiliyə əsaslanaraq konkret bir mərhələ çərçivəsində realizə edilir.

Hüquqi tədbirlər sistemində qeyri-dövlət yardım mərkəzlərinin akkreditasiyası göstərilir. Akkreditasiya prosesi xüsusi olaraq hüquqi xarakter daşımalıdır. **4.0.10.-cu maddə** qeyri-dövlət yardım mərkəzlərinin fəaliyyəti ilə bağlı normativ tənzimləmənin və həmin mərkəzlərin akkreditasiyasının prosedur qaydalarını açıqlamır. Deməli, belə qənaətə gəlmək olar ki, akkreditasiya prosesi müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilərkən bu proses xüsusi Təlimatla tənzimlənəcəkdir.

Hüquqi tədbirlərin effektiv olması üçün onların qanunçuluq prinsipinə əsaslanaraq həyata keçirilməsi vacibdir. Müsbət nəticələrin əldə olunması naminə bir prosedur qaydanın pozulması hər bir halda mənfi fəsadlara səbəb olur.

**Maddə 15. Məişət zorakılığının qarşısının alınması sahəsində sosial tədbirlər**

**15.0. Məişət zorakılığının qarşısının alınması sahəsində sosial tədbirlər aşağıdakılardan ibarətdir:**

**15.0.1. zərər çəkmiş şəxslərin sosial müdafiəsinin təşkili, onlara müvafiq sənədlərin və ya qanunvericiliklə müəyyən edilmiş sosial müavinətlərin alınmasında kömək göstərilməsi;**

**15.0.2. zərər çəkmiş şəxslərə təhsilin davam etdirilməsində kömək göstərilməsi;**

**15.0.3. zərər çəkmiş şəxslərin işlə təmin edilməsində, yeni peşələrə yiyələnməsində kömək göstərilməsi;**

**15.0.4. zərər çəkmiş şəxslərə dövlət vəsaiti hesabına tibbi yardımın göstərilməsi;**

**15.0.5. zərər çəkmiş şəxslər üçün psixoloji reabilitasiya kurslarının təşkili;**

**15.0.6. zərər çəkmiş şəxslər üçün yardım mərkəzlərinin yaradılması;**

**15.0.7. zərər çəkmiş uşaqların sosial qayğı ilə təmin edilməsi üçün tədbirlərin görülməsi;**

**15.0.8. zərər çəkmiş şəxslərin sosial müdafiəsi istiqamətində digər tədbirlərin həyata keçirilməsi.**

Bu Qanunun **15-ci maddəsində** geniş qaydada sosial tədbirlər nəzərdə tutulur. Bu tədbirlərin həyata keçirilməsi müəyyən büdcə vəsaitinin ayrılmasını tələb edir. Onlar mütləq qaydada dövlət tərəfindən və ya könüllü şəkildə qeyri-hökumət təşkilatları tərəfindən həyata keçirilir.

Əksər halda sosial tədbirlərin keyfiyyəti və həcmi dövlətin iqtisadi imkanlarından asılıdır. Məsələn, məişət zorakılığı ilə mübarizədə böyük təcrübəsi olan Kanada modeli federal və regional səviyyədə geniş büdcə ilə təmin olunan sosial tədbirlər sisteminə əsaslanır. 1997-1998-ci illərdə məişət zorakılığı ilə mübarizə sahəsinə federal büdcədən 30,7 milyon dollar həcmində vəsait ayrılmışdır. Bu vəsait yardım mərkəzlərinin saxlanmasına, hüquq pozuntusunun profilaktikasına yönəldilmişdir.[1]

---

[1] Забилина Т.Ю. и др. Канада и проблемы насилия в семье: двадцать лет борьбы // www.owl.ru/win/research/kanada.htm

**15.0.-cı maddədə** göstərilən sosial tədbirləri ümumiləşdirərək, qeyd etmək olar ki, onlar məişət zorakılığından zərər çəkən şəxslərin sosial müdafiəsinin təmin olunmasına, onlara hüquqi və tibbi yardımın göstərilməsinə, psixoloji reabilitasiyasına, təhsilin davam etməsinə kömək məqsədini daşıyırlar.

Öz növbəsində **15.0.8.-ci maddə** sosial tədbirlərin məhdud xarakterli olmadığını göstərir. Bu cür hüquqi formula gələcəkdə imkan yarada bilər ki, sosial reabilitasiya, psixoloji yardım kimi sosial tədbirlər məişət zorakılığı münaqişəsinin hər bir tərəfinə məhdudiyyətsiz bu Qanun əsasında göstərilsin.

## Maddə 16. Məişət zorakılığı ilə bağlı qabaqlayıcı tədbirlər

**16.1. Məişət zorakılığı ilə bağlı qabaqlayıcı tədbirlər məişət zorakılığının qarşısının alınmasına, ailələrdə normal münasibətlərin yaradılmasına, məişət zorakılığı hallarının və ondan yaranan mənfi hüquqi, tibbi və sosial nəticələrin aradan qaldırılmasına yönəlir.**

**16.2. Məişət zorakılığı ilə bağlı qabaqlayıcı tədbirlər aşağıdakılardan ibarətdir:**

**16.2.1. məişət zorakılığı əleyhinə maarifləndirmə işinin aparılması;**

**16.2.2. məişət zorakılığı hallarının və onun doğurduğu mənfi hüquqi, tibbi və sosial nəticələrin izah edilməsi;**

**16.2.3. məişət zorakılığının qarşısının alınması üsullarının izah edilməsi;**

**16.2.4. əhali arasında yüksək mədəniyyətə və qarşılıqlı hörmətə əsaslanan ailə münasibətlərinin təbliğ edilməsi;**

**16.2.5. məişət zorakılığına səbəb olan halların araşdırılması, təhlil edilməsi, onların qarşısının alınmasına yönəlmiş tövsiyələrin, proqramların hazırlanması, maarifləndirmə tədbirlərinin təşkili;**

**16.2.6. məişət zorakılığı törətmiş şəxslərin profilaktik qeydiyyata götürülməsi və həmin şəxslərlə tərbiyəvi-qabaqlayıcı işin aparılması**

**16.2.7. məişət zorakılığına görə qanunvericiliklə müəyyən olunmuş məsuliyyətin izah edilməsi;**

**16.2.8. məişət zorakılığı törətmiş şəxslərə belə halların təkrarlanmaması barədə xəbərdarlıq edilməsi;**

**16.2.9. məişət zorakılığı ilə bağlı sorğuların keçirilməsi;**

**16.3. Məişət zorakılığı törətmiş şəxslərin profilaktik qeydiyyata götürülməsi və həmin şəxslərlə tərbiyəvi-qabaqlayıcı işin aparılması qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.**

**16-cı maddə** məişət zorakılığının profilaktikası məqsədilə qabaqlayıcı tədbirləri nəzərdə tutur. Bu Qanunun məqsədi zorakılıqdan zərər çəkmiş şəxsin mühafizəsi ilə bərabər, habelə sağlam ailə münasibətlərinin bərpa edilməsinə yönəlibdir.

16-cı maddənin tələblərinə görə qabaqlayıcı tədbirlərin iki istiqamətdə aparılması nəzərdə tutulur. Birincisi, məişət zorakılığı halları törədilmiş ailələrdə, ikincisi, ümumilikdə əhali ilə aparılan maarifləndirmə prosesində.

Qabaqlayıcı tədbirlərin birinci istiqamətinə aid etmək olar: məişət zorakılığı törətmiş şəxslərin profilaktik qeydiyyata götürülməsi və həmin şəxslərlə tərbiyəvi-qabaqlayıcı işin aparılması **(16.2.6.-cı maddə);** məişət zorakılığına görə qanunvericiliklə müəyyən olunmuş məsuliyyətin izah edilməsi **(16.2.7.-ci maddə);** məişət zorakılığı törətmiş şəxslərə belə halların təkrarlanmaması barədə xəbərdarlıq edilməsi **(16.2.8.-ci maddə)**. İkinci qrup qabaqlayıcı tədbirlərə: sorğunun keçirilməsi **(16.2.9.-cu maddə)** və əhalinin geniş mənada maarifləndirilməsi aid edilir.

Məişət zorakılığı halları törədilmiş ailələrdə profilaktik tədbirlər məqsədyönlü şəkildə aparılır. Bu tədbirlər məişət zorakılığı hallarının təkrarlanmamasına xidmət edir. Tədbirlərin effektivliyi onların peşəkar sosial işçilər tərəfindən həyata keçirilməsindən birbaşa asılıdır. Ona görə **16.3.-cü maddədə** məişət zorakılığı törətmiş şəxslərin profilaktik qeydiyyata götürülməsi və həmin şəxslərlə tərbiyəvi-qabaqlayıcı işin aparılması qaydası müvafiq icra hakimiyyəti orqanına həvalə edilir.

**Maddə 17. Zərər çəkmiş şəxslərə yardım göstərildikdə konfidensiallığın təmin edilməsi**

**17.1. Şəxs barəsində məişət zorakılığının törədilməsi faktı və zərər çəkmiş şəxslərə yardım göstərildiyi vaxt şəxsi və ailə həyatı barəsində müəyyən edilmiş məlumatlar konfidensial hesab olunur.**

**17.2. Məişət zorakılığı ilə bağlı müraciətlərin araşdırılması, məişət zorakılığı ilə bağlı statistik məlumatların toplanılması, zərər çəkmiş şəxslərə yardımın göstərilməsi zamanı məlumatların konfidensiallığı, şəxsi və ailə sirrinin yayılmaması təmin edilməlidir.**

**17.3. Məişət zorakılığı ilə bağlı məlumat bankında toplanmış məlumatların konfidensiallığı məlumat bankını aparan müvafiq icra hakimiyyəti orqanı tərəfindən təmin olunur. Məişət zorakılığı ilə bağlı məlumatlar yalnız qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada verilə bilər. Məişət zorakılığı ilə bağlı statistik məlumatlar adsızlaşdırılmış şəkildə açıqlanmalıdır.**

**17.4. Xidməti fəaliyyəti ilə bağlı məişət zorakılığı barədə müraciətlərin araşdırılması zamanı məlumatların konfidensiallığını təmin etməyən vəzifəli şəxslər qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.**

Zərər çəkmiş şəxsə yardımın göstərilməsi və ailə münasibətlərinə sosial işçilərin müdaxilə etməsi ailə sirrinin yayılmasına səbəb ola və ailə dəyərlərinin qorunmasına təhlükə yarada bilər. Ailə münasibətlərində zorakılıq halının baş verməsi hər bir tərəfin sosial statusuna zərər vurur. Ona görə **17-ci maddədə** konfidensiallığın təmin olunması prosesi 3.1.4.-cü maddəsindəki prinsipə müvafiq olaraq müəyyən edilir. **17.1.-ci maddədə** konfidensial məlumatlar kateqoriyasına məişət zorakılığı ilə bağlı faktlar aid edilir. Zərər çəkmiş şəxsə yardımın göstərilməsi əksər halda şəxsi və ailə həyatı sirri olan məlumatların əldə edilməsi ilə müşahidə olunur. Ona görə bu

sahədə fəaliyyət göstərən hər bir vəzifəli şəxs qeyri-hökumət təşkilatlarının və qeyri-dövlət yardım mərkəzlərinin əməkdaşları konfidensiallıq prinsipinə riayət etməlidirlər.

Cinayət mühakimə icraatı zamanı şəxsi və ailə sirrini təşkil edən məlumatların qorunması cinayət prosesinin hər bir iştirakçısının prosessual vəzifəsidir. Məsələn, CPM-in 199.2-ci maddəsi göstərir ki, "prosessual hərəkətlərin gedişində hər hansı şəxsi şəxsin həyatına aid məlumatların, habelə onun gizli saxlanılmasını lazım bildiyi digər şəxsi xarakterli məlumatların lüzumsuz toplanmasına, yayılmasına və onlardan istifadə edilməsinə yol verilmir".[1]

**17.2. və 17.3.-cü maddələr** məişət zorakılığı ilə bağlı müraciətlərin araşdırılması mərhələsində, habelə statistik məlumatların toplanması, zərər çəkmiş şəxslərə yardımın göstərilməsi zamanı əldə edilən ailə sirri xarakterli məlumatların yayılmasına məhdudiyyət qoyur. Məişət zorakılığı ilə bağlı məlumatlar yalnız qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada verilə və bu məlumatların mühafizəsini təmin etmək məqsədilə onları adsız şəkildə açıqlana bilər. Bu tələblər "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri haqqında" 2006-cı il 21 aprel tarixli Azərbaycan Respublikasının Qanunun müvafiq müddəalarına uyğun nəzərdə tutulur.

**17.4.-cü maddədə** konfidensiallığın təmin edilmədiyi halda qanunvericiliklə nəzərdə tutulan məsuliyyətin yaranması qeyd edilir. Konfidensiallıq tələbi Cinayət Məcəlləsinin 156-cı maddəsinə əsaslanır. Bu maddədə göstərilir ki, "şəxsi və ailə həyatının sirri olan məlumatların belə məlumatları əks etdirən sənədlərin yayılması, habelə satılması və ya başqasına verilməsi, qanunsuz toplanılması hətta bir ilə qədər müddətə islah işləri ilə cəzalandırılır".[1]

---

[1] Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. Bakı., 2000. – S.205.
[1] Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. //www.bes.az/huquq/AR_Cinayt_Mcllsi.htm

Beləliklə, məişət zorakılığının ailə münasibətlərinə vurduğu zərərin əhəmiyyəti nəzərə alınaraq 17-ci maddə konfidensiallıq qaydaları xüsusi ilə vurğulanır.

**Maddə 18. Məişət zorakılığı ilə bağlı məlumat bankı**

**18.1. Məişət zorakılığı ilə bağlı məlumat bankı müvafiq icra hakimiyyəti orqanı tərəfindən yaradılır.**

**18.2. Məlumat bankında baş vermiş məişət zorakılığı halları, məişət zorakılığı halları ilə bağlı dövlət orqanlarına müraciət etmiş şəxslər, məişət zorakılığı halları ilə bağlı aparılmış araşdırmalar və araşdırmaların nəticələri, məişət zorakılığı halları ilə əlaqədar məsuliyyətə cəlb edilmiş şəxslər, məhkəmə qərarları, o cümlədən valideynlik hüquqlarından məhrum edilmiş və ya valideynlik hüquqları məhdudlaşdırılmış şəxslər, eləcə də valideynlik hüquqları bərpa edilmiş və ya valideynlik hüquqlarının məhdudlaşdırılması ləğv edilmiş şəxslər, akkreditə edilmiş yardım mərkəzləri, onların fəaliyyəti barədə və digər məlumatlar toplanır.**

**18.3. Məişət zorakılığı ilə bağlı məlumat bankının təşkili və aparılması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.**

**18.4 Dövlət orqanları və yardım mərkəzləri məişət zorakılığı halları ilə bağlı məlumatları müvafiq icra hakimiyyəti orqanına təqdim etməlidirlər.**

**18.5. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən məişət zorakılığı ilə bağlı məlumat bankında məişət zorakılığı halları üzrə toplanan məlumatlar əsasında ümumiləşdirmələr və təhlil materialları hazırlanır.**

Məişət zorakılığı ilə bağlı qabaqlayıcı tədbirlərin faydalı həyata keçirilməsi və ümumilikdə mübarizənin kompleksli və ardıcıl aparılması üçün zorakılıq hallarının məlumat bankı yaradılmasına xüsusi ehtiyaca var. **18-ci maddədə** yaradılması

nəzərdə tutulan məlumat bankı iki əsas funksiyanı həyata keçirəcək. Birincisi, fərdi və ikincisi ümumi xarakterli funksiya.

Məlumat bankının fərdi funksiyası zorakılığı törətmiş şəxsə qarşı yönəlir. Fərdi məlumatlar zorakılıq törədən şəxsin psixoloji vəziyyəti, törədilən zorakılığın ictimai təhlükəliliyi, zorakılıq hallarının təkrarlanması və s. məsələləri nəzərdə tutur. Dövlət orqanları bu məlumatları əldə edərək zorakılığa qarşı profilaktik tədbirlərin keçirilməsində daha ardıcıl ola bilərlər.

**18.2.-ci maddədə** məlumat bankında toplanan məişət zorakılığı ilə bağlı konkret məlumatların qeyd edilməsi nəzərdə tutulur. Bu məlumatlar məhdud xarakterli deyil. Yəni onların dairəsi genişləndirilə bilər. Bu məlumatlara baş vermiş məişət zorakılığı halları, məişət zorakılığı halları ilə bağlı dövlət orqanlarına müraciət etmiş şəxslər, məişət zorakılığı halları ilə bağlı aparılmış araşdırmalar və araşdırmaların nəticələri, məişət zorakılığı halları ilə əlaqədar məsuliyyətə cəlb edilmiş şəxslər, məhkəmə qərarları, o cümlədən valideynlik hüquqlarından məhrum edilmiş və ya valideynlik hüquqları məhdudlaşdırılmış şəxslər, eləcə də valideynlik hüquqları bərpa edilmiş və ya valideynlik hüquqlarının məhdudlaşdırılması ləğv edilmiş şəxslər, akkreditə edilmiş yardım mərkəzləri, onların fəaliyyəti barədə və digər məlumatları aid edilir.

17-ci maddədə göstərilən konfidensiallıq prinsipi birbaşa məlumat bankının fəaliyyəti ilə bağlıdır. Burada toplanan məlumatlar şəxsi ailə sirrini daşıyırlar və onların toplanması, istifadə edilməsi xüsusi rejim qaydasında həyata keçirilir. Buna əsaslanaraq **18.3.-cü maddə** məlumat bankının təşkili və aparılması qaydalarını ixtisaslaşmış müvafiq icra hakimiyyəti orqanına həvalə edir. Bu Qanunun faydalı tətbiqi üçün məlumat bankının yaradılması xüsusi ilə vacibdir.

Məlumat bankının yaradılması model qanunvericiliyi ilə tövsiyə edilməsə də, onun bu Qanunda göstərilməsi müsbət praktiki əhəmiyyət daşıyır. Xarici ölkələrin təcrübəsində bu cür fəaliyyət formasını profilaktik qeydiyyat adlandırırlar. Məsələn, “Ailə zorakılığı ilə mübarizə haqqında” 2001-ci il 15 noyabr

tarixli Ukrayna Qanununun 12-ci maddəsində zorakılığı törətmiş şəxslərin xüsusi məlumat bazasında profilaktik qeydiyyata götürülməsi qeyd edilir.

Bu Qanunda məişət zorakılığı hallarının qeydiyyatı sistemi kimi məlumat bazasını adlandıraraq ona bir qədər geniş funksiya ayrılır. Məlumat bankının (ikinci) ümumi xarakterli funksiyasını məişət zorakılığı ilə mübarizədə yeni forma və metodlarını təhlili ilə əlaqələndirmək olar. **18.5.-ci maddəsinə** əsasən məlumat bankında toplanan informasiya əsasında ümumiləşdirmələr və təhlilin aparılması müvafiq icra hakimiyyəti orqanına həvalə edilir.

**Maddə 19. Yardım mərkəzləri**

**19.1. Zərər çəkmiş şəxslər üçün dövlət yardım mərkəzləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən təşkil olunur. Dövlət yardım mərkəzlərinin göstərdiyi xidmətlər ödənişsizdir.**

**19.2. Yardım mərkəzlərinin fəaliyyət istiqamətləri aşağıdakılardır:**

**19.2.1. zərər çəkmiş şəxsləri hüquqi və (və ya) tibbi yardımla təmin etmək;**

**19.2.2. zərər çəkmiş şəxslərin işlə təmin edilməsinə, yeni peşələrə yiyələnməsinə kömək göstərmək;**

**19.2.3. zərər çəkmiş şəxslər üçün psixoloji reabilitasiya kursu təşkil etmək;**

**19.2.4. zərər çəkmiş şəxslərin sosial müdafiəsi üçün müvafiq sənədlərin hazırlanmasında və ya sosial müavinətlərin alınmasında kömək göstərmək;**

**19.2.5. zəruri hallarda zərər çəkmiş şəxsləri müvəqqəti sığınacaqla təmin etmək;**

**19.2.6. zərər çəkmiş şəxslərin ailələrində normal həyat tərzinin bərpa edilməsi üçün tədbirlər görmək;**

**19.2.7. məişət zorakılığı ilə bağlı müvafiq qabaqlayıcı tədbirlər həyata keçirmək;**

**19.2.8. zərər çəkmiş şəxslərin qarşılıqlı yardım qruplarını təşkil etmək;**

**19.2.9. zərər çəkmiş şəxslərin sosial müdafiəsi ilə bağlı digər tədbirlərin həyata keçirilməsini təmin etmək.**

**19.3. Yetkinlik yaşına çatmamış zərər çəkmiş şəxslər yardım mərkəzində 3 ay müddətinədək, digər zərər çəkmiş şəxslər isə 2 ay müddətinədək zəruri hallarda sığınacaqla təmin oluna bilərlər.**

**19.4. Yerli özünüidarə orqanları, qeyri-hökumət təşkilatları, digər qurumlar və şəxslər yardım mərkəzlərini yarada bilərlər. Fiziki şəxslərin mənzillərindən onların razılığı əsasında xeyriyyəçilik məqsədilə yardım mərkəzi kimi istifadə oluna bilər.**

**19.5. Qeyri-dövlət yardım mərkəzləri müvafiq icra hakimiyyəti orqanında akkreditasiyadan keçməlidir.**

**19.6 Yardım mərkəzlərinin fəaliyyəti qaydası və qeyri-dövlət yardım mərkəzlərinin akkreditasiyası qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.**

Bu Qanunun **19-cu maddəsində** nəzərdə tutulan yardım mərkəzlərinin funksiyaları sosial əhəmiyyətli xarakter daşıyırlar. Yardım mərkəzləri məişət zorakılığı ilə mübarizənin əsas sosial yükünü öz üzərinə götürürlər. Model qanunvericiliyin tövsiyələrində göstərilən "təxirəsalınmaz" və ya "adi qaydada" yardımın göstərilməsi birbaşa yardım mərkəzlərinin funksiyaları ilə bağlıdır.

Xarici ölkələrin təcrübəsinə əsasən yardım mərkəzləri əksər hallarda zərər çəkmiş şəxsə yardım göstərilməsi və onun psixoloji reabilitasiyasına şərait yaradan təsisatdır. Elə ölkələr var ki, hətta yardım mərkəzlərində zorakılıq törətmiş şəxslərin də psixoloji reabilitasiyası təşkil edilir. Belə halda tərəflərə göstərilən yardım öz mahiyyətinə görə fərqlidir. Məsələn, ABŞ-da, Avstraliyada və s. ölkələrdə məişət zorakılığından zərər çəkmiş şəxslərə yardım dövlət hesabına göstərilsə də, məişət zorakılığını törətmiş şəxslərin psixoloji reabilitasiyası onlara təyin olunan cəzanın

əvəz edilməsi şərti ilə özlərinin hesabına həyata keçirilir. "Ailədə zorakılığın qarşısının alınması, zorakılıq qurbanlarının müdafiəsi və onlara yardım göstərilməsi haqqında" Gürcüstan Qanununun 4-cü maddəsində tərəflərə göstərilən sosial yardımın xüsusiyyətlərinə görə fərdi anlayışları verilir. Məsələn, 4-cü (9) maddə zərərçəkmiş şəxslərə yardım göstərən müəssisələr "sığınacaq" adlandırılaraq onların Gürcüstanın Əmək, səhiyyə və sosial müdafiə Nazirliyi nəzdində yaradılmasını nəzərdə tutulur. Bu maddə qeyri-hökumət təşkilatları tərəfindən yaradılan sığınacaq xarakterli yardım mərkəzlərini də istisna etmir. Həmin maddənin (10)-cu bəndində Əmək, səhiyyə və sosial müdafiə Nazirliyi nəzdində fərqli olaraq zorakılıq törətmiş şəxslərin psixoloji reabilitasiyasını təmin edən yardım mərkəzlərinin anlayışı verilir. Qeyd edilən yardım mərkəzləri funksional cəhətdən eyni istiqamətdə aparılsa da, fərqli subyektlərə yönəldilir və ona görə də müxtəlif stasionar yardım mərkəzlərində həyata keçirilir.

**19.1.-ci maddəyə** müvafiq olaraq dövlət yardım mərkəzləri ödənişsiz əsasda tək zərər çəkmiş şəxslər üçün nəzərdə tutulur. Yardım mərkəzlərinin fəaliyyət istiqamətləri **19.2.1.-19.2.9.-cu maddələrdə** müəyyən edilir. Onlar məhdud xarakter daşımırlar, belə ki, **19.2.9.-cu maddə** yardım mərkəzlərinin zərər çəkmiş şəxslərin sosial müdafiəsi ilə bağlı digər tədbirləri həyata keçirmək imkanını nəzərdə tutur.

Sosial yardım mərkəzlərinin yaradılması məqsədi zərər çəkmiş şəxsin mühafizəsinə və ailə münasibətlərinin bərpa edilməsinə yönəlibdir. Orada saxlanma müddəti nisbətən qısamüddətli olur. Məsələn, **19.3.-cü maddəsinə** əsasən yetkinlik yaşına çatmamış zərər çəkmiş şəxslər yardım mərkəzində 3 ay müddətinədək, digər zərər çəkmiş şəxslər isə 2 ay müddətinədək zəruri hallarda sığınacaqla təmin oluna bilərlər. Bu müddət ərzində ehtimal olunur ki, reabilitasiyanı keçmiş zərər çəkmiş şəxs ailə münasibətlərini bərpa edəcək və ya onlara xitam verərək gələcəkdə öz təhlükəsizliyini qorumuş olacaq.

Yardım mərkəzlərində ki şərait psixoloji reabilitasiya üçün real şərait yaratmalıdır. Bu ilk növbədə yardım mərkəzinin əməkdaşlarının peşəkarlığından asılıdır. Məsələn, məişət zorakılığı ilə mübarizədə qabaqcıl ölkələrdən biri olan Kanadada hələ 70-ci illərdə yardım mərkəzləri yaranmağa başladı. Onların yaradılmasının şərtlərindən biri bu fəaliyyətə peşəkar psixoloqların cəlb edilməsi idi. Yardım mərkəzlərini "təhlükəsiz evlər" də adlandırırdılar. İlk yardım mərkəzləri mehmanxana tipli evlərdə təşkil edildi. 1980-ci ildə Kanada üzrə 70 yardım evi var idi. 1990-cı il üçün bu yardım mərkəzlərin sayı 400-ə qədər çatmışdır. Hal-hazırda Kanadada 500-dən artıq yardım mərkəzi var. Hər il bu mərkəzlərə təxminən 100.000 yaxın qadın və uşaq müraciət edir.[1]

Azərbaycanın əhalisinə görə yardım mərkəzləri məişət zorakılığına məruz qalmış şəxslərin ehtiyacına müvafiq yaradılacaqdır. Əks halda bu Qanunun əsas sosial təminat yükü təmin edilə bilməyəcək.

Dövlətin sosial yardım funksiyasına dəstək kimi **19.4.-cü maddədə** qeyri-dövlət yardım mərkəzlərinin yaradılması nəzərdə tutulur. Lakin nəzərə alsaq ki, yardım mərkəzləri peşəkar tibbi, psixoloji, təlimatlandırıcı xarakter daşıyırlar, onların vahid standartlar sistemində fəaliyyət göstərmələri məqsədəuyğundur. Bu baxımdan **19.5.-ci maddədə** qeyri-dövlət yardım mərkəzlərinin müvafiq icra hakimiyyəti orqanında xüsusi akkreditasiya keçirilməsi qaydası müsbət xarakter daşıyır. **19.6.-cı maddəyə** əsasən yardım mərkəzlərinin fəaliyyəti qaydası və qeyri-dövlət yardım mərkəzlərinin akkreditasiyası qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən ediləcəkdir.

---

[1] Забилина Т.Ю. и др. Канада и проблемы насилия в семье: двадцать лет борьбы // www.owl.ru/win/research/kanada.htm

## IV FƏSİL. YEKUN MÜDDƏALAR

### Maddə 20. Qanunun pozulmasına görə məsuliyyət

**Bu Qanunun və məişət zorakılığı ilə bağlı digər qanunvericilik aktlarının tələblərini pozan şəxslər Azərbaycan qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.**

**20-ci maddə** ümumi blanket xarakter daşıyır. Bu Qanunun tələblərini mühafizə məqsədi ilə bu maddə inzibati və cinayət məsuliyyətini müəyyən edən normalara istinad edir.

Məişət zorakılığı ilə bağlı hüquq pozuntuları Azərbaycan qanunvericiliyində fərqləndirilmir. Cinayət növlərinin ümumi kontekstindən məişət münasibətlərində yaranan cinayətləri ayırmaq olar. Onlar geniş subyekt dairəsini nəzərdə tuturlar. Məsələn, Cinayət Məcəlləsinin 149-cu maddəsində nəzərdə tutulan zorlama cinayət növü ailə münasibətləri subyektlərini göstərmir. Bu maddənin dispozisiyasına görə “zorlama, yəni zərərçəkmiş şəxsə və ya başqa şəxslərə qarşı zor tətbiq etməklə və ya belə zor tətbiq etmək hədəsi ilə və ya zərərçəkmiş şəxsin köməksiz vəziyyətindən istifadə etməklə onunla cinsi əlaqədə olmaq”.[1] Beləliklə, zorlama cinayəti subyektinin ailə üzvü olub-olmamasından asılı olmayaraq şəxs məsuliyyətə cəlb edilir. Bununla belə bu cür cinayət ərin arvadına qarşı törətdiyi halda da cinayət məsuliyyəti yaranır.

Təbii ki, bu Qanunda məişət zorakılığı ilə bağlı hüquq pozuntularının təsnifatı verilmir. Azərbaycanın qanunvericiliyində hüquq pozuntuları ictimai təhlükəlilik xarakterinə görə müvafiq hüquq sahələrinin məcəlləşdirilmiş aktlarında təsnif olunurlar. Ona görə də, 20-ci maddədə məsuliyyətlə bağlı digər qanunvericiliyə istinad edilməsi hüquqi texnika baxımından məqsədəmüvafiqdir.

---

[1] Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. // http://qanunk.meclis.gov.az/?page=open&cat=axtar&idn=787-IQ(M)&st=ilkin

Layihənin kordinatoru:
**Xanlar Ağalarov**
*Avrasiya Hüquqşünaslar Assosiasiyasının*
*sədr müavini*

Texniki tərtibatçı və dizayner:
**Əli Fərzəliyev**

Korrektorlar:
**Elxan Qazızadə**
**Elşən Bayramov**

9 789952 807998

**İSBN: 978-9952-8079-9-8**

Yığıma verilmişdir: 24.10.2011
Çapa imzalanmışdır: 11.11.2011
Format: 60x84, 16/1, 16 çap vərəqi
NAT MMC tərəfindən ofset üsulu ilə çap edilmişdir.
Tiraj: 4000.
Bu nəşr pulsuz yayılır